KOB

Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi



“Biz Azərbaycanın sosial-iqtisadi inkişafını bilavasitə sahibkarlıqla, onun inkişafı ilə bağlayırıq”.

Ümummilli lider
**Heydər Əliyev**





“Dövlət sahibkar üçün
ən yaxşı tərəfdaşdır”.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti



Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi




# MÜNDƏRİCAT

KOBİA haqqında 8

Strateji hədəflər və prioritetlər 16

KOBİA-nın fəaliyyət prinsipləri və platformaları 26

"KOB Dostu" şəbəkəsi 70

Biznes mühiti və dəstək mexanizmləri 88

KOB maraqlarının müdafiəsi 142

KOB könüllüləri 150

## Əziz oxucular!

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq, ölkəmizdə sahibkarlığın inkişafı, özəl bölmənin iqtisadiyyatda rolunun artırılması, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması məqsədilə yeni iqtisadi şəraitə uyğun islahatlar aparılır, bu sahənin inkişafı üçün müasir çağırışlara cavab verən dəstək mexanizmləri tətbiq olunur.

Kiçik və orta sahibkarlığın inkişafı ölkəmizdə uğurla həyata keçirilən iqtisadi siyasətin prioritet istiqamətlərindəndir. Dövlət başçısının 2017-ci il 28 dekabr tarixli fərmanı ilə yaradılmış Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) başlıca fəaliyyət istiqamətləri də məhz mikro, kiçik və orta sahibkarlıq sahəsində idarəçilik sisteminin müasir tələblərə uyğunlaşdırılması, KOB-ların inkişafının dəstəklənməsi və ölkə iqtisadiyyatında rolunun artırılmasından ibarətdir. Bu hədəflərə çatmaq üçün Agentlik biznes mühitinin yaxşılaşdırılması, biznesə dövlət xidmətlərinin təkmilləşdirilməsi və KOB maraqlarının müdafiəsi, KOB-ların bilik və innovasiyalara, bazarlara və maliyyəyə çıxışının yaxşılaşdırılması kimi istiqamətlərdə fəaliyyət göstərir. Yəni, KOBİA mikro, kiçik və orta biznesin yaradılmasından başlayaraq, sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə qədər olan bütün mərhələlərdə mövcud dövlət dəstəyi mexanizmləri və Agentliyin göstərdiyi xidmətlər çərçivəsində KOB-lara dəstək olur, dövlət qurumları ilə sahibkarlar arasında körpü rolunu oynayır.

Agentlik fəaliyyətə başlayandan bu günədək KOB sektorunda qanunvericiliyin təkmilləşdirilməsi prosesində aktiv iştirak edib, sahibkarların maraqlarının müdafiəsi istiqamətində müvafiq tədbirlər görüb, Bakıda və ölkə regionlarında yeni biznes layihələrinin reallaşdırılmasına, kiçik və orta sahibkarlıq subyektlərinin bazarlara çıxışının genişləndirilməsinə dəstək göstərib, sahibkarların maarifləndirilməsi istiqamətində bir çox tədbir və layihələr reallaşdırıb. Nəticədə Agentliyin informasiya, məsləhət, hüquqi yardım, maraqların müdafiəsi, əlaqələndirmə, təlim-tədris və s. kimi dəstək tədbirlərindən və xidmətlərindən yüzlərlə sahibkar yararlanıb.

KOBİA-nın ötən qısa müddət ərzindəki fəaliyyəti barədə bu nəşrdə ətraflı məlumat əldə edə biləcəksiniz. Bu nəşr həmçinin fəaliyyətini şəffaflıq və sahibkar məmnunluğu kimi prinsiplər üzərində qurmuş KOBİA-nın, bir növ, biznes ictimaiyyəti və digər maraqlı tərəflər qarşısında hesabatıdır. İnanırıq ki, Agentliyin fəaliyyətinin müxtəlif istiqamətlərinin əks olunduğu bu nəşr sahibkarlar və KOBİA-nın fəaliyyəti barədə məlumat əldə etmək istəyən digər maraqlı tərəflər üçün də əhəmiyyətli informasiya mənbəyinə çevriləcək.

*Hörmətlə,*

**Orxan MƏMMƏDOV**

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı
Agentliyi İdarə Heyətinin sədri

# KOBİA
# HAQQINDA



01 KOBİA haqqında

02 KOBİA Müşahidə Şurası

03 KOBİA-nın strukturu



# 01. KOBİA HAQQINDA

Azərbaycanda davamlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabətqabiliyyətliliyini, inklüzivliyini və sosial rifahın daha da artırılmasını təmin edəcək əsas sənədlərdən biri də milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələridir. Onların icrası nəticəsində qlobal çağırışlara cavab verərək investisiyaların cəlb edilməsi, azad rəqabət mühiti, bazarlara çıxış və insan kapitalının inkişafı nəticəsində Azərbaycan dünya iqtisadiyyatında mövqeyini gücləndirəcək və yüksək gəlirli ölkələr qrupuna daxil olacaq.

Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə ölkədə milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri təsdiq edilib və onların həyata keçirilməsi üçün müvafiq dövlət qurumları öz fəaliyyətlərini daha müfəssəl proqramlar əsasında qurub. Milli iqtisadiyyat və iqtisadiyyatın 11 sektoru üzrə ümumilikdə 12 strateji yol xəritəsi hazırlanıb. Strateji yol xəritələri qısa, orta və uzunmüddətli dövrləri əhatə etməklə 2020-ci ilədək iqtisadi inkişaf strategiyası və tədbirlər planı, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışdan ibarətdir.

Məhz sözügedən Fərmanın tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin "Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında" 2017-ci il 28 dekabr tarixli 1771 nömrəli Fərmanı əsasında "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi" (KOBİA) yaradılıb.


Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi
KOB
Azərbaycan Respublika
Kiçik və Orta Biznesi
İnkişafı Agentliyi

# 02. KOBİA MÜŞAHİDƏ ŞURASI

**Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 28 dekabr tarixli 1771 nömrəli Fərmanına əsasən Agentliyin fəaliyyətinə ümumi rəhbərliyi ictimai əsaslarla fəaliyyət göstərən Müşahidə Şurası (7 üzv) həyata keçirir.**

**Müşahidə Şurasının üzvləri:**

- Azərbaycan Respublikasının iqtisadiyyat naziri – sədr;
- Azərbaycan Respublikasının maliyyə nazirinin müavini;
- Azərbaycan Respublikasının vergilər nazirinin müavini;
- Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini;
- Azərbaycan Respublikasının kənd təsərrüfatı nazirinin müavini;
- Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi sədrinin müavini;
- Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti.





# KOBİA Müşahidə Şurasının ilk iclası

**2018-ci il dekabrın 22-də Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) Müşahidə Şurasının ilk iclası keçirilib.**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş Agentliyin Nizamnaməsinə əsasən, KOBİA-nın idarəetmə orqanları - Müşahidə Şurası və İdarə Heyəti yaradılıb. Nizamnaməyə uyğun olaraq, Müşahidə Şurası 7 üzvdən ibarətdir. Müşahidə Şurası Agentliyə ümumi rəhbərliyi və nəzarəti həyata keçirir.

İclasda KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov Agentliyin ötən müddət ərzində gördüyü işlər barədə hesabat verib.

İclasda müzakirələr aparılıb, Müşahidə Şurasının üzvləri müzakirə olunan məsələlərlə bağlı fikirlərini bölüşüblər.

# 03. KOBİA-nın STRUKTURU

1. KOBİA Aparatı
2. KOB evləri
3. Kiçik və orta biznesin inkişafı mərkəzləri
4. Dövlət-Sahibkar Tərəfdaşlığının İnkişafı Mərkəzi
5. Kiçik və orta biznesin inkişafı fondları




KOB
Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi
Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi
KOB

# STRATEJİ
## HƏDƏFLƏR VƏ PRİORİTETLƏR



01 KOB sektorunun inkişafı rəqəmlərdə

02 Missiya və strateji baxış

03 Strateji hədəflər

04 Strateji prioritetlər



# 01. KOB SEKTORUNUN İNKİŞAFI RƏQƏMLƏRDƏ

**KOB sektorunun ölkə iqtisadiyyatında rolu***




Sahibkarlığın inkişafı sahəsində aparılmış dövlət siyasəti və görülmüş işlərin nəticəsində ölkədə son 5 il (2019-cu ilin 9 ayı nəzərə alınmaqla) ərzində qeydiyyata alınmış sahibkarlıq subyektlərinin sayı ümumilikdə 58,8 faiz artaraq 01.10.2019-cu il tarixdə 1045348 olmuşdur. Həmçinin hüquqi şəxslərin sayı 66,6 faiz, hüquqi şəxs yaratmadan fərdi sahibkarlıqla məşğul olanların sayı isə 57,5 faiz artmışdır.

2019-cu ilin yanvar-sentyabr ayları ərzində fərdi sahibkarlar istisna olmaqla statistik vahidlərin sayı 8,9 faiz artaraq 141949 olmuşdur ki, onların da 11976-sı 9 ay ərzində yaradılmışdır. Qeydiyyata alınmış statistik vahidlərin 115443-ü mikro, 6536-sı kiçik, 2557-si orta, 648-i isə iri sahibkarlıq subyekti olmuşdur.

Həmçinin 2019-cu il oktyabrın 1-nə olan vəziyyətə görə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçmiş fərdi sahibkarların sayı 903 mini keçmişdir.

*2019-cu ilin 1 yanvar tarixinə olan məlumat

## Sahibkarlıq subyektlərinin sayı




## Kommersiya hüquqi şəxslərinin sayında KOB-ların xüsusi çəkisi




## Kommersiya hüquqi şəxslərin regional bölgüsü



# 02. MİSSİYA VƏ STRATEJİ BAXIŞ

**MİSSİYA.** KOBİA-nın missiyası KOB-un tənzimlənməsi sisteminin səmərəliliyinin artırılması, çoxsaylı dəstək mexanizmləri və onlara sahibkarların rahat çıxışının təmin edilməsi, biznes subyektlərinin maraqlarının müdafiəsi əsasında bu sektorun davamlı inkişafının təmin edilməsindən ibarətdir.

Agentliyin əsas hədəflərindən biri qurumu sahibkarın dostu kimi önəmli missiyanın daşıyıcısına çevirməkdir.

**STRATEJİ BAXIŞ.** Agentlik öz fəaliyyətini Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə (bundan sonra – "Strateji Yol Xəritəsi") müəyyən edilmiş strateji baxışlar əsasında qurub:

- **2020-ci ilədək strateji baxış**

Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı üzrə 2020-ci ilədək strateji baxış biznes mühitinin daha da təkmilləşdirilməsi, kiçik və orta sahibkarlıq (KOS) subyektlərinin maliyyə vəsaitlərinə və satış bazarlarına çıxışının asanlaşdırılması və biznes bilik və bacarıqlarının artırılması ilə rəqabətqabiliyyətliliyinin təmin olunmasına və iqtisadi inkişafdakı rolunun artırılmasına nail olmaqdır.

- **2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış**

Azərbaycanın 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı KOS subyektlərinin rəqabət qabiliyyətinin daha da artırılmasına, gündəlik istehlak malları ilə təminatın, əsasən, KOS subyektləri vasitəsilə həyata keçirilməsinə, KOS subyektlərinin ÜDM və məşğulluqdakı payının əhəmiyyətli dərəcədə artırılmasına nail olmaqdır.

- **2025-ci ildən sonrakı dövr üçün hədəf baxış**

2025-ci ildən sonrakı dövr üçün hədəf baxış Azərbaycanda ÜDM-in, ən azı, 60 faizinin KOS hesabına təmin edilməsinə, qlobal dəyər zəncirlərinə qoşulmuş yerli KOS şəbəkəsinin yaradılmasına nail olmaqdır.



# 03. STRATEJİ HƏDƏFLƏR

**Mikro, kiçik və orta biznes subyektlərinin ÜDM-də payı:**







*2019-cu ilin 1 yanvar tarixinə olan məlumat

Mikro, kiçik və orta biznes subyektlərinin məşğulluqda payı:




Mikro, kiçik və orta biznes subyektlərinin qeyri-neft ixracında payı:



# 04. STRATEJİ PRİORİTETLƏR

01

Biznes mühitinin əlverişliliyinin artırılması və KOB maraqlarının müdafiəsi

02

Biznesə xidmətlərin (G2B və B2B) təkmilləşdirilməsi və keyfiyyətinin artırılması

03

Bilik, bacarıq və innovasiyalara çıxışın yaxşılaşdırılması

04

Bazarlara çıxışın dəstəklənməsi

05

Maliyyə mənbələrinə çıxışın asanlaşdırılması

# KOBİA-nın FƏALİYYƏT PRİNSİPLƏRİ VƏ PLATFORMALARI



01 **Dövlət qurumları ilə əməkdaşlıq platforması: Koordinasiya Qrupu**

02 **KOB-larla 4 təmas platforması**

03 **İctimaiyyətlə əlaqə: İctimai Şura**

04 **Beynəlxalq əməkdaşlıq platforması**



# 01. Dövlət qurumları ilə əməkdaşlıq platforması: KOORDİNASİYA QRUPU



Koordinasiya Qrupu KOB evlərində sahibkarlıq subyektlərinə xidmət göstərilməsi zamanı dövlət qurumları ilə Agentlik arasında səmərəli əlaqələndirmənin və operativliyin təmin edilməsi məqsədilə Nazirlər Kabinetinin 2018-ci il 21 sentyabr tarixli Qərarı ilə yaradılıb. Koordinasiya Qrupunda sahibkarlara müxtəlif xidmətlər göstərən 30-dan çox dövlət qurumunun nümayəndələri təmsil olunur. 2019-cu il mayın 1-də KOBİA-nın yanında daimi fəaliyyət göstərən Koordinasiya Qrupunun ilk iclası keçirilib. İclasda ilk KOB evinin yaradılması sahəsində qarşıda duran vəzifələrə dair müzakirələr aparılıb, təkliflər səsləndirilib.

# KOBİA yanında daimi fəaliyyət göstərən Koordinasiya Qrupunun tərkibi

**Koordinasiya Qrupunun rəhbəri**
- Azərbaycan Respublikasının iqtisadiyyat nazirinin müavini

**Koordinasiya Qrupu rəhbərinin müavini**
- Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi İdarə Heyətinin sədri

**Koordinasiya Qrupunun üzvləri:**
- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
- Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi
- Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi
- Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi
- Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi
- Azərbaycan Respublikasının Energetika Nazirliyi
- Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi
- Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi
- Azərbaycan Respublikasının Maliyyə Nazirliyi
- Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi
- Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi
- Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi
- Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti
- Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti
- Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi
- Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi
- Azərbaycan Respublikasının Auditorlar Palatası
- Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyi
- Bakı Nəqliyyat Agentliyi
- Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi
- Azərbaycan Milli Elmlər Akademiyası
- Bakı Şəhər İcra Hakimiyyəti
- Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
- “Azəriqaz” İstehsalat Birliyi
- “Azərişıq” Açıq Səhmdar Cəmiyyəti
- “Azərsu” Açıq Səhmdar Cəmiyyəti
- “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyəti
- “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyəti
- “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti
- Azərbaycan Respublikasının Gənclər Fondu
- Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu

# 02. KOB-larla 4 TƏMAS PLATFORMASI

**KOBİA-nın strateji fəaliyyət istiqamətlərinin həyata keçirilməsi məqsədilə sahibkarlarla 4 növ təmas platformasından istifadə olunur.**



## Ərazi üzrə

- **“KOB Dostu” şəbəkəsi**
- **KOB İnkişaf Mərkəzləri**

## Sektoral

- **KOB Klub (sahəvi assosiasiyalar və fokus qruplar)**
- **KOB klaster şirkətləri**

## “Bir məkan” prinsipi

- **KOB evləri**

Biznes subyektləri üçün bütün dövlət-biznes (G2B) və zəruri biznes-biznes (B2B) xidmətlərinin vahid məkanda maneəsiz, qərəzsiz və şəffaf əldə edilməsi məqsədilə yaradılır. Digər vahid məkan platformalarından fərqli olaraq burada xidmətlər yalnız sənədlər üzrə deyil, proseslər üzrə də təmin ediləcək.

KOB evində dörd proses üzrə 30-dan çox dövlət qurumunun G2B və özəl qurumların B2B xidmətləri əlaqəli şəkildə təşkil olunacaq:

1. **Biznesi planla**
2. **Biznesə başla**
3. **Biznesi işlət**
4. **Biznesi inkişaf etdir**

## Elektron vasitə

- **E-KOB evi**

KOB-lar üçün dəstək mexanizmlərinin vahid elektron platforma üzərindən “nonstop shop” rejimində təmin edilməsi.

# KOB evləri

**Kiçik və orta biznes evləri – KOBİA mikro, kiçik və orta sahibkarlıq subyektləri üçün mühüm dəstək mexanizmlərindən olan “Kiçik və orta biznes evi”, qısaca desək, “KOB evi” biznes subyektləri üçün bütün dövlət-biznes və zəruri biznes-biznes xidmətlərinin vahid məkanda operativ, şəffaf və vətəndaş məmnunluğu prinsipləri əsasında təqdim ediləcəyi vahid məkandır.**



“KOB evi”ndə biznesin planlaşdırılmasından başlayaraq onun inkişaf etdirilməsinə qədər olan bütün mərhələlərdə 30-dan çox dövlət qurumunun 100-dən artıq G2B (dövlət-biznes) və özəl qurumların B2B (biznes-biznes) xidmətləri əlaqəli şəkildə təşkil olunacaq.

Biznes subyektləri üçün bütün dövlət-biznes (G2B) və zəruri biznes-biznes (B2B) xidmətlərinin vahid məkanda maneəsiz, qərəzsiz və şəffaf əldə edilməsi məqsədilə yaradılır. Digər vahid məkan platformalarından fərqli olaraq, burada xidmətlər yalnız sənədlər üzrə deyil, proseslər üzrə də təmin ediləcək.



“KOB evləri”ndə dörd proses üzrə 30-dan çox dövlət qurumunun G2B və özəl qurumların B2B xidmətləri əlaqəli şəkildə təşkil olunacaqdır:

1. **Biznesi planla**
2. **Biznesə başla**
3. **Biznesi işlət**
4. **Biznesi inkişaf etdir**

2019-cu il mayın 1-də Bakı şəhərində yaradılmaqda olan ilk kiçik və orta biznes evinin təqdimatı keçirilib.

Hazırda KOBİA tərəfindən “Kiçik və orta biznes evləri”nin yaradılması istiqamətində tədbirlər görülür.

# 03. İctimaiyyətlə əlaqə: İCTİMAİ ŞURA




## Kiçik və Orta Biznesin İnkişafı Agentliyi yanında İctimai Şura

**2018-ci il noyabrın 28-də KOBİA yanında İctimai Şura yaradılıb. Şurada 15 qeyri-hökumət təşkilatı və sıralarında yüzlərlə sahibkarı birləşdirən assosiasiyalar təmsil olunur.**

Məqsəd Agentlikdə ictimai iştirakçılığın gücləndirilməsi, kiçik və orta biznesin inkişafı ilə bağlı görülən tədbirlər və KOBİA-nın fəaliyyəti üzərində ictimai nəzarətin təmin olunması, Agentliklə ictimaiyyət, o cümlədən biznes ictimaiyyəti arasında qarşılıqlı əlaqələrin genişləndirilməsidir.

KOBİA qarşısında qoyulmuş vəzifələrin yerinə yetirilməsi zamanı vətəndaş cəmiyyəti institutları ilə sıx əlaqələrin qurulmasına xüsusi önəm verir. KOBİA fəaliyyətinə ictimai nəzarətin təmin olunması, qurumun fəaliyyəti barədə işgüzar dairələrin məlumatlandırılması, Agentliyin fəaliyyət istiqamətləri üzrə ictimai fikrin öyrənilməsində xüsusilə maraqlıdır.

İctimai Şura KOBİA-nın fəaliyyəti və göstərdiyi xidmətlər haqqında cəmiyyətin, o cümlədən biznes dairələrinin məlumatlandırılması istiqamətində effektiv tədbirlər həyata keçirir, sahibkarların rəy və təkliflərini araşdırır, xidmətlərin şəffaflığı sahəsində ictimai rəyi təhlil edir, bu sahədə olan inkişaf çağırışlarını Agentliyə çatdırır, tövsiyələr hazırlayır, təkliflər verir. KOBİA yanında İctimai Şura kiçik və orta biznesin inkişafı sahəsində görülən tədbirlər üzərində ictimai nəzarəti təmin edir, cəmiyyət-sahibkar-dövlət orqanları münasibətlərində daha səmərəli tədbirlərin həyata keçirilməsinə dəstək olur.

2018-ci il noyabrın 28-də KOBİA yanında İctimai Şuranın yaranmasına dair tədbir keçirilib. İctimai Şuranın əsasnaməsi təsdiq olunub. 15 QHT və



sahibkar assosiasiyalarından ibarət KOBİA yanında İctimai Şura formalaşdırılıb. Şuraya bu qurumlar daxildir:

- Nar İstehsalçıları və İxracatçıları Assosiasiyası
- Azərbaycan Arıçılar Assosiasiyası İctimai Birliyi
- Fındıq İstehsalçıları və İxracatçıları Assosiasiyası
- Şərab İstehsalçıları və İxracatçıları Assosiasiyası
- Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyi
- Azərbaycan Mühasiblər və Risk Peşəkarları Assosiasiyası (ARPA)
- Azərbaycan Tikinti Materialları İstehsalçıları Assosiasiyası
- Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası
- Azərbaycan Turizm Assosiasiyası
- Azərbaycan Mebel İstehsalçıları Assosiasiyası
- Azərbaycan Sığortaçılar Assosiasiyası
- Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu
- Əlil Sahibkarlar Təşkilatı İctimai Birliyi
- Azərbaycan Banklar Assosiasiyası
- Azərbaycan Süd və Süd Məhsulları İstehsalçıları və İxracatçıları Assosiasiyası

Nar İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri Fərhad Qaraşov İctimai Şura üzvlərinin yekdil qərarı ilə şuranın müddətli sədri seçilib.

Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondunun sədri Sabit Bağırov, Nar İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri Fərhad Qaraşov, Azərbaycan Mebel İstehsalçıları Assosiasiyasının sədri Məşhur Məmmədov, Azərbaycan Sığortaçılar Assosiasiyasının sədri Mustafa Abbasbəyli KOBİA yanında İctimai Şuranın yaradılmasının sahibkarların və vətəndaş cəmiyyətinin kiçik və orta sahibkarlığın inkişafı, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi və həyata keçirilən dəstək tədbirlərində iştirakına, Agentliyin fəaliyyətinə ictimai nəzarətin gücləndirilməsinə geniş imkan yaradacağını vurğulayıblar.



# KOBİA yanında İctimai Şuranın növbəti iclası keçirilib

İctimai Şurada təmsil olunan qeyri-hökumət təşkilatlarının və sahəvi assosiasiyaların rəhbərlərinin iştirakı ilə 04 fevral 2019-cu ildə keçirilmiş iclasda KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov 2018-ci ildə sahibkarlığın, xüsusilə də kiçik və orta biznesin inkişafı istiqamətində həyata keçirilən tədbirlər, eləcə də Agentliyin ötən müddət ərzində gördüyü işlər barədə məlumat verib. Vurğulanıb ki, ötən il kiçik və orta biznesin qanunvericilik bazasının möhkəmləndirilməsi istiqamətində bir sıra tədbirlər görülüb, yeni dəstək modellərinin tətbiqinin stimullaşdırılması məqsədilə Vergilər Məcəlləsinə dəyişikliklər edilib, mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları təsdiq olunub, KOB-ların kommunal xidmətlərə qoşulması prosedurları, tikintiyə icazə və tikinti obyektinin istismarına icazə qaydaları sadələşdirilib, dövlət satınalmaları ilə bağlı qanunvericiliyə mütərəqqi dəyişikliklər edilib. Bütün bunlar ölkəmizdə sahibkarlığın, xüsusilə də kiçik və orta biznesin inkişafında, KOB-ların fəaliyyətinin genişləndirilməsində əhəmiyyətlidir. Agentlik yanında İctimai Şuranın 2018-ci ilin noyabrında yaradıldığını xatırladan Orxan Məmmədov kiçik və orta biznesin inkişafı istiqamətində Agentlik tərəfindən görülən işlər üzərində ictimai nəzarətin həyata keçirilməsinin, qanunvericiliyin təkmilləşdirilməsi və maarifləndirmə tədbirlərində şuranın fəal iştirakının önəmini diqqətə çatdırıb.



> KOBİA fəaliyyətinə ictimai nəzarətin təmin olunması, qurumun fəaliyyəti barədə işgüzar dairələrin məlumatlandırılması, Agentliyin fəaliyyət istiqamətləri üzrə ictimai fikrin öyrənilməsində xüsusilə maraqlıdır.

Sonra KOBİA yanında İctimai Şuranın sədri, Nar İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri Fərhad Qaraşov, Azərbaycan Sahibkar Qadınlar Assosiasiyasının sədri Səkinə Babayeva, Azərbaycan Turizm Assosiasiyasının sədri Nahid Bağırov və digərləri çıxış edərək iclasın gündəliyində olan məsələlərə, İctimai Şuranın fəaliyyətinə və şuranın Agentliklə birgə fəaliyyətinin daha səmərəli təşkilinə dair fikirlərini bölüşüb, təkliflərini səsləndiriblər. İclasda cari məsələlər geniş müzakirə edilib, 2019-cu il üzrə Agentlik yanında İctimai Şuranın fəaliyyət planının hazırlanması qərara alınıb.

Qeyd edək ki, KOBİA yanında İctimai Şura qurumda ictimai iştirakçılığın gücləndirilməsi, kiçik və orta biznesin inkişafı ilə bağlı görülən tədbirlər və KOBİA-nın fəaliyyəti üzərində ictimai nəzarətin təmin olunması, KOBİA ilə ictimaiyyət, o cümlədən biznes ictimaiyyəti arasında qarşılıqlı əlaqələrin genişləndirilməsi məqsədilə yaradılıb. İctimai Şurada 15 qeyri-hökumət təşkilatı və sıralarında yüzlərlə sahibkarı birləşdirən assosiasiyalar təmsil olunur.

# İctimai şuralar kiçik və orta biznesin inkişafında mühüm rol oynayır

**2019-cu il mayın 20-də KOBİA yanında fəaliyyət göstərən İctimai Şuranın təşkilatçılığı ilə "Kiçik və orta biznesin inkişafında ictimai şuraların rolu" mövzusunda forum keçirilib.**

Bu formatda ilk dəfə olaraq təşkil olunan tədbirdə müxtəlif dövlət qurumlarının yanında fəaliyyət göstərən ictimai şuraların sədrləri və üzvləri, qeyri-hökumət təşkilatlarının nümayəndələri, eləcə də sahibkarlar iştirak ediblər.

Forumda dövlət qurumlarının fəaliyyətinə və onlar tərəfindən qəbul olunan qərarların səmərəliliyinə ictimai nəzarətin təmin edilməsinin əhəmiyyəti, bu sahədə ictimai şuraların fəaliyyətinin önəmi vurğulanıb, müxtəlif dövlət strukturlarının, xüsusilə də sahibkarlarla işləyən qurumların yanında fəaliyyət göstərən ictimai şuraların işi barədə məlumat verilib, kiçik və orta biznesin inkişafında ictimai şuraların rolunun artırılması məsələləri müzakirə edilib.



İqtisadiyyat nazirinin müavini Niyazi Səfərov tədbirdəki çıxışında ölkəmizdə sahibkarlığın, xüsusilə kiçik və orta biznesin inkişafı sahəsində həyata keçirilən tədbirləri diqqətə çatdırıb, ictimai fikrin öyrənilməsində vətəndaş cəmiyyəti institutlarının və ictimai şuraların fəaliyyətinin əhəmiyyətini qeyd edib.

KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov vətəndaş cəmiyyəti institutları ilə sıx əməkdaşlığın qurulmasının KOBİA-nın əsas fəaliyyət istiqamətlərindən biri olduğunu və bu məqsədlə 2018-ci ildə Agentlik yanında İctimai Şuranın yaradıldığını bildirib, Agentliklə bağlı məsələlərdə vətəndaş cəmiyyəti institutlarını aktiv əməkdaşlığa dəvət edib.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə və Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli çıxışlarında qanunvericiliyin təkmilləşdirilməsi sahəsində keçirilən ictimai müzakirələrdə ictimai şura üzvü olan vətəndaş cəmiyyəti təsisatlarının mühüm rolunu diqqətə çatdırıblar. Bildirilib ki, açıq hökumətin inkişafında və şəffaflığın artırılmasında da ictimai şuraların rolu çox əhəmiyyətlidir. Vurğulanıb ki, fəaliyyətə başlamasından az müddət ötsə də, KOBİA yanında İctimai Şuranın yaradılması təqdirəlayiqdir və müxtəlif ictimai şuralar tərəfindən belə forumların davamlı olaraq təşkil edilməsi faydalı olardı.

KOBİA İdarə Heyəti sədrinin müavini Nadir Adilov Agentlik yanında İctimai Şurada təmsil olunan assosiasiyaların və qeyri-hökumət təşkilatlarının rəy və təkliflərinin diqqətlə öyrənildiyini qeyd edib. Bildirib ki, belə forumlar müxtəlif dövlət orqanları yanında ictimai şuraların təşəbbüsü ilə davam etdiriləcək, burada əsas məqsəd müvafiq sahədə qarşılıqlı əməkdaşlığı gücləndirmək, vətəndaş cəmiyyəti institutlarının kiçik və orta biznesin inkişafı sahəsində aparılan islahatlarda daha yaxından iştirakını təmin etməkdir.

KOBİA yanında İctimai Şuranın sədri, Nar İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri Fərhad Qaraşov forumun keçirilməsinin məqsədi, KOBİA yanında İctimai Şuranın fəaliyyəti barədə məlumat verib, tədbirin belə formatda ilk tədbir olduğunu qeyd edib. Bildirib ki, Agentlik yanında İctimai Şura qurumda ictimai iştirakçılığın gücləndirilməsi, kiçik və orta biznesin inkişafı ilə bağlı görülən tədbirlər və KOBİA-nın fəaliyyəti üzərində ictimai nəzarətin təmin olunması, Agentliklə ictimaiyyət arasında əlaqələrin genişləndirilməsi məqsədilə yaradılıb. Şurada 15 qeyri-hökumət təşkilatı və sıralarında yüzlərlə sahibkarı birləşdirən assosiasiyalar təmsil olunur.

Tədbirdə KOBİA yanında İctimai Şuranın üzvləri və digər qeyri-hökumət təşkilatlarının nümayəndələri də çıxış edib, kiçik və orta biznesin inkişafında ictimai şuraların roluna dair müxtəlif təkliflər səsləndiriblər.

> Vətəndaş cəmiyyəti institutları ilə sıx əməkdaşlığın yaradılması KOBİA-nın əsas fəaliyyət istiqamətlərindən biridir.










# Təhsil prioritet məsələdir

**KOBİA yanında İctimai Şuranın təşkilatçılığı ilə iqtisadiyyatın müxtəlif sektorlarında fəaliyyət göstərən kiçik və orta biznes (KOB) subyektlərinin, müvafiq dövlət qurumlarının və vətəndaş cəmiyyəti institutlarının iştirakı ilə mütəmadi olaraq üçtərəfli formatda müzakirələr təşkil edilir.**

Növbəti belə forum “Təhsil biznesi sektoru: mövcud vəziyyət və perspektivlər” mövzusuna həsr olunub. 2019-cu il iyunun 21-də keçirilmiş tədbirdə təhsil sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektləri, eləcə də Təhsil, Vergilər, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin, Peşə Təhsili üzrə Dövlət Agentliyinin, Milli Elmlər Akademiyasının və müxtəlif qeyri-hökumət təşkilatlarının nümayəndələri, millət vəkilləri, KOBİA yanında İctimai Şuranın üzvləri iştirak ediblər.

Forumda təhsil sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan KOB-ların fəaliyyəti, sektorun inkişaf potensialı, bu sahədə ictimai şuraların və vətəndaş cəmiyyəti institutlarının rolu, dövlət-özəl sektor əməkdaşlığı müzakirə edilib.

Tədbirdə təhsilin insan kapitalının inkişafında mühüm rol oynadığı vurğulanıb, ixtisaslı mütəxəssislərin hazırlanması üçün təhsilin bütün mərhələlərində keyfiyyətin davamlı olaraq yüksəldilməsinə, peşə təhsili sisteminin KOB-ların



ehtiyaclarına uyğun qurulmasına, KOB subyektləri üçün "ömürboyu öyrənmək" imkanlarının təmin edilməsinə, təhsildə dövlət-özəl sektor tərəfdaşlığına dair müzakirələr aparılıb, təhsil sektoruna investisiya qoyuluşu, təhsil müəssisələrində innovativ strukturların yaradılması və digər məsələlərlə bağlı təkliflər səsləndirilib.

Forumda çıxış edən KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov vətəndaş cəmiyyəti institutları ilə sıx əməkdaşlığın qurulmasının Agentliyin əsas fəaliyyət istiqamətlərindən biri olduğunu bildirib. KOBİA-nın fəaliyyətinin bir sıra istiqamətlərdə elm və tədris mərkəzləri ilə qarşılıqlı fəaliyyətə əsaslandığını qeyd edən Orxan Məmmədov təhsil sahəsində əməkdaşlığa dair təkliflərini səsləndirib. Qeyd edib ki, Agentlik KOB subyektlərinin dəstəklənməsinə yönəldilmiş model və mexanizmlərin hazırlanmasında təhsil sektorunda fəaliyyət göstərən KOB-ların potensialından da faydalanmaqda maraqlıdır: "Hazırda yaradılması istiqamətində tədbirlər görülən və Agentliyin strukturuna daxil olan kiçik və orta biznesin inkişafı mərkəzlərini (KOB İnkişaf Mərkəzi) özəl təhsil müəssisələrinin iştirakı ilə formalaşdırmaq mümkündür və Agentlik bu istiqamətdəki təkliflərə açıqdır. Sahibkarların bilik və bacarıqlarının artırılması istiqamətində müxtəlif mövzular üzrə təlimlərin təşkil edilməsi Agentliyin vəzifələri sırasındadır və bu sahədə təhsil biznesi sektorunda çalışan müəssisələrlə əməkdaşlıq etmək mümkündür. Hazırda Agentlik tərəfindən "KOB kadr bankı"-nın yaradılması istiqamətində işlərə başlanıb və inanırıq ki, bu sistem təhsil müəssisələri üçün faydalı platforma olacaq. Agentlik təhsil sektorunda fəaliyyət göstərən özəl qurumlarla dövlət başçısının müvafiq Fərmanı ilə təsdiq edilmiş "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətli istehsalının stimullaşdırılması məqsədilə daxili bazar araşdırmalarına dövlət dəstəyi göstərilməsi Qaydası" çərçivəsində də əməkdaşlıq edə bilər".

Təhsil nazirinin müavini Firudin Qurbanov ölkəmizdə təhsilin inkişafı, bu sahədə görülən işlər, özəl təhsil müəssisələrinin fəaliyyəti barədə danışıb, ölkə qanunvericiliyinin təhsilin istənilən pilləsində özəl təhsil müəssisələrinin yaradılmasına və bu sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa imkan verdiyini qeyd edib.

KOBİA yanında İctimai Şuranın sədri Fərhad Qaraşov forumun keçirilməsinin məqsədi, İctimai Şuranın fəaliyyəti barədə məlumat verib, KOB-ların fəaliyyət göstərdiyi müxtəlif sahələrdə belə formatda tədbirlərin mütəmadi olaraq keçiriləcəyini bildirib.

KOBİA İdarə Heyəti sədrinin müavini Nadir Adilov təhsil sahəsində fəaliyyət göstərən sahibkarlarla daha sıx və səmərəli əməkdaşlıq üçün forumun əhəmiyyətli platforma olduğunu vurğulayıb, tədbirdə Agentlik yanında İctimai Şura üzvləri və qeyri-hökumət təşkilatları tərəfindən səsləndirilən fikirlərin, rəy və təkliflərin nəzərə alınacağını və aidiyyəti üzrə təqdim olunacağını qeyd edib.




# KOB-lar özəl tibb sahəsində: perspektivlər böyükdür

**2019-cu ilin 20 sentyabr tarixində KOBİA yanında İctimai Şuranın təşkilatçılığı ilə "Tibb biznesi sektoru: mövcud vəziyyət və perspektivlər" mövzusunda forum keçirilib.**

Tədbirdə tibb biznesi sektorunu təmsil edən sahibkarlar və onlara xidmət göstərən dövlət orqanlarının, eləcə də ictimai təşkilatların nümayəndələri, KOBİA yanında İctimai Şuranın üzvləri iştirak ediblər.

Forumda tibb biznesi sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan KOB-ların fəaliyyəti, sektorun inkişaf potensialı, bu sahədə dövlət-özəl sektor əməkdaşlığı müzakirə edilib, sahibkarlar və vətəndaş cəmiyyəti institutları tərəfindən özəl tibb sektorunun inkişafına dair müxtəlif təkliflər səsləndirilib.

Tədbirdə çıxış edən KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov Agentlik yanında İctimai Şuranın yaradılmasını cəmiyyət, sahibkar və dövlət orqanları arasında səmərəli münasibətlərin qurulmasına verilən önəmin göstəricilərindən biri kimi dəyərləndirib, bir ildən az müddətdə fəaliyyət göstərməsinə baxmayaraq, İctimai Şuranın aktiv fəaliyyət göstərdiyini bildirib. Qeyd edib ki, forumun belə bir formatda təşkil olunmasında məqsəd sahibkarlarla dövlət orqanları arasında səmərəli əməkdaşlıq platformasını daha da genişləndirmək, bu sahədə mövcud çətinlikləri öyrənmək və həlli istiqamətində təkliflərin müzakirəsinə nail olmaqdır. Orxan Məmmədov özəl tibb biznesinin inkişafı istiqamətində bir neçə təklif də səsləndirib. Bildirib ki, tibb biznesi sektorunda da təşkilatlanmaya, aktiv ictimai birliklərin yaradılmasına



ehtiyac var və KOBİA belə təşəbbüsləri dəstəkləməyə hazırdır: “Bundan başqa, Pirallahı Sənaye Parkı əczaçılıq məhsullarının istehsalı üzrə güzəştli fəaliyyət rejimi mövcuddur və sahibkarlar bu imkandan yararlana bilərlər. Bu yaxınlarda işə düşən daxili bazar araşdırmaları mexanizmi tibb biznesi və əczaçılıq sektorunda bazar araşdırmalarının aparılmasında da istifadə oluna bilər və KOBİA belə müraciətlər olduğu təqdirdə müvafiq qaydalara uyğun olaraq, biznes subyektlərinə dəstək göstərə bilər”.

Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Musa Quliyev ölkəmizdə səhiyyə sahəsinin inkişafı istiqamətində həyata keçirilən tədbirləri və islahatları qeyd edib, özəl tibb sektoruna müxtəlif vergi güzəştlərinin tətbiq olunmasına, tibb turizminə dair fikirlər səsləndirib.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri Zaur Əliyev icbari tibbi sığortanın tətbiqi, bu istiqamətdə həyata keçirilən pilot layihələr, özəl tibb sahəsində görülən işlər barədə məlumat verib, KOB-ların özəl tibb sektorunda da aktiv fəaliyyət göstərdiyini bildirib.

KOBİA yanında İctimai Şuranın sədri Fərhad Qaraşov forumun keçirilməsinin məqsədi, İctimai Şuranın fəaliyyəti barədə məlumat verib, KOB-ların, müvafiq dövlət qurumlarının və vətəndaş cəmiyyəti institutlarının iştirakı ilə mütəmadi olaraq üçtərəfli formatda tədbirlərin keçiriləcəyini bildirib. Artıq özəl təhsil sahəsində belə bir forum təşkil olunub.

KOBİA İdarə Heyəti sədrinin müavini Nadir Adilov forumda Agentlik yanında İctimai Şura üzvləri və qeyri-hökumət təşkilatları tərəfindən səsləndirilən fikirlərin, rəy və təkliflərinin nəzərə alınacağını və aidiyyəti üzrə təqdim olunacağını qeyd edib.

# Turizm biznesinin geniş perspektivləri var

KOBİA yanında fəaliyyət göstərən İctimai Şuranın növbəti müzakirəsi turizm biznesindəki mövcud vəziyyət və perspektivlərə həsr olunub. Bununla bağlı 2019-cu il oktyabrın 10-da keçirilən forumda müvafiq dövlət qurumları və qeyri-hökumət təşkilatlarının (QHT) nümayəndələri, eləcə də turizm sahəsində fəaliyyət göstərən sahibkarlar iştirak ediblər.

KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov forumun dövlət-özəl sektor dialoqu üçün əlverişli platforma olduğunu bildirib. Qeyd edib ki, vətəndaş cəmiyyəti institutları ilə sıx əməkdaşlığın qurulması Agentliyin əsas fəaliyyət istiqamətlərindəndir. Onun sözlərinə görə, turizm sahəsində yeni qanunvericilik aktlarının və təşviq mexanizmlərinin hazırlanmasında bu sektorda fəaliyyət göstərən KOB-ların və onların təmsil olunduqları birliklərin yaxından iştirakı məqsədəuyğun olardı. KOBİA-nın bu prosesə sahibkarları cəlb etməyə hazır olduğunu vurğulayan Orxan Məmmədov qeyd edib ki, sahibkarlar turizm layihələrinin həyata keçirilməsi zamanı investisiya təşviqi mexanizmindən istifadə etməklə güzəştlər əldə edə bilərlər. Bundan başqa, daxili bazar araşdırmaları





dəstək mexanizmindən turizm biznesində istifadə oluna bilər. KOBİA İdarə Heyətinin sədri KOB subyektlərini bu sahədə aktiv investisiya fəaliyyətinə dəvət edib.

Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev çıxışında turizm sahəsindəki yeniliklər, layihələr və hədəflər barədə məlumat verib.

Azərbaycan Turizm Assosiasiyasının sədri Nahid Bağırov assosiasiyanın fəaliyyəti, turizmin inkişafına göstərilən dövlət dəstəyi tədbirlərindən danışıb, sahənin inkişafına dair təkliflərini səsləndirib.

KOBİA yanında İctimai Şuranın sədri Fərhad Qaraşov forumun keçirilməsinin məqsədi barədə iştirakçıları məlumatlandırıb, KOB-ların, müvafiq dövlət qurumlarının və vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin iştirakı ilə mütəmadi olaraq tədbirlərin keçirildiyini bildirib.

Forumda turizm sahəsində KOB-ların fəaliyyəti, sektorun inkişaf potensialı, bu sahədə dövlət-özəl sektor əməkdaşlığı müzakirə edilib, sahibkarlar və QHT nümayəndələri tərəfindən turizm biznesinin inkişafına dair təkliflər səsləndirilib.

KOBİA İdarə Heyəti sədrinin müavini Nadir Adilov forumda səsləndirilən təkliflərin araşdırılacağını və aidiyyəti üzrə təqdim olunacağını qeyd edib.

Tədbirdə həmçinin KOB-lar üçün yeni dövlət dəstəyi mexanizmi olan daxili bazar araşdırmalarına dair maarifləndirici videoçarx nümayiş olunub.

> Sahibkarlar turizm layihələrinin həyata keçirilməsi zamanı investisiya təşviqi mexanizmindən yararlanmaqla güzəştlər əldə edə bilər.



# KOB-ları necə maliyyələşdirməli?!

**2019-cu il noyabrın 14-də KOBİA yanında İctimai Şuranın təşkilatçılığı ilə növbəti forum keçirilib.**

Kiçik və orta biznes subyektlərinin maliyyə bazarlarına çıxışında şəffaflıq: mövcud vəziyyət və perspektivlər" mövzusunda təşkil olunmuş forumda KOBİA-nın, Azərbaycan Respublikası Mərkəzi Bankının, Maliyyə Bazarlarına Nəzarət Palatasının, Azərbaycan Banklar Assosiasiyasının, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının, eləcə də müxtəlif bankların, bank olmayan kredit təşkilatlarının və kredit ittifaqlarının, qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak ediblər. Forumda mikro, kiçik və orta sahibkarlıq subyektlərinin maliyyə bazarlarına çıxışı ilə bağlı aktual məsələlər, maliyyə təşkilatları tərəfindən göstərilən xidmətlər, dövlət və özəl qurumların təqdim etdiyi maliyyələşdirmə mexanizmləri ilə bağlı müzakirələr aparılıb, sahibkarları maraqlandıran suallar cavablandırılıb.

KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov qeyd edib ki, Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə aparılan iqtisadi islahatlar yeni mərhələyə qədəm qoyub və bu prosesin əsas istiqamətləri sırasında kiçik və orta sahibkarlığın inkişafı, onun iqtisadiyyatda rolunun artırılması prioritet kimi müəyyən edilib. Qeyd olunub ki, maliyyə resurslarına çıxış və yüksək keyfiyyətli maliyyə xidmətləri ilə təmin olunma kiçik və orta biznesin inkişafında



əsas şərtlərindəndir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2019-cu ilin oktyabrında keçirilmiş iqtisadi müşavirədəki çıxışı zamanı iqtisadiyyatın real sektorunun aktiv maliyyələşdirilməsi, eləcə də bu prosesdə kiçik və orta biznesin dəstəklənməsi istiqamətində maliyyə qurumlarına çağırış edib. Bu çağırışa uyğun olaraq, maliyyə qurumlarının, ictimai təşkilatların, dövlət orqanlarının və sahibkarların iştirakı ilə birgə müzakirə formatında təşkil olunmuş forum bu baxımdan aktualdır. KOBİA-nın əsas fəaliyyət istiqamətlərindən biri KOB-ların maliyyə resurslarına çıxışını əlçatan etməkdir.

Daha bir məqsədin sahibkarlar tərəfindən təklif olunan investisiya layihələrini maliyyə qurumları ilə əlaqələndirməkdən ibarət olduğunu qeyd edən KOBİA sədri bir sıra təkliflər də səsləndirib. Bildirib ki, KOBİA ilə banklar arasında daha sıx əməkdaşlığın həyata keçirilməsi, daxili bazar araşdırmalarına dövlət dəstəyinin göstərilməsi qaydaları çərçivəsində maliyyə qurumları və banklarla əməkdaşlıq, maliyyə institutları ilə birgə tədbirlərin, seminar və təlimlərin keçirilməsi məqsədəuyğun olardı.

Maliyyə Bazarlarına Nəzarət Palatasının İdarə Heyəti sədri vəzifəsini icra edən İbrahim Alışov, Azərbaycan Respublikası Mərkəzi Bankının Baş direktoru Rəşad Orucov, Azərbaycan Banklar Assosiasiyasının prezidenti Zakir Nuriyev və Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev çıxışlarında mövcud maliyyələşdirmə mexanizmləri, KOB-ların maliyyə resurslarına çıxışının genişləndirilməsi üçün həyata keçirilən tədbirlər, yeni maliyyələşdirmə mexanizmləri, kiçik və orta biznes subyektlərinin maliyyə ehtiyaclarının öyrənilməsi tədbirləri barədə məlumat veriblər.

KOBİA yanında İctimai Şuranın sədri Fərhad Qaraşov forumun keçirilməsi məqsədi, KOBİA yanında İctimai Şuranın fəaliyyəti barədə məlumat verib, KOB-ların, müvafiq dövlət qurumlarının və vətəndaş cəmiyyəti institutlarının iştirakı ilə mütəmadi olaraq üçtərəfli formatda tədbirlərin keçirildiyini bildirib. Tədbirdə səsləndirilən fikirlərin, rəy və təkliflərin nəzərə alınacağını və aidiyyəti üzrə təqdim olunacağını qeyd edib.

Forum çərçivəsində həmçinin müxtəlif maliyyə təşkilatlarının mikro, kiçik və orta sahibkarlıq subyektlərinə təqdim etdiyi maliyyə xidmətlərinin sərgisi təşkil olunub.




# KOBİA gənc sahibkarların yanındadır

**Dekabrın 10-da Bakı Konqres Mərkəzində I Gənc Sahibkarlar Forumu keçirilib.**

KOBİA, Gənclər Fondunun və KOBİA yanında İctimai Şuranın birgə təşkilatçılığı ilə keçirilmiş tədbirdə dövlət qurumlarının, gənclər sahəsində fəaliyyət göstərən ictimai təşkilatların nümayəndələri və sahibkarlıq fəaliyyəti ilə məşğul olan, həmçinin bu sahəyə maraq göstərən gənclər, ümumilikdə 300-dən çox nümayəndə iştirak edib.

Gənclər arasında sahibkarlıq fəaliyyətinin təşviqi, onların bu sahədə fikir və təkliflərinin öyrənilməsi məqsədilə təşkil olunmuş forumda gənclərin sahibkarlıq fəaliyyətinə marağı, biznes fəaliyyətinə başlanmasına dair məsələlər, gənclərin yaradıcı təşəbbüslərinin və layihələrinin reallaşdırılması müzakirə edilib, onları maraqlandıran suallar cavablandırılıb.

Gənclər və idman nazirinin müavini İntiqam Babayev ölkəmizdə həyata keçirilən gənclər siyasəti, bu sahədə görülən tədbirlər, Azərbaycan Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov gənclərin bilik və bacarıqlarının inkişafı, onların təşəbbüs və layihələrinin dəstəklənməsi istiqamətində görülən işlər, “Gənc Sahibkarlar Şəbəkəsi” İctimai Birliyinin İdarə Heyətinin sədri Xaliq İldırımzadə təmsil etdiyi təşkilatın fəaliyyəti barədə məlumat veriblər.

Tədbirdə çıxış edən KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov gənclər arasında sahibkarlığın inkişafının prioritet istiqamətlərdən olduğunu qeyd edərək dövlət dəstək mexanizmlərinin gənclər arasında təşviqinə, məşğulluq prosesinə gənclərin aktiv cəlb olunmasına, infrastruktur resurslardan səmərəli istifadəyə, gənclər üçün maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsinə dair təkliflər səsləndirib.





Forum çərçivəsində KOBİA ilə Azərbaycan Gənclər Fondu və "Gənc Sahibkarlar Şəbəkəsi" İctimai Birliyi arasında əməkdaşlığa dair memorandumlar imzalanıb.

Forum çərçivəsində gənc sahibkarlar biznesin qurulmasına dair öz təcrübələrini bölüşüb, onların təklifləri dinlənilib.



# 04. Beynəlxalq əməkdaşlıq PLATFORMASI




> Prezident İlham Əliyev: Builki tədbir “Kiçik və orta sahibkarlığın inkişafı” mövzusuna həsr olunub.

## Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü keçirilib

**Oktyabrın 15-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə Görüşünü açaraq dövlət və hökumət başçılarını salamlayıb.

Zirvə Görüşündə Qazaxıstan Respublikasının birinci Prezidenti Nursultan Nazarbayev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Özbəkistan




Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekov, Macarıstanın Baş Naziri Viktor Orban, Türkmənistan Baş Nazirinin müavini Purli Aqamuradov, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyev çıxış ediblər. Tədbirdə növbəti Zirvə Görüşünün Türkiyə Respublikasında keçirilməsi qərara alınıb. Görüş çərçivəsində bir sıra sənədlər imzalanıb.


БАЙДЖАНСЬКО-УКРАЇНСЬКИЙ БІЗНЕС-ФОРУМ
17 ГРУДНЯ 2019 РОКУ
БАКУ, АЗЕРБАЙДЖАН
AZƏRBAYCAN-UKRAYNA BİZNES FORUMU
17 DEKABR 2019-CU İL
BAKI, AZƏRBAYCAN
ТОРГОВО-ПРОМИСЛОВА
ПАЛАТА УКРАЇНИ
azpromo

# Bakıda Azərbaycan-Ukrayna biznes forumu keçirilib

**Dekabrın 17-də Bakıda Azərbaycan-Ukrayna biznes forumu keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan Ukrayna Prezidenti Vladimir Zelenski biznes forumda iştirak ediblər.

Biznes forumda çıxış edən dövlət başçıları Azərbaycan-Ukrayna əlaqələrinə və əməkdaşlıq perspektivlərinə dair fikirlərini bölüşüblər.

Tədbirdə Ukraynadan 90-dan çox, Azərbaycandan isə 100-dən artıq şirkət təmsil olunub.






1




2

**KOBİA fəaliyyətə başladığı tarixdən müxtəlif ölkələrin kiçik və orta sahibkarlıq sahəsində fəaliyyət göstərən analoji qurumları ilə əməkdaşlığa başlayıb, Agentliyin bir sıra beynəlxalq tədbirlərdə, forumlarda və seminarlarda iştirakı təmin olunub, ölkəmizdə fəaliyyət göstərən diplomatik korpusun, habelə beynəlxalq təşkilatların nümayəndələri ilə məhsuldar görüşlər keçirilib.**

## 1 avqust 2018

2018-ci il avqustun 1-də ABŞ-ın Xarici Özəl Sərmayələr Korporasiyasında beynəlxalq layihələrin maliyyələşməsi üzrə direktoru Con Diduk ilə görüş keçirilib.Görüş zamanı Con Diduk xarici ölkələrdə layihələrin həyata keçirilməsində maraqlı olduqlarını bildirib, Azərbaycanın bu sahədə böyük potensialının olduğunu xüsusi vurğulayıb.

## 2 noyabr 2018

2018-ci il noyabrın 2-də Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, Sahib-



3




4

01 ABŞ-ın Xarici Özəl Sərmayələr Korporasiyasında beynəlxalq layihələrin maliyyələşməsi üzrə direktoru Con Diduk ilə görüş. 1 avqust 2018-ci il

02 “Qara dəniz regionunda kiçik və orta sahibkarlığın inkişafı”na dair beynəlxalq biznes-forum. 2 noyabr 2018-ci il

03 Asiya İnkişaf Bankının ekspertləri ilə görüş. 3-17 fevral 2019-cu il

04 Səudiyyə Ərəbistanı Krallığının Baş İnvestisiya Qurumu ilə “İkitərəfli investisiya əlaqələrinin genişləndirilməsi üzrə çərçivə əməkdaşlığı Proqramı” imzalanması. 4 mart 2019-cu il

karlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının təşkilatçılığı ilə “Qara dəniz regionunda kiçik və orta sahibkarlığın inkişafı”na dair beynəlxalq biznes-forum keçirilib.

## 3-17 fevral 2019

KOBİA mikro, kiçik və orta biznesin inkişafı istiqamətində strateji təşəbbüslərin və layihələrin həyata keçirilməsi, effektiv korporativ idarəetmə sisteminin tətbiqi istiqamətində beynəlxalq təşkilatlarla da əməkdaşlıq edir. Agentliyin təşkilatçılığı ilə Asiya İnkişaf Bankının ekspertləri 2019-cu il fevralın 3-17-də Bakıda səfərdə olub. Səfər zamanı Asiya İnkişaf Bankının ekspertləri ilə Agentliyin müvafiq struktur bölmələri arasında bir sıra görüşlər keçirilib.

## 4 mart 2019

2019-cu il martın 4-də KOBİA və Səudiyyə Ərəbistanı Krallığının Baş İnvestisiya Qurumu arasında “İkitərəfli investisiya əlaqələrinin genişləndirilməsi üzrə çərçivə əməkdaşlığı Proqramı” imzalanıb.










## 6 mart 2019

2019-cu il martın 6-da Bakı şəhərində KOBİA və "Caspian European Club" birgə biznes-forum keçirib. KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədovun iştirakı ilə təşkil edilmiş tədbirdə Azərbaycanda biznesin inkişaf perspektivlərinə dair müzakirələr aparılıb.

## 24 aprel 2019

2019-cu il aprelin 24-də Bakıda keçirilən "Falcons Summit" tədbirində iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Səudiyyə Ərəbistanı Krallığının Baş İnvestisiya Qurumunun (SAGIA) rəhbərlik etdiyi dövlət və özəl sektor nümayəndələri KOBİA-də olublar.

## 4 may 2019

2019-cu il mayın 4-də Qazaxıstanın paytaxtı Nur-Sultanda təşkil edilən "Ulttyq Onim" Milli Məhsullar Sərgisi çərçivəsində Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə Qazaxıstanın müvafiq qurumu olan "Damu" Sahibkarlığın İnkişafı Fondunun nümayəndələri arasında görüş keçirilib.

KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov və "Damu" Sahibkarlığın İnkişafı Fondunun idarə heyətinin sədri xanım Qauxar Buribayeva arasında keçirilmiş görüşdə Azərbaycan ilə Qazaxıstanda kiçik və orta sahibkarlığın inkişafı, hər iki qurumun fəaliyyəti barədə söhbət açılıb, əməkdaşlıq imkanlarına, təcrübə mübadiləsinə və qarşılıqlı səfərlərin təşkilinə dair müzakirələr aparılıb. Görüşdən sonra KOBİA ilə "Damu" Sahibkarlığın İnkişafı Fondu arasında əməkdaşlığa dair anlaşma memorandumu və birgə tədbirləri müəyyən edəcək yol xəritəsi imzalanıb. Sərgi çərçivəsində, həmçinin KOBİA nümayəndələrinin Qazaxıstanın bir sıra dövlət və özəl qurumlarında görüşləri təşkil olunub. KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədovla Qazaxıstanın Xarici Ticarət Palatasının sədri Ayan Erenovin görüşündə Azərbaycan və Qazaxıstanın kiçik və orta biznes



4



5



6

01 KOBİA və "Caspian European Club" birgə biznes-forumu. 6 mart 2019-cu

02 Səudiyyə Ərəbistanı Krallığının Baş İnvestisiya Qurumunun (SAGIA) rəhbərlik etdiyi dövlət və özəl sektor nümayəndələri ilə görüş. 24 aprel 2019-cu il

03 KOBİA ilə Qazaxıstanın "Damu" Sahibkarlığın İnkişafı Fondu arasında əməkdaşlığa dair anlaşma memorandumu. 4 may 2019-cu il

04 Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini Niyazi Səfərovun və KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədovun KOSGEB sədri Cəvahir Uzkurt ilə görüşü. 14 may 2019-cu il

05 KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov və Polşa Respublikasının Sahibkarlığın İnkişafı Agentliyinin prezidenti Malgorzata Oleszczuk. 31 may 2019-cu il.

06 Azərbaycanla Rusiya arasında əməkdaşlıq və KOB-lar arasında birgə layihələrin reallaşdırılması məsələlərin müzakirəsi. 15 iyun 2019-cu il

(KOB) subyektləri arasında əlaqələrin genişləndirilməsinə, qarşılıqlı ixrac missiyalarının təşkilinə, biznes assosiasiyalarına dəstək mexanizmlərinə dair müzakirələr olub.

## 14 may 2019

2019-cu il mayın 14-də Türkiyənin Ankara şəhərində Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini Niyazi Səfərovun və KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədovun KOSGEB sədri Cəvahir Uzkurt ilə görüşündə KOBİA-nın təşkilatın geniş təcrübəsindən yararlanmasına, hər iki ölkənin KOB subyektləri arasında əlaqələrin genişləndirilməsinə, bu sahədə birgə tədbir və layihələrin reallaşdırılmasına dair müzakirələr aparılıb.

## 31 may 2019

2019-cu il mayın 31-də Bakıda keçirilmiş Azərbaycan-Polşa biznes-forumu çərçivəsində KOBİA ilə Polşa Respublikasının Sahibkarlığın İnkişafı Agentliyi arasında Anlaşma memorandumu imzalanıb. Sənədi KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov və Polşa Respublikasının Sahibkarlığın İnkişafı Agentliyinin prezidenti Malgorzata Oleszczuk imzalayıblar.

## 15 iyun 2019

2019-cu il iyunun 15-də Rusiya Federasiyası Dağıstan Respublikasının Mahaçqala şəhərində təşkil olunmuş dəyirmi masada Azərbaycanla Rusiya arasında xüsusilə










sərhədyanı bölgələrdə kiçik və orta sahibkarlıq sahəsində əməkdaşlıq imkanları, KOB-lar arasında birgə layihələrin reallaşdırılması məsələləri müzakirə edilib.

## 25 iyun 2019

2019-cu il iyunun 25-də KOBİA-da ölkəmizdə səfərdə olan BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Avropa və Mərkəzi Asiya üzrə regional direktor müavini Nabil Ganci ilə görüş keçirilib.

## 27 iyun 2019

Azərbaycan nümayəndə heyətinin İsveçrəyə səfəri çərçivəsində 2019-cu il iyunun 27-də Sürix şəhərində İsveçrə-Azərbaycan biznes-forumu keçirilib. Tədbirdə KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov təqdimatla çıxış edərək Agentliyin fəaliyyəti, kiçik və orta biznes subyektlərinə göstərilən dəstək tədbirləri, yaradılmaqda olan yeni dəstək mexanizmləri barədə məlumat verib.

## 28 iyun 2019

2019-cu il iyunun 28-də Berndə keçirilmiş Azərbaycan Respublikası Hökuməti və İsveçrə Konfederasiyası Federal Şurası arasında Ticarət və İqtisadi Əməkdaşlıq üzrə Birgə Komissiyanın 8-ci iclası çərçivəsində KOBİA və İsveçrənin Kiçik və Orta Sahibkarlar Assosiasiyası arasında əməkdaşlığa dair Anlaşma memorandumu imzalanıb.

## 15 iyul 2019

KOBİA-da BMT-nin İnkişaf Proqramının (UNDP) Azərbaycan üzrə ölkə nümayəndəsi Alessandro Frakasseti ilə görüş keçirilib.

KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov ölkəmizdə mikro, kiçik və orta sahibkarlığın inkişafı istiqamətində KOBİA-nın fəaliyyəti, ölkədə biznes mühitinin daha da yaxşılaşdırılması, sahibkarlar üçün yeni biznes imkanlarının təmin edilməsi, onların müxtəlif dəstək mexanizmlərinə çıxışının genişləndirilməsi, dövlət-özəl tərəfdaşlığı istiqamətində həyata keçirilən proqramlar və strateji təşəbbüslər haqqında ətraflı məlumat verib. UNDP-nin ölkə üzrə nümayəndəsi Alessand-



4



5




6

01 BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Avropa və Mərkəzi Asiya üzrə regional direktor müavini Nabil Ganci ilə görüş. 25 iyun 2019-cu il

02 İsveçrə-Azərbaycan biznes-forumu. 27 iyun 2019-cu il

03 Berndə keçirilmiş Azərbaycan Respublikası Hökuməti və İsveçrə Konfederasiyası Federal Şurası arasında Ticarət və İqtisadi Əməkdaşlıq üzrə Birgə Komissiyanın 8-ci iclası. 28 iyun 2019-cu il

04 BMT-nin İnkişaf Proqramının (UNDP) Azərbaycan üzrə ölkə nümayəndəsi Alessandro Frakasseti ilə görüş. 15 iyul 2019-cu il

05 İslam Əməkdaşlığı Gənclər Forumunun (İƏGF) Avrasiya Regional Mərkəzi və İƏGF Baş Qərargahı arasında əməkdaşlığa dair üçtərəfli protokol imzalanması. 23 iyul 2019-cu il

06 "Maliyyə, investisiya və KOB" sahəsinə dair sessiya. 19 sentyabr 2019-cu il

ro Frakasseti rəhbərlik etdiyi qurumun beynəlxalq səviyyədə və Azərbaycanda həyata keçiridiyi layihələr haqqında geniş məlumat verib, Davamlı İnkişaf Məqsədlərinin reallaşdırılmasında özəl sektorun rolunun əhəmiyyətini qeyd edib. Alessandro Frakasseti KOBİA-nın fəaliyyət istiqamətləri üzrə xüsusilə regionlarda sahibkarların bilik və bacarıqlarının artırılması, gənclərin, qadınların və əlillərin sahibkarlıq imkanlarının genişləndirilməsi sahəsində birgə layihələrin həyata keçirilməsində maraqlı olduqlarını bildirib.

## 23 iyul 2019

2019-cu il iyulun 23-də KOBİA, İslam Əməkdaşlığı Gənclər Forumunun (İƏGF) Avrasiya Regional Mərkəzi və İƏGF Baş Qərargahı arasında əməkdaşlığa dair üçtərəfli protokol imzalanıb.

## 19 sentyabr 2019

2019-cu il sentyabrın 19-da Bakıda "Maliyyə, investisiya və KOB" sahəsinə dair sessiya keçirilib. Sessiya IX Beynəlxalq "Caspian Energy Forum Baku-2019" tədbiri çərçivəsində təşkil olunub.







## 27 sentyabr 2019

Sentyabrın 27-də Heydər Əliyev Mərkəzində IX Azərbaycan-Rusiya Regionlararası Forumu keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin mərasimdə iştirak ediblər. Forum çərçivəsində Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə "İşgüzar Rusiya" Ümumrusiya İctimai Təşkilatı, Rusiya-Azərbaycan İşgüzar Şurası, İslam Biznesi Beynəlxalq Assosiasiyası arasında əməkdaşlıq haqqında memorandumlar imzalanıb.

## 3 oktyabr 2019

2019-cu il oktyabrın 3-də Bakı Biznes Mərkəzində Azərbaycan və Rusiyanın kiçik və orta biznes subyektləri arasında əlaqələrin inkişafına, yeni əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsinə, KOB sahəsində təcrübə mübadiləsinə həsr olunmuş dəyirmi masa keçirilib. Dəyirmi masa çərçivəsində KOBİA və "Opora Rossii" Ümumrusiya Kiçik və Orta Sahibkarlıq İctimai Təşkilatı arasında qarşılıqlı əməkdaşlığa dair Anlaşma memorandumu imzalanıb. Sənədi KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov və "Opora Rossii" Ümumrusiya Kiçik və Orta Sahibkarlıq İctimai Təşkilatının prezidenti Aleksandr Kalinin imzalayıblar.

## 14 oktyabr 2019

2019-cu il oktyabrın 14-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşü çərçivəsində biznes-forum keçirilib. Forum çərçivəsində iş adamları arasında ikitərəfli görüşlər keçirilib, əməkdaşlığın genişləndirilməsi və yeni əlaqələrin qurulması məsələləri müzakirə edilib.

## 2 noyabr 2019

2019-cu il noyabrın 2-də Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən "Global Village" beynəlxalq yarmarkasında Azərbaycan pavilyonunun açılışında iştirak edən KOBİA nümayəndə heyəti Dubayın Kiçik və Orta Müəssisələr üzrə qurumunun baş icraçı direktoru Abdul Baset əl-Canahi ilə görüşüb.

## 21-22 noyabr 2019

21-22 noyabr tarixlərində Tokio şəhərində keçirilmiş Azərbaycan Respublikası ilə Yaponiya arasında iqtisadi əməkdaşlıq üzrə



4



6



5



7

01 IX Azərbaycan-Rusiya Regionlararası Forumu . 27 sentyabr 2019-cu il

02 Azərbaycan və Rusiyanın kiçik və orta biznes subyektləri arasında dəyirmi masa. 3 oktyabr 2019-cu il

03 Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşü. 14 oktyabr 2019-cu il

04 Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən “Global Village” beynəlxalq yarmarkasında Azərbaycan pavilyonunun açılışı. 2 noyabr 2019-cu il

05 Azərbaycan Respublikası ilə Yaponiya arasında iqtisadi əməkdaşlıq üzrə Dövlət Komissiyasının 10-cu iclası 21-22 noyabr 2019-cu il

06 Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının 18-ci iclası. 9 dekabr 2019-cu il

07 Azərbaycan-Səudiyyə Ərəbistanı əməkdaşlığı üzrə İşçi Qrupunun 4-cü iclası. 13 dekabr 2019-cu il

Dövlət Komissiyasının 10-cu iclasında iştirak etmiş KOBİA-nın nümayəndələri KOB sektorunda əməkdaşlıq imkanlarının müzakirə olunması məqsədilə Yaponiyanın bir sıra qurum və təşkilatlarında görüşlər keçirib.

## 9 dekabr 2019

KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov dekabrın 9-da Bakıda keçirilən Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının 18-ci iclası çərçivəsində Rusiyanın Kiçik və Orta Sahibkarlığın İnkişafı Korporasiyasının baş direktorunun müavini Svetlana Kuznetsova ilə görüşüb.

## 13 dekabr 2019

Səudiyyə Ərəbistanı Krallığının Ər-Riyad şəhərində Azərbaycan-Səudiyyə Ərəbistanı əməkdaşlığı üzrə İşçi Qrupunun 4-cü iclası keçirilib. Tədbirdə Azərbaycan və Səudiyyə Ərəbistanı arasında iqtisadi əməkdaşlığın genişləndirilməsinə, hər iki ölkənin KOB-larının iştirakı ilə birgə tədbirlərin təşkilinə, iqtisadiyyatın müxtəlif sahələri üzrə qarşılıqlı məlumat mübadiləsinə, Səudiyyə Ərəbistanının müvafiq qurumlarının Agentliyin strukturuna daxil olan KOB İnkişaf Fondunda iştirak imkanlarına, qarşılıqlı biznes missiyaların təşkilinə dair müzakirələr aparılıb.

İclasın sonunda Azərbaycan-Səudiyyə Ərəbistanı əməkdaşlığı üzrə İşçi Qrupunun 4-cü iclasının yekunlarına dair Protokol imzalanıb. Sənədi İşçi Qrupun həmsədri, KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və SAGİA-nın sədr müavini İbrahim Al-Suavi imzalayıblar.

## İsveçrə Əməkdaşlıq Ofisinin nümayəndələri ilə görüş keçirilib

İqtisadiyyat naziri Mikayıl Cabbarov İsveçrə Əməkdaşlıq Ofisinin (SECO) Cənubi Qafqaz üzrə Regional direktoru xanım Daniela Myulini və onun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan və SECO arasında əməkdaşlığın cari vəziyyəti və perspektiv imkanları, ölkənin investisiya və iqtisadi rəqabət mühiti, həmçinin Vergilər Nazirliyi ilə əməkdaşlığın genişləndirilməsi ilə bağlı məsələlər müzakirə olunub, qarşılıqlı maraq doğuran digər mövzular ətrafında fikir mübadiləsi aparılıb.



# 05. BİRGƏ LAYİHƏLƏR



## KOBİA və BP şirkəti Anlaşma Memorandumu imzalayıblar

**Dekabrın 20-də Bakı Biznes Mərkəzində KOBİA ilə BP şirkəti arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Sənədi Agentliyin İdarə Heyətinin sədri Orxan Məmmədov və BP-nin vitse-prezidenti Bəxtiyar Aslanbəyli imzalayıblar.**

Bununla əlaqədar keçirilmiş tədbirdə KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov ölkə iqtisadiyyatının aparıcı qüvvəsi olan sahibkarlığın, xüsusilə də kiçik və orta biznesin inkişafının Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə həyata keçirilən siyasətin prioritetlərindən olduğunu vurğulayıb. Qeyd edilib ki, dövlət başçısının təşəbbüsü ilə yaradılmış Kiçik və Orta Biznesin İnkişafı Agentliyi artıq bir sıra layihələrin icrasına başlayıb. Kiçik və orta biznesə dəstək məqsədilə bir sıra layihələr üzərində iş aparılır. Agentliyin sahibkarlar və sahibkarların ictimai birlikləri, aidiyyəti dövlət qurumları ilə səmərəli əməkdaşlıq etdiyini diqqətə çatdıran Agentlik rəhbəri BP və KOBİA arasında əməkdaşlığa dair sənədin kiçik və orta biznesin inkişafı sahəsində yeni təşəbbüslərin reallaşdırılmasına töhfə verəcəyini vurğulayıb.

BP-nin vitse-prezidenti Bəxtiyar Aslanbəyli şirkətin sahibkarlığın, kiçik və orta biznesin dəstəklənməsi istiqamətində həyata keçirdiyi layihələr barədə məlumat verib, Anlaşma Memorandumunda nəzərdə tutulan tədbirlərin BP-nin KOBİA ilə əməkdaşlığını genişləndirəcəyini və biznesin inkişafına dəstək olacağını diqqətə çatdırıb.




# KOBİA Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti ilə uğurla əməkdaşlıq edir

KOBİA və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) arasında əməkdaşlıq yalnız proqram çərçivəsində məhdudlaşmır. KOBİA-nın təşəbbüsü və təşkilatçılığı ilə GİZ həm də mikro, kiçik və orta sahibkarların müxtəlif sərgilərdə iştirakına, onlar üçün təlimlərin keçirilməsinə dəstək göstərir. Belə ki, 26 sentyabr 2019-cu il tarixində Naftalanda KOBİA, GİZ və Naftalan Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Gəncə-Qazax iqtisadi rayonunda fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarların məhsul və xidmətlərinin sərgi-satış yarmarkası təşkil olunub. Mikro, kiçik və orta sahibkarların məhsul və xidmətlərinin təqdim edilməsi və satış imkanlarının genişləndirilməsi məqsədilə keçirilmiş sərgi-satış yarmarkasında əsasən qadın sahibkarların məhsulları və əl işləri nümayiş olunub. Ümumilikdə sərgi-satış yarmarkasında 30-a yaxın KOB subyektinin 50-dən çox çeşiddə məhsulları sərgilənib.

Bundan başqa, KOBİA və GİZ arasındakı əməkdaşlıq çərçivəsində 12-14 sentyabr 2019-cu il tarixində 2-ci Azərbaycan Beynəlxalq Hədiyyələr və Pro-

mo Məhsulları Sərgisində (“Gift & Promo 2019”) mikro və kiçik sahibkarların əl işləri nümayiş olunub. KOB-lar üçün ayrılmış xüsusi stenddə əsasən qadın və əlil sahibkarlar tərəfindən hazırlanmış suvenirlər, ağac üzərində oymalar, xalçaçılıq və dekorativ-tətbiqi sənət nümunələri, bəzək əşyaları və aksesuarlar, oyuncaqlar və s. olmaqla ümumilikdə 50-yə yaxın çeşiddə əl işləri nümayiş olunub. KOBİA-nın stendi sərgidə “Ən yaxşı sosial layihə” mükafatına layiq görülüb.








# Azərbaycanın biznes ictimaiyyətində menecerlərin ixtisasının artırılması üzrə Almaniya-Azərbaycan birgə Proqramı

**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Almaniyanın Federal İqtisadiyyat və Enerji Nazirliyi arasında 12 oktyabr 2009-cu il tarixində imzalanmış Anlaşma Memorandumuna müvafiq olaraq, KOBİA Almaniyanın Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) ilə birlikdə "Azərbaycanın biznes ictimaiyyətində menecerlərin ixtisasının artırılması üzrə Almaniya-Azərbaycan birgə Proqramı"nı həyata keçirir.**

Proqramın məqsədi Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafına dövlət dəstəyinin gücləndirilməsindən, ölkə iqtisadiyyatının müxtəlif sahələrində fəaliyyət göstərən sahibkarların və menecerlərin Almaniyanın tədris mərkəzlərində nəzəri biliklərinin artırılmasından, Almaniya müəssisələrində innovativ texnologiyalar və idarəetmə metodları, müəssisələrin fəaliyyət mexanizmi ilə tanış olmasından, peşə-hazırlıq səviyyələrinin yüksəldilməsindən, Almaniya müəssisələri ilə iqtisadi kooperasiya əlaqələrinin yaradılmasından ibarətdir. İxtisasartırma kursu üzrə zəruri xərclər (yol xərcləri istisna edilməklə) Almaniya tərəfindən ödənilir.

Proqram çərçivəsində 2009-2019-cu illər ərzində 422 nəfər (88 nəfəri qadın olmaqla) sahibkar və menecer Almaniyada 1 ay müddətində "İqtisadi kooperasiya" üzrə ixtisasartırma kursu keçiblər. İştirakçıların yaş həddi 25-50 aralığında olub.

Proqram iştirakçılarının 44%-i xidmət, 26%-i istehsal, 23%-i ticarət, 7%-i isə digər sahələrdə fəaliyyət göstərən sahibkar



və menecerlərdir. Proqram çərçivəsində Almaniya şirkətləri ilə əlaqələr quran Azərbaycan şirkətləri indiyədək əməkdaşlığa dair 350-dən çox müqavilə imzalayıb.

2009-2019-cu illərdə 60-dan çox tədbir (o cümlədən müxtəlif regionlarda olmaqla) GİZ ilə birlikdə xarici ekspertlərin iştirakı ilə keçirilib.

## Proqram çərçivəsində keçirilən tədbirlər

- Proqramın icrasına dair elanın mətninin KİV-lər vasitəsilə yayımlanması;
- Bölgələrdə və Bakı şəhərində fəaliyyət göstərən şirkətlərdə sahibkar və menecerlərin məlumatlandırılması məqsədilə promoturların təşkili;
- Proqramda iştirak etmək üçün müsabiqənin təşkili;
- GİZ tərəfindən seçilmiş namizədlər üçün beynəlxalq və yerli ekspertlər tərəfindən Azərbaycanda hazırlıq seminarlarının keçirilməsi;
- Proqramın icrasından sonra səmərəliliyinin qiymətləndirilməsinə həsr olunmuş seminarlar (Follow-up) - Azərbaycanda;
- Proqram məzunlarının Forumları;
- Proqram çərçivəsində ikitərəfli görüşlər;
- 3 ildən bir proqramın icra müddətinin uzadılması;
- Treninqlər və digər tədbirlər.





## SEDA çərçivəsində əməkdaşlıq: regionlarda 163 layihə

Azərbaycan Hökuməti və ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAİD) tərəfindən birgə reallaşdırılan "Sosial-iqtisadi inkişaf fəaliyyəti" (SEDA) layihəsi çərçivəsində indiyədək Azərbaycanın regionlarında yol tikintisi, su təminatı, tibb məntəqəsinin, eləcə də inkubatorların, balın qablaşdırılması, yem emalı, şirniyyat, meyvəqurutma müəssisələrinin yaradılması üzrə 163 layihə reallaşdırılıb.












Bütövlükdə sektorun inkişafına xidmət edən belə müəssisələr bölgələrdə kənd təsərrüfatı və heyvandarlığın inkişafında, məşğulluğun təmin edilməsində əhəmiyyətli olmaqla, KOB-ların rəqabət qabiliyyətinin artırılmasını, bazarlara çıxış imkanlarının genişləndirilməsini təmin etməklə mikro və kiçik sahibkarlığın inkişafına öz töhfəsini verir. Layihələr həyata keçirildiyi ərazilərin icmasının aktiv iştirakı ilə reallaşdırılır ki, bu da davamlı inkişafa əsas yaradır.



# “KOB DOSTU” şəbəkəsi



01 “Kiçik və orta biznesin dostu” şəbəkəsi

02 “Kiçik və orta biznesin dostu” rəqəmlərdə

03 Yeni KOB-ların yaranması və mövcud KOB-ların inkişafına dəstək




# 01. "KİÇİK VƏ ORTA BİZNESİN DOSTU" ŞƏBƏKƏSİ

Agentlik qarşıya qoyulmuş hədəflərin reallaşdırılması məqsədilə yeni idarəetmə modelləri tətbiq etməkdədir. Hazırda ölkə üzrə formalaşdırılmaqda olan Kiçik və Orta Biznesin Dost şəbəkəsi Agentliyin mühüm strateji layihələrindən biridir və Agentliyin regionlardakı fəaliyyəti bu şəbəkə vasitəsilə həyata keçirilir.

"KOB Dostu" şəbəkəsinin fəaliyyəti yeni KOB-ların yaranması, mövcud KOB-ların inkişafı vasitəsilə regionun inkişaf potensialının reallaşdırılmasına yönəldilmişdir. Bu məqsədlə potensial investisiya layihələri müəyyən edilir və onların KOB-lar vasitəsilə həyata keçirilməsi təşviq edilir.

"KOB Dostu" şəbəkəsinin fəaliyyətinin digər önəmli istiqaməti KOB-lara onların dayanıqlı inkişaf tələblərinə uyğun dəstəklərin verilməsindən ibarətdir. Bu istiqamətdə fəaliyyət, bir tərəfdən mövcud dövlət dəstək mexanizmlərindən istifadə imkanlarının genişləndirilməsi, bu dəstəklərə KOB-ların maneəsiz və rahat çıxışının təmin edilməsinə, digər tərəfdən Agentliyin göstərəcəyi çoxsaylı dəstək mexanizmlərinin tətbiqinə yönəlmişdir.










“KOB Dostu” şəbəkəsinin fəaliyyətinin digər mühüm istiqaməti KOB-ların hüquqlarının müdafiəsi istiqamətindədir. KOB-ların hüquqlarının müdafiəsi, yarana biləcək problemlərin həllinin dövlət-sahibkar əməkdaşlıq platformasında yerində operativ həllini nəzərdə tutur.

“KOB Dostu” şəbəkəsinin fəaliyyətinin daha bir mühüm istiqaməti sorğu və monitorinqlərin həyata keçirilməsidir. Sahibkarlarla sıx əlaqədə olan “KOB Dostu” şəbəkəsi onların inkişaf ehtiyaclarını sorğular vasitəsilə öyrənir. Eyni zamanda, bu şəbəkə vasitəsilə yerlərdə KOB-lara göstərilən xidmətlərin monitorinqi aparılacaqdır.

> Ümumilikdə ölkənin 10 iqtisadi rayonu üzrə 60 “KOB Dostu”nun yaradılması nəzərdə tutulub.



Ümumilikdə ölkənin 10 iqtisadi rayonu üzrə 60 "KOB Dostu"nun yaradılması nəzərdə tutulub.

İlk "KOB Dostu" 2018-ci ilin sentyabrında ölkə Prezidentinin iştirakı ilə Masallı Sənaye Məhəlləsinin açılışı çərçivəsində Masallıda fəaliyyətə başlayıb. Növbəti belə qurum 2018-ci il dekabrın 3-də Siyəzən "Gənclər evi"ndə Siyəzən və Şabran rayonları üzrə açılıb. Daha sonra, 2018-ci il dekabrın 3-də Xaçmaz rayonunda, 2018-ci il dekabrın 25-də Gəncə və Yevlax



şəhərlərində, 2018-ci il dekabrın 28-də Quba və Qusar rayonlarında da “KOB Dostu” fəaliyyətə başlayıb. 2019-cu il fevralın 12-də Qəbələ və Oğuz rayonları üzrə, fevralın 22-də Abşeron rayonu, martın 13-də Füzuli rayonu, aprelin 17-də Sumqayıt şəhəri, mayın 30-da Şəki şəhəri, iyulun 10-da Şamaxı rayonu, avqustun 22-də Bakı şəhərinin Xəzər rayonu, oktyabrın 8-də İmişli rayonu, oktyabrın 16-da Şəmkir rayonu üzrə, dekabrın 6-da isə Lənkəran və Cəlilabad rayonları üzrə “KOB Dostu” fəaliyyətə başlayıb. 2019-cu il iyulun 12-də “KOB Dostu” Dövlət Gömrük Komitəsinin Bakı Baş Gömrük İdarəsində fəaliyyətə başlayıb. Bununla da gömrük xidmətlərindən istifadə edən mikro, kiçik və orta sahibkarlar Bakı Baş Gömrük İdarəsində fəaliyyət göstərən “KOB Dostu”na müraciət etməklə idxal-ixrac əməliyyatları, gömrük rəsmiləşdirilməsi və prosedurları, o cümlədən investisiya və ixrac təşviqindən istifadə zamanı gömrük güzəştləri ilə bağlı informasiya, məsləhət, hüquqi yardım, əlaqələndirmə kimi xidmətlərdən istifadə edə biləcəklər. Ölkə üzrə fəaliyyət göstərən “KOB Dost”larının sayı 20-ə çatıb.












# 02. "KİÇİK VƏ ORTA BİZNESİN DOSTU" RƏQƏMLƏRDƏ

- Hazırda Bakı, Sumqayıt, Gəncə, Yevlax, Şəki, Lənkəran şəhərlərində, Abşeron, Qəbələ-Oğuz, Şamaxı, Quba, Qusar, Xaçmaz, Siyəzən-Şabran, Masallı, Füzuli, İmişli, Şəmkir və Cəlilabad rayonlarında **20 "KOB Dostu"** fəaliyyət göstərir.
- Ümumilikdə, ölkənin 10 iqtisadi rayonu üzrə 60 "KOB Dostu"nun yaradılması nəzərdə tutulub.

| 2018 | 2019 |
|---|---|
| 1. Masallı rayonu | 1. Qəbələ-Oğuz rayonları |
| 2. Siyəzən-Şabran rayonları | 2. Abşeron rayonu |
| 3. Xaçmaz rayonu | 3. Füzuli rayonu |
| 4. Gəncə şəhəri | 4. Sumqayıt şəhəri |
| 5. Yevlax şəhəri | 5. Şəki şəhəri |
| 6. Quba rayonu | 6. Şamaxı rayonu |
| 7. Qusar rayonu | 7. Bakı ş. (Xəzər r-nu) |
| | 8. İmişli rayonu |
| | 9. Şəmkir rayonu |
| | 10. Bakı şəhəri (BBGİ) |
| | 11. Lənkəran şəhəri |
| | 12. Cəlilabad rayonu |
| | 13. Bakı ş. (Nərimanov r-nu) |






## "KOB Dostu" layihəsi çərçivəsində həyata keçirilmiş tədbirlər

**Onlayn platforma üzərindən maarifləndirmə tədbirləri**

- Vergi, gömrük, qida təhlükəsizliyi, maliyyə resurslarına çıxış, kommunal xidmətlərə qoşulma, dövlət satınalmalarında iştirak, daxili bazar araşdırmaları, investisiya təşviqi, korporativ idarəetmə, kənd təsərrüfatı və özünüməşğulluq və mövcud yeniliklərə dair "KOB Dostu" şəbəkəsi vasitəsilə paytaxt qəsəbələrində və ölkənin digər regionlarında fəaliyyət göstərən sahibkarlar üçün sayca 9-cu onlayn maarifləndirici tədbir təşkil edilib, bu fəaliyyət kütləvi informasiya vasitələrində işıqlandırılıb və 8000-dən çox sahibkar bu imkanlardan yararlanıb.
- Onlayn platforma üzərindən qaldırılmış məsələlərə və vətəndaşların müraciətlərinə bir çox hallarda yerində reaksiya verilib, aidiyyəti qurumlar tərəfindən qeydə alınmaqla həll edilib, müvafiq məsləhətlər verilib və yerində araşdırılması mümkün olmayan digər məsələlər KOBİA tərəfindən əlaqələndirilib.

**Sahəvi görüşlər**

- 14 inzibati ərazi vahidi üzrə ümumilikdə 34 sahəvi görüş təşkil edilib.
- Sahəvi görüşlərdə, əsasən, turizm, heyvandarlıq (xırda və iribuynuzlu heyvandarlıq), bağçılıq, meyvəçilik, istehsal (çörək, alkoqolsuz içkilərin istehsalı, kənd təsərrüfatı məhsullarının konservləşdirilməsi, mebel, plastik qapı-pəncərə, taxta yeşik, dam örtükləri), xidmət (dərzi, yaşıllaşdırma, təmizlik, kompüter kursları, bərbərlik və tikinti), satış (qida məhsulları, elektrik avadanlıqlar), üzrə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin iştirakı təmin edilib.
- Müvafiq görüşlərə aidiyyəti dövlət orqanlarının nümayəndələri də dəvət edilmiş və müzakirələr zamanı səsləndirilən problemlər və təkliflər dövlət-sahibkar əməkdaşlıq platformasında müzakirə edilib.
- Görüşlər zamanı səsləndirilən təkliflər ümumiləşdirilərək aidiyyəti dövlət qurumlarına təqdim edilib.

**Sorğuların keçirilməsi**

- "KOB Dostu" şəbəkəsi vasitəsilə mövcud KOB-ların avadanlıq, təlim ehtiyaclarının müəyyən edilməsi, idxal-ixrac əməliyyatları zamanı problemlərin öyrənilməsi ilə bağlı sahibkarlıq subyektlərinin məlumatlılıq və məmnunluq səviyyəsinin ölçülməsi üzrə sorğular keçirilib.
- Avadanlıq üzrə keçirilmiş sorğuların nəticəsi olaraq yerli icmaların formalaşdırılmasına başlanıb, təlim ehtiyacları üzrə sorğu nəticələrinə əsasən müəyyən edilən sahibkarlara 3 mərhələ üzrə təlimlər təşkil edilib, idxal-ixrac əməliyyatları üzrə sorğunun nəticələri isə İqtisadiyyat Nazirliyinə təqdim olunub.

# “KOB Dostu” layihəsi çərçivəsində müraciətlər üzrə problemlərin öyrənilməsi və icmalı

- Layihə çərçivəsində daxil olmuş 1538 müraciət təhlil edilmişdir *(01.12.2019-cu il tarixinədək)*.

## 2019

| | |
|---|---|
| 1. Abşeron “KOB Dostu” | 36 |
| 2. Bakı “KOB Dostu” | 305 |
| 3. BBGİ “KOB Dostu” | 55 |
| 4. Füzuli “KOB Dostu” | 53 |
| 5. Gəncə “KOB Dostu” | 191 |
| 6. İmişli “KOB Dostu” | 175 |
| 7. Masallı “KOB Dostu” | 55 |
| 8. Qəbələ-Oğuz “KOB Dostu” | 115 |
| 9. Quba “KOB Dostu” | 58 |
| 10. Qusar “KOB Dostu” | 128 |
| 11. Şamaxı “KOB Dostu” | 34 |
| 12. Şəki “KOB Dostu” | 40 |
| 13. Şəmkir “KOB Dostu” | 18 |
| 14. Siyəzən-Şabran “KOB Dostu” | 108 |
| 15. Sumqayıt “KOB Dostu” | 62 |
| 16. Xaçmaz “KOB Dostu” | 157 |
| 17. Bakı ş. Xəzər r-nu üzrə “KOB Dostu” | 20 |
| 18. Yevlax “KOB Dostu” | 91 |
| 19. Lənkəran “KOB Dostu” | * |
| 20. Cəlilabad “KOB Dostu” | * |
| **CƏMİ** | **1538** |

* Yeni fəaliyyətə başlamışdır.

- Xarakterinə görə daxil olmuş müraciətlərin 509-u (33%) hüquqi yardım və məsləhət xidmətlərinin göstərilməsi, 525-i (34%) maliyyə resurslarına çıxış, 281-i (18%) hüquqların müdafiəsi, 223 (15%) isə maarifləndirmə məsələləri ilə bağlı olub.







- Ümumilikdə əlaqələndirmə və dəstək tədbirləri nəticəsində 270 (17,56%) müraciət öz müsbət həllini tapıb, 144 (9,36%) müraciət isə qismən həllini tapıb. 377 müraciət həlini tapmayıb (24,51%), 314 (20,42%) müraciət üzrə sorğu cavablandırılıb, 433 (28,15%) müraciətin isə həlli hələ də gözlənilməkdədir kimi qeydə alınıb.

| Həlli vəziyyəti | Hüquqi yardım | Hüquqların müdafiəsi | Maarifləndirmə | Maliyyə resurslarına çıxış | Cəmi |
|---|---|---|---|---|---|
| Həllini tapıb | 89 | 93 | 41 | 47 | **270** |
| Həllini tapmayıb | 103 | 85 | 16 | 173 | **377** |
| Nəticəsi gözlənilməkdədir | 178 | 44 | 21 | 198 | **433** |
| Qismən həllini tapıb | 47 | 42 | 15 | 40 | **144** |
| Sorğu cavablandırılıb | 92 | 17 | 130 | 75 | **314** |
| **Yekun:** | **509** | **248** | **170** | **412** | **1538** |

**Həlli tapılmayan məsələlər üzrə əsas problemlər:**

- Vətəndaşların öz hüquqları barədə məlumatlılığın olmaması;
- Kredit şərtlərinin ağırlığı (girov tələbi və s.);
- Dövlət qurumları tərəfindən qanunların icrasında anlaşılmazlıq və süründürməçilik;
- Bürokratik əngəllər;
- Tikintiyə icazə ilə bağlı qurumların çoxluğu, şərtlərin ağırlığı və qeyri-qanuni tələblər;
- Kommunal xidmətlərə qoşulma xərclərinin çoxluğu və şərtlərin ağırlığı;
- Mülkiyyətin dövlət qeydiyyatına alınmasında əngəllər.

## Sahələr üzrə təsnifat

- Daxil olmuş müraciətləri sahələr üzrə təsnifləşdirsək, görərik ki, müraciətlər, əsasən, maliyyə, daşınmaz əmlak, gömrük, infrastruktur (yol və suvarma), istehsal, kadr məsələləri, kommunal xidmətlər, logistika, maliyyə, marketinq, rəsmiləşdirmə və sığorta ilə bağlı sahələri əhatə etmişdir. Təhlil göstərir ki, maliyyə (551 müraciət – 35,83%), rəsmiləşdirmə (239 müraciət – 15,54%) və sosial (236 müraciət – 15,34%) məsələlərlə bağlı müraciətlər çoxluq təşkil edib.



# 03. KOB-ların yaranması və onların inkişafına dəstək: UĞUR HEKAYƏLƏRİ

## Özünüməşğulluq proqramı çərçivəsində əməkdaşlıq

Özünüməşğulluq proqramı çərçivəsində həyata keçirilməsi nəzərdə tutulan layihədən yararlanacaq sahibkarlıq subyektlərinin müvafiq inzibati ərazi vahidləri üzrə ilkin olaraq “KOB Dostu” şəbəkəsi vasitəsilə seçilərək birgə reallaşdırılmasına, habelə həmin ərazilər üzrə iş axtaran və işsiz şəxslərin özünüməşğulluğa cəlb edilməsi istiqamətində birgə tədbirlərin keçirilməsinə dəstək məqsədilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında birgə əməkdaşlıq layihəsi həyata keçirilir. Ümumilikdə “KOB Dostu” şəbəkəsinin birgə dəstəyi ilə özünüməşğulluq proqramında 256 nəfər iştirak etmişdir. Burada namizədlərin seçilməsi, 3 istiqamət üzrə təlimlərin keçirilməsi (heyvandarlıq, istehsal və xidmət), imtahanların təşkili və uğurlu namizədlərə aktivlərin verilməsi mərhələlərində iştirak etmiş namizədləri qeyd etmək olar. Keçirilən təlimlərdə “KOB Dostu” şəbəkəsi tərəfindən Agentliyin fəaliyyəti, dövlət dəstək mexanizmləri, sahibkar kimi fəaliyyətə başlamaq üçün tələb olunan prosedurlar barədə məlumatlar verilib. Verilən aktivlər, əsasən, xırda və iribuynuzlu mal-qara, həmçinin arıçılıq, avtoyuma, çilingər, plastik qapı-pəncərə, tikiş, şirniyyat və inkubator avadanlığını əhatə edib.



## Kəmər boyu ərazilərdə icmalara dəstək

Eyni zamanda, Bakı-Tbilisi-Ceyhan (BTC) və Cənubi Qafqaz Boru Kəməri (CQBK) marşrutu boyunca yerləşən inzibati ərazi vahidləri üzrə sahibkarlıq fəaliyyətinə maraq göstərən icmaların və fəaliyyətdə olan sahibkarlıq subyektlərinin inkişafına “KOB Dostu” şəbəkəsi vasitəsilə dəstək göstərilməsi məqsədilə KOBİA ilə BP arasında birgə əməkdaşlıq layihəsinin həyata keçirilməsi üzrə artıq danışıqlara başlanıb, sahələr

müəyyən edilib və biznesini inkişaf etdirmək istəyən sahibkarların ehtiyacları üzrə sorğular keçirilib. Layihənin benefisiarı olacaq yerli sakinlərdən ibarət icmaların formalaşdırılması istiqamətində Yevlax şəhər, Ağdaş və Şəmkir rayonları üzrə KOB dostları tərəfindən işlər davam etdirilir. Şəmkir üzrə 2, Yevlax üzrə 4, Ağdaş üzrə 4 olmaqla ümumilikdə 10 icmanın formalaşdırılması gözlənilir. Verilməsi nəzərdə tutulan avadanlıqlar, əsasən, kənd təsərrüfatı və istehsal sahələrini əhatə edəcək.

### Regionlarda təlimlərin keçirilməsinə dəstək

Yevlax və Gəncə “KOB Dostu” şəbəkələri tərəfindən müvafiq sorğu əsasında 30 sahibkarlıq subyekti seçilərək siyahı Ekvita şirkətinə təqdim edilib və 3 istiqamət üzrə (Əməyin təhlükəsizliyi, Keyfiyyətin qiymətləndirilməsi və Maliyyənin idarə edilməsi) sahibkarların təsərrüfatında təlimlər təşkil edilərək yekunlaşıb. Hal-hazırda “Satış və marketinq” və “KOB-larda Biznesin inkişafı” mövzusunda beynəlxalq və yerli ekspertlərin iştirakı ilə təlimlər davam etdirilir. Təlimlər hər bir sahibkar üçün onun fəaliyyət istiqaməti və biznesinin cari vəziyyəti təhlil olunaraq fərdi qaydada keçirilir. Təlimlərin sonunda verilmiş tövsiyyələrin icrası nəzərə alınaraq müvafiq sertifikatların verilməsi nəzərdə tutulur.





## Sosial bağlar layihəsi çərçivəsində əməkdaşlıq

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin iştirakı ilə aztəminatlı ailələr üçün intensiv meyvə bağlarının, tərəvəz və bostançılıq təsərrüfatlarının yaradılmasına dəstək çərçivəsində Qusar, Quba, Xaçmaz, Siyəzən-Şabran, Şamaxı və Qəbələ "KOB Dostu" şəbəkəsi vasitəsilə 25 ailə təsərrüfatı proqrama cəlb edilmişdir. Proqrama cəlb edilmiş şəxslərin torpaq sahələrində işlər aparılıb, əkin üçün çalalar qazılıb, torpaq sahəsi məftillə bağlanılıb, badam, qoz, fındıq, gilas, alma, armud tingləri əkilib. Bütün mərhələlər "KOB Dostu" şəbəkəsi vasitəsilə həyata keçirilib. Qeyd edək ki, növbəti ildə bu proqramda iştirak etmək üçün "KOB Dostu" şəbəkəsi tərəfindən aztəminatlı ailələr arasında seçimlər davam etdirilir, uyğun namizədlərin siyahıları "Regional İnkişaf" İctimai Birliyinin regional mərkəzlərinə təqdim edilir.

## "İMPLPROJECT" təşkilatı ilə birgə layihə

Qəbələ-Oğuz "KOB Dostu"-nun təşəbbüsü ilə, Amerikanın "İMPLPROJECT" təşkilatının dəstəyi ilə, KOBİA-nın Qəbələ-Oğuz, Masallı, Quba, Qusar, Siyəzən-Şabran "KOB dostu" könüllülərinin sosial-iqtisadi sorğulara cəlb olunmaqla maddi və praktik bacarıqlarının

artırılması məqsədilə 10 nəfər könüllü bu proqrama cəlb olunub və könüllülər tərəfindən Quba-Xaçmaz, Şəki-Zaqatala, Lənkəran iqtisadi rayonlarında elektron sorğular keçirilib. Könüllülərin hər birinə 10 günlük sorğuları keçirilməsi müqabilində 600 ABŞ dolları qonorar verilib.

### "Genderə həssas: dayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsində vətəndaş cəmiyyətinin rolunun artırılması" layihəsi çərçivəsində əməkdaşlıq

KOBİA-nın Qəbələ-Oğuz nümayəndəsinin təşəbbüsü ilə "Sosial Tərəqqi" İctimai Birliyinin Avropa İttifaqının maliyyələşdirdiyi və BMT-nin İnkişaf Proqramının qismən maliyyələşdirdiyi və icra etdiyi "Genderə həssas: dayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsində vətəndaş cəmiyyətinin rolunun artırılması" layihəsi çərçivəsində, Füzuli rayonunda yerləşən məcburi köçkün qəsəbələrində "Qadınlara gender əsaslı iqtisadi dəstək" layihəsini icra edir. Bu layihə ümumilikdə iki komponentdən ibarət olaraq, gender və biznes inkişafı mövzularına dair təlimlərin keçirilməsi (Komponent I), daha sonra biznes planların yazılması/təsdiqlənməsi və Məhdud Məsuliyyətli Cəmiyyətin yaradılması (Komponent II) kimi fəaliyyətləri əhatə edir. Layihənin birinci komponenti artıq başa çatmış və bu proses zamanı Füzuli "KOB Dostu" ilə birlikdə mütəşəkkil iş aparılmışdır. Layihənin ikinci komponentinin ilk addımı, layihə benefisiarlarının təqdim etdiyi biznes planların seçilməsi fəaliyyətidir və bu məqsədlə seçki komissiyası formalaşıb. Komissiyanın tərkibinə BMT İnkişaf Proqramından 2 nəfər, "Sosial Tərəqqi" İB-dən 2 nəfər nümayəndə KOBİA-nın Füzuli və Qəbələ-Oğuz KOB dostları salınıb. Komissiyaya təqdim olunan biznes planlar təsdiq olunub. Füzuli rayonundan müraciət edən qadın icmalarının təsisçiliyi ilə 5 MMC yaradılaraq, bu MMC-lərin hər birinə 5000 avro dəyərində fəaliyyətinə uyğun olaraq avadanlıqlarla təchiz olunması mərhələsi icra olunmaqdadır.







## KOBİA Şəmkirdə istixana təsərrüfatının yaradılmasına dəstək göstərib

KOBİA dəstəyi ilə Şəmkir rayonunun Sarıtəpə kəndində istixana təsərrüfatı fəaliyyətə başlayıb. “Azaqro” MMC-yə məxsus istixananın fəaliyyətinin genişləndirilməsi üçün KOBİA tərəfindən konsaltinq və hüquqi məsləhət xidmətləri, aidiyyəti dövlət qurumları ilə əlaqələndirmə, dövlət dəstəyi mexanizmləri haqqında məlumatlandırma və onlara çıxış kimi istiqamətlərdə dəstək göstərilib. Layihə investisiya təşviqi sənədi əsasında reallaşdırılıb. Layihəyə 2,3 milyon manat həcmində investisiya yatırılıb. Hollandiyanın “Çerthon” şirkətinin layihəsi üzrə yaradılmış istixanada innovativ texnologiyalar əsasında 1 hektar sahədə gül yetişdirilir. Təsərrüfatın illik istehsal gücü 1,5-2 milyon ədəd gül təşkil edir. İstixana təsərrüfatı qeyri-neft ixracının artmasına, regionda məşğulluğun təmin edilməsinə də öz müsbət töhfəsini verəcək. Burada yetişdirilmiş güllər daxili və xarici bazarda (Gürcüstan, Rusiya) satılacaq. İstixana təsərrüfatında 30 nəfər yerli sakin işlə təmin edilib.

## KOBİA-nın dəstəyi ilə Abşeronda kombi istehsalı zavodu fəaliyyətə başlayıb

Avqustun 21-də Abşeron rayonu ərazisində dövlət dəstəyi, yerli və Çin investisiyası əsasında kombi istehsalı zavodu fəaliyyətə başlayıb.

“Elektrogas” MMC-yə məxsus Azərbaycan-Çin müştərək müəssisəsi olan zavodun illik istehsal gücü 120 min ədəd kombi təşkil edir. Hazırda zavodda 30 nəfər işlə təmin olunub. Gələcəkdə isə zavodda 200-ə yaxın yeni iş yerinin yaradılması nəzərdə tutulur. Zavodun yaradılmasına 2 mln. manat investisiya qoyulub ki, bunun da yarısı xarici sərmayələrdir.

Gələcəkdə zavoda yatırılacaq sərmayələrin həcmi 11 milyon manata çatdırılacaq. Bu da zavodun istehsal profilinin daha da genişləndirilməsinə imkan verəcək. Zavodun məhsulları daxili tələbatın ödənilməsinə yönəldilməklə yanaşı, həm də gələcəkdə “Made in Azerbaijan” brendi ilə xarici ölkələrə ixrac ediləcək.

KOBİA tərəfindən kombi zavodunun yaradılması üçün hərtərəfli dəstək, o cümlədən yerli və xarici investorlarla görüşlər keçirilib, xarici investorlara Azərbaycanın biznes mühiti və dövlət dəstəyi mexanizmləri haqqında ətraflı məlumat verilib, konsaltinq və hüquqi məsləhət xidmətləri göstərilib.



## Cocuq Mərcanlıda bal emalatxanası və satış məntəqəsi açılıb




Azərbaycan Respublikası Prezidentinin yeni həyat bəxş etdiyi Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin sifarişi ilə hazırlanmış bal emalı üzrə mobil emalatxana istifadəyə verilib. Burada Cocuq Mərcanlı kəndində fəaliyyət göstərən arıçılıq təsərrüfatlarında istehsal olunan balın emalı və qablaşdırılması həyata keçiriləcək. Mobil bal emalatxanasından Cocuq Mərcanlı ilə yanaşı, ətraf kəndlərin sakinləri də istifadə edə biləcək.

## KOBİA daha bir biznes layihəsinin reallaşdırılmasına dəstək göstərdi

Oktyabrın 18-də Bakıda KOBİA dəstəyi ilə “Churros” ictimai iaşə obyekti fəaliyyətə başlayıb.

“Fəvvarələr meydanı”nda yerləşən “Churros”da İspaniya şirniyyatı olan “churros”un hazırlanması və satışı həyata keçirilir. Eyni zamanda, burada müxtəlif çeşiddə çaylar, kofe növləri, kokteyllər və digər sərinləşdirici içkilər hazırlanaraq satılır. Hazırda “Churros”da 5 nəfər işlə təmin edilib.

KOBİA tərəfindən “Churros” ictimai iaşə obyektinin yaradılmasına konsaltinq və hüquqi məsləhət xidmətləri, aidiyyəti dövlət qurumları ilə əlaqələndirmə və s. kimi istiqamətlərdə dəstək göstərilib.

“Churros” şəbəkəsinin genişləndirilməsi və Bakının digər ərazilərində də yaradılması nəzərdə tutulur.



# BİZNES MÜHİTİ VƏ DƏSTƏK MEXANİZMLƏRİ



01 Biznes mühit indikatorları

02 KOBİA tərəfindən keçirilmiş sorğular

03 Kiçik və orta bisnesin tənzimlənməsi

04 Daxili bazar araşdırmalarına dövlət dəstəyi

05 Sərgilər

06 Maarifləndirici tədbirlər

07 Onlayn təlimlər

08 Qadın sahibkarlığının inkişafı




# 01. BİZNES MÜHİT İNDİKATORLARI

**Dünya Bankının “Doing Business” hesabatı**

| 2018: 57 | | 2019: 25 |
|---|---|---|
| 18 | BİZNESƏ BAŞLAMA | 9 |
| 161 | TİKİNTİ ÜÇÜN İCAZƏLƏRİN ALINMASI | 61 |
| 102 | ELEKTRİK TƏCHİZATI ŞƏBƏKƏLƏRİNƏ QOŞULMA | 74 |
| 21 | ƏMLAKIN QEYDİYYATI | 17 |
| 122 | KREDİTLƏRİN ALINMASI | 22 |
| 10 | KİÇİK İNVESTORLARIN MARAQLARININ QORUNMASI | 2 |
| 35 | VERGİLƏRİN ÖDƏNİLMƏSİ | 28 |
| 83 | XARİCİ TİCARƏTİN APARILMASI | 84 |
| 38 | MÜQAVİLƏLƏRİN İCRASININ TƏMİN EDİLMƏSİ | 40 |
| 47 | MÜFLİSLƏŞMƏNİN HƏLLİ | 45 |

«DOING BUSINESS» 2019: ƏN İSLAHATÇI 10 ÖLKƏDƏN BİRİ

THE WORLD BANK

«DOING BUSINESS» 2020: ƏN İSLAHATÇI 20 ÖLKƏDƏN BİRİ

# 02. KOBİA TƏRƏFİNDƏN KEÇİRİLMİŞ SORĞULAR

| Sorğunun mövzusu | Əhatə dairəsi və tarixi | Respondentlərin sayı |
|---|---|---|
| Elektrik şəbəkəsinə qoşulma sahəsində aparılmış islahatlara dair | Bakı şəhəri və regionlar, sentyabr-noyabr, 2019 | 421 mikro, kiçik və orta sahibkarlıq subyekti |
| Məhkəmə sistemi üzrə aparılmış islahatlarla dair | Bakı şəhəri və regionlar, sentyabr-noyabr, 2019 | 500 mikro, kiçik və orta sahibkarlıq subyekti |
| Təsərrüfat cəmiyyətlərində korporativ idarəetmənin qiymətləndirilməsi üzrə | Bakı, Sumqayıt və Gəncə şəhərləri, sentyabr-oktyabr 2019 | 200 kiçik və orta sahibkarlıq subyekti |
| Sahibkarlıq subyektlərinin təlim və ixtisaslı kadr ehtiyaclarının öyrənilməsi üzrə | Bakı şəhəri və 8 iqtisadi rayon, sentyabr-noyabr, 2019 | 1002 mikro, kiçik və orta sahibkarlıq subyektləri |
| Sahibkarlıq subyektlərinin biznes mühitindən məmnunluq səviyyəsinin ölçülməsi üzrə | Bakı şəhəri və 8 iqtisadi rayon, sentyabr-noyabr, 2019 | 1002 mikro, kiçik və orta sahibkarlıq subyekti |
| Xarici ticarətdə (idxal və ixrac) maliyyə alətlərindən istifadə səviyyəsinin öyrənilməsinə dair | Bakı şəhəri və 8 iqtisadi rayon, sentyabr-noyabr, 2019 | 1002 mikro, kiçik və orta sahibkarlıq subyekti |
| Tikintiyə icazələrin verilməsi icraatı ilə bağlı sahibkarlıq subyektlərinin məlumatlılıq və məmnunluq səviyyəsinin və yeni elektron sistemin tətbiqi nəticələrinin ölçülməsi üzrə | Bakı şəhəri və regionlarda fəaliyyət göstərən tikinti şirkətləri, sentyabr-noyabr, 2019 | 450 mikro, kiçik və orta sahibkarlıq subyekti |
| Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılmasının sahibkarlar tərəfindən necə qarşılandığı və onların rəqabət qabiliyyətinin artmasına təsiri barədə | Bakı şəhəri və regionlar, dekabr 2019-cu il | 450 mikro, kiçik və orta sahibkarlıq subyekti |
| Yeni rəqəmsal qeydiyyat sisteminin sahibkar məmnunluğuna təsiri | Bakı şəhəri və regionlar, dekabr 2019-cu il | 500 mikro, kiçik və orta sahibkarlıq subyekti |

# 03. KİÇİK VƏ ORTA BİZNESİN TƏNZİMLƏNMƏSİ

Sahibkarlıq sahəsində yeni qanunvericiliyin, normativ hüquqi aktların hazırlanması, mövcud olan normativ aktların müasir dövrün tələblərinə uyğun yenilənməsi istiqamətində Agentlik öz səlahiyyətləri çərçivəsində fəaliyyətini həyata keçirir. “Kiçik və orta sahibkarlığın inkişafı haqqında” qanun layihəsi hazırlanıb 2018-ci il noyabrın 20-də Azərbaycan Respublikasının Milli Məclisində ictimai müzakirəyə çıxarılıb. Ölkədə sahibkarlığın inkişafı istiqamətində müəyyən olunan strateji xəttin əsas elementləri sözügedən qanun layihəsində öz əksini tapıb.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 fevral tarixli Fərmanında mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarlarının hazırlanması ilə bağlı tapşırığa uyğun olaraq, beynəlxalq təcrübə araşdırılıb, ölkədə sahibkarlığın inkişafına müsbət təsir göstərəcək meyarlar analiz edilib və “Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı layihəsi hazırlanaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 21 dekabr tarixli Qərarı ilə təsdiq edilib.

Qərar layihəsinə uyğun olaraq, sahibkarlıq subyektlərinin mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid edilməsi meyarları onların işçilərinin siyahı sayı və illik gəliri əsasında müəyyən olunur.

> “Kiçik və orta sahibkarlığın inkişafı haqqında” qanun layihəsi 2018-ci il noyabrın 20-də Milli Məclisdə müzakirəyə çıxarılıb.

# Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü
# MEYARLARI

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 21 dekabr tarixli 556 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

| **Sahibkarlıq subyektlərinin ölçüsünə görə kateqoriyaları** | **İşçilərinin orta siyahı sayı** *(nəfər)* | **İllik gəliri (ig)** *(min manat)* |
|---|---|---|
| Mikro sahibkar | 1 – 10 | ig ≤ 200 |
| Kiçik sahibkar | 11 – 50 | 200 < ig ≤ 3 000 |
| Orta sahibkar | 51 – 250 | 3 000 < ig ≤ 30 000 |
| İri sahibkar | 251 və ondan yuxarı | 30 000 < ig |

## Qeydlər:

1. İllik gəlirə hesabat ili ərzində təqdim edilmiş malların, görülmüş işlərin və göstərilmiş xidmətlərin dəyəri, həmçinin satışdankənar gəlirlər aid edilir.

2. Sahibkarların mikro, kiçik, orta və ya iri sahibkar kimi müəyyənləşdirilməsi üçün "işçilərin orta siyahı sayı" və "illik gəlir" meyar göstəricilərindən daha yüksək olanı əsas götürülür.

3. Yeni yaradılan sahibkarlıq subyektlərinin mikro, kiçik, orta və ya iri sahibkarlar kimi müəyyənləşdirilməsində onların dövlət qeydiyyatına və ya vergi uçotuna alındığı tarixdən 1 (bir) il müddətində müəyyən edilmiş işçilərin say göstəricisi əsas götürülür.

4. Sahibkarların mikro, kiçik, orta və ya iri sahibkarlara aid edilməsi Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə ötürülən həmin sahibkarlıq subyektləri haqqında məlumatlar əsasında müəyyənləşdirilir və il ərzində dəyişməz qalır.



Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 sentyabr tarixli 497 nömrəli "Qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamı ilə verilmiş tapşırıqlara uyğun olaraq, beynəlxalq təcrübə əsasında müvafiq sənəd layihələri hazırlanıb və onların razılaşdırılması məqsədilə işlər həyata keçirilməkdədir. Belə ki, mikro və kiçik sahibkarlıq subyektlərinin istehsal etdikləri məhsulların ticarət şəbəkələrində satışının genişləndirilməsi məqsədilə "Mikro və kiçik sahibkarlıq subyektlərinin istehsal etdikləri məhsulların ticarət şəbəkələrində satışının genişləndirilməsi sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı layihəsi hazırlanıb. Sözügedən Fərman layihəsində bu sahədə təkmilləşdirmənin aparılması, əməkdaşlıq platformasının qurulması, sahibkarların məlumatlandırılması, onların maarifləndirilməsinin təşkili, müxtəlif sahəli tədbirlərin həyata keçirilməsi və s. ilə bağlı Agentliyə tapşırıqlar nəzərdə tutulur.

"Qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamdan irəli gələn digər tapşırığa uyğun olaraq, mikro, kiçik və orta sahibkarlıq subyektlərində insan kapitalının keyfiyyətinin yüksəldilməsi, təlimlər vasitəsilə işçilərin bilik və bacarıqlarının inkişaf etdirilməsində fasiləsizliyin təmin edilməsi, ixtisaslı kadr hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması, KOB subyektlərinin kadr potensialının artırılması sahəsinə investisiya qoyuluşunun stimullaşdırılması, mövcud insan kapitalından səmərəli istifadə edilməsi, bu sahədə çevik və effektiv idarəetmənin təmin edilməsi məqsədilə "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin kadr potensialının artırılmasının təmin edilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı layihəsi hazırlanıb. Sözügedən Fərman layihəsinə uyğun olaraq, KOB subyektlərinin kadr potensialının artırılmasına dövlət dəstəyinin səmərəli təşkili üçün "KOB kadr bankı"nın yaradılması nəzərdə tutulub.

2018-ci il 19 sentyabr tarixli 497 nömrəli Sərəncamdan irəli gələn növbəti tapşırığa uyğun olaraq, "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin klasterləri haqqında Nümunəvi Əsasnamə"-nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı layihəsi hazırlanıb. Sərəncamla əsasnamənin təsdiq edilməsi nəzərdə tutulur. Əsasnamədə KOB klasterlərin yaradılmasının əsas məqsədi ölkədə rəqabətqabiliyyətli məhsulların və xidmətlərin istehsalının təşviqi, bu sahədə KOB üçün münbit şəraitin yaradılması və sahibkarlığın inkişafının dəstəklənməsi, iqtisadiyyatın, o cümlədən qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, ölkənin yerli və xarici investisiyalar üçün əlverişliliyinin artırılması, əməkqabiliyyətli əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır.

Qeyd olunan istiqamətdə növbəti addım kimi 2018-ci il noyabrın 30-da 1356-VQD nömrəsi ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu"-na əsasən, "KOB klaster şirkəti", "KOB klasterinin iştirakçısı", "startap" anlayışları müəyyən edilib və Vergi Məcəlləsində bu istiqamətdə güzəştlərin tətbiq edilməsi məsələləri əks olunub.

Azərbaycan Respublikası Vergilər Nazirliyi Kollegiyasının Qərarı ilə "KOB klaster şirkəti"nin meyarları" təsdiq edilib. "KOB klaster

şirkəti” kimi müəyyən edilmiş vergiödəyiciləri Azərbaycan Respublikasının Vergi Məcəlləsinə, əsasən, müxtəlif istiqamətli güzəştlər tətbiq olunaraq müvafiq vergi ödəmələrindən azad olunurlar.

Eyni zamanda, Agentlik tərəfindən “KOB klaster şirkətinin şəhadətnaməsi”nin və “KOB klaster iştirakçısı şəhadətnaməsi”nin, “KOB klaster şirkəti tərəfindən idxalın həyata keçirilməsi barədə təsdiqedici sənəd”in, “Startap şəhadətnaməsi”nin nümunəvi formaları, habelə müvafiq ərizə nümunələri hazırlanıb (fiziki və hüquqi şəxslər üçün) və İqtisadiyyat Nazirliyi Kollegiyasının 2019-cu il 08 oktyabr tarixli qərarı ilə təsdiq olunub.

Azərbaycan Respublikası Prezidentinin “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” 2019-cu il 03 aprel tarixli 604 nömrəli Fərmanının 11-ci bəndinə uyğun olaraq, beynəlxalq arbitraj prosedurları ilə bağlı xarici dövlətlərin təcrübəsi, beynəlxalq arbitraj institutlarının təcrübəsi, sənədləri, habelə milli qanunvericilik təhlil edilib və beynəlxalq arbitraj prosedurlarının ölkəmizdə təşviqi ilə bağlı müvafiq təkliflər hazırlanaraq, AR Ədliyyə Nazirliyi və Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası ilə razılaşdırılmaqla Azərbaycan Respublikasının Prezidentinə təqdim olunub.

Ölkədə fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarlıq subyektlərinin dövlət satınalmalarında iştirakı üçün əlverişli şəraitin yaradılması məqsədilə Agentlik tərəfindən hazırlanmış təkliflər “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1433-VQD nömrəli Qanununda nəzərə alınmışdır. Belə ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən, satınalma predmetinin ehtimal olunan qiyməti 3 milyon ABŞ dolları ekvivalentində və ya ondan aşağı olan malların (işlərin, xidmətlərin) dövlət satınalmaları yalnız mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iştirakı ilə, açıq tender üsulunu tətbiq etməklə elektron satınalma vasitəsilə keçirilir.

Azərbaycan Respublikası Prezidentinin 15 may 2019-cu il tarixli Fərmanı ilə sözügedən vahid G2B (dövlət-biznes) elektron reyestrinin təşkil edilməsi tapşırığı müəyyən edilmişdir. Dövlət orqanları və qurumlarının mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərdikləri xidmətlərin və verdikləri hüquqmüəyyənedici sənədlərin sözügedən reyestr vasitəsilə göstərilməsi bütövlükdə həmin xidmətlərin yüksək səviyyədə, sahibkar məmnunluğu, operativlik, şəffaflıq və rahatlıq prinsiplərinə uyğun formada təşkil edilməsinə imkan yaradacaqdır. Hazırda bu reyestrin yaradılması yekunlaşmaq üzrədir.

Qeyd olunanlarla yanaşı, mikro, kiçik və orta sahibkarlıq inkişafı, onların təşviqi, dəstəyi istiqamətində normativ aktların hazırlanması, mövcud olan normativ aktların müasir dövrün tələblərinə uyğun yenilənməsi istiqamətində Agentlik öz səlahiyyətləri çərçivəsində mütəmadi işlər görür və Agentliyə daxil olan normativ hüquqi aktların layihəsinin təhlili və hüquqi ekspertizası da mütəmadi olaraq həyata keçirilir.






# 04. DAXİLİ BAZAR ARAŞDIRMALARINA DÖVLƏT DƏSTƏYİ

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 may tarixli 713 nömrəli Fərmanı ilə "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətli istehsalının stimullaşdırılması məqsədilə daxili bazar araşdırmalarına dövlət dəstəyi göstərilməsi Qaydası" təsdiq olunub.

Sözügedən Qayda ilə müəyyən edilmiş dövlət dəstəyinin əsas məqsədi mikro, kiçik və orta sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətli istehsalının stimullaşdırılması üçün, onlara daxili bazarın mövcud vəziyyətinin öyrənilməsində maliyyə və informasiya dəstəyinin göstərilməsinə, özəl sektorda məhsul istehsalının artırılmasına, rəqabətqabiliyyətli məhsullar istehsal edən yeni müəssisə və obyektlərin yaradılmasına nail olmaqdır. Hazırda Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən daxili bazar araşdırmalarına dövlət dəstəyinin göstərilməsi üçün mikro, kiçik və orta sahibkarlıq subyektlərindən müraciətlər qəbul edilməkdədir. Daxil olmuş müraciətlərə əsasən, müvafiq bazar araşdırmalarının KOBİA-nın sifarişi ilə ixtisaslaşmış yerli və xarici hüquqi və fiziki şəxslər, habelə konsaltinq şirkətləri tərəfindən hazırlanması nəzərdə tutulur. Daxili bazar araşdırmasına dövlət dəstəyi haqqında yerli və xarici hüquqi və fiziki şəxslərin məlumatlandırılması məqsədilə Agentlik tərəfindən müxtəlif istiqamətli tədbirlər həyata









keçirilib. Belə ki, qısametrajlı təşviq videoroliklər hazırlanıb, bu barədə televiziya və radio verilişlərində məlumatlandırma işləri aparılıb, o cümlədən sahibkarların, konsaltinq şirkətlərin, assosiasiyaların və maraqlı tərəflərin iştirakı ilə tədbirlər təşkil edilib, onlayn qaydada maarifləndirmə keçirilib.

Daxili bazar araşdırmalarına dövlət dəstəyi ilə bağlı yerli və xarici hüquqi və fiziki şəxslərin, o cümlədən konsaltinq şirkətlərinin məlumatlandırılması üçün 2019-cu il avqustun 28-də, mikro, kiçik və orta sahibkarları, o cümlədən assosiasiyaları, məlumatlandırılması üçün isə 2019-cu il sentyabrın 4-də KOBİA-da keçirilmiş tədbirlərdə qeyd edilib ki, mikro, kiçik və orta sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətli istehsalının stimullaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 may tarixli Fərmanı ilə təsdiq edilmiş Qaydaların icrasının təmin edilməsi ilə bağlı təşkilati işlər yekunlaşdırılıb və Agentlik tərəfindən sahibkarlardan müraciətlərin qəbuluna başlanılıb. Diqqətə çatdırılıb ki, daxili bazar araşdırmaları KOB subyektlərinin fəaliyyətinin genişləndirilməsi, eləcə də yeni məhsulun və ya xidmətin yaradılması və inkişaf etdirilməsi sahəsində daxili bazarın mövcud vəziyyətinin müəyyən edilməsi istiqamətində həyata keçirilən fəaliyyətdir. Daxili bazar araşdırmalarının hazırlanması üçün yerli və xarici hüquqi və fiziki şəxslər (fərdi sahibkarlar), o cümlədən universitetlər, institutlar, xüsusi araşdırma və təhlil mərkəzləri, məsləhətçi şirkətlər cəlb ediləcək. Mikro sahibkarlıq subyektinin müraciəti əsasında aparılan hər bir daxili bazar araşdırmasına çəkilən xərcin 80 faizi, kiçik sahibkarlıq subyektinin müraciəti ilə aparılan daxili bazar araşdırmasına çəkilən xərcin isə 50 faizi dövlət tərəfindən qarşılanacaq. Ümumilikdə isə hər bir daxili bazar araşdırmasının aparılmasına görə ödəniləcək dəstək məbləği 20.000 manata qədər olacaq.






# 05. SƏRGİLƏR

**KOBİA yarandığı tarixdən bu günədək bir sıra sərgilərdə öz stendi ilə çıxış edib, habelə müxtəlif sərgilərin keçirilməsinə öz dəstəyini göstərib.**

## 4-7 dekabr 2018

Belə sərgilərdən biri 2018-ci il dekabrın 4-7-də keçirilmiş “Bakutel-2018” XXIV Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisi olub. Sərgidə Agentlik tərəfindən kiçik və orta sahibkarların hüquqlarının qorunması ilə bağlı müraciətlərə onlayn baxılması sistemi nümayiş etdirilib. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin dəstəyi ilə yaradılan “Sahibkarlara Dəstək Sistemi” sahibkarların hüquqları ilə bağlı müraciətlərə baxılması və onların operativ həlli üçün onlayn platformadır. Məqsəd sahibkarların hüquqlarının müdafiəsinin mükəmməl mexanizmlərinin tətbiqində səmərəliliyin yüksəldilməsi və çevikliyin artırılmasından ibarətdir. Sərgidə 30-a yaxın KOB-un iştirakına dəstək göstərilib.







01 "Bakutel-2018" XXIV Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgisi. 4-7 dekabr 2018-ci il

02 XVIII Azərbaycan Beynəlxalq "Turizm və səyahətlər" ("AITF-2019") sərgisi. 4-6 aprel 2019-cu il.

03 XXV Azərbaycan Beynəlxalq Qida Sənayesi sərgisi. 15 may 2019-cu il.

## 4-6 aprel 2019

2019-cu il aprelin 4-6-da Bakı Ekspo Mərkəzində Agentliyin XVIII Azərbaycan Beynəlxalq "Turizm və səyahətlər" ("AITF-2019") sərgisi keçirilib. "Bütün dünya. Bir sərgi" şüarı altında keçirilən "AITF-2019" sərgisinə KOBİA tərəfindən də dəstək göstərilib. Agentliyin İdarə Heyətinin sədri Orxan Məmmədov sərginin açılış mərasimində çıxış edərək ölkəmizdə turizm sektoruna dövlət səviyyəsində böyük diqqət göstərildiyini, Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi altında əldə olunmuş sosial-iqtisadi tərəqqinin bu sahənin hərtərəfli inkişafına yeni imkanlar açdığını vurğulayıb. Orxan Məmmədov qeyd edib ki, son illər ölkəmizin turizm potensialının beynəlxalq aləmdə təbliği, turistlərin Azərbaycana cəlb olunması, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, müasir turizm infrastrukturunun yaradılması və viza rejiminin sadələşdirilməsi sahəsində məqsədyönlü işlər görülüb. Turizm sahəsində sahibkarlığın inkişafının KOBİA-nın fəaliyyət istiqamətlərindən olduğunu diqqətə çatdıran Agentlik sədri biznes subyektləri üçün nəzərdə tutulan dəstək mexanizmləri çərçivəsində turizm sektorunun iştirakçılarının bu sahəyə geniş cəlb edilməsinin, turizm klasterləşməsinin təşviqinin Agentliyin prioritet hədəflərindən olduğunu bildirib. O.Məmmədov birgə səylər nəticəsində turizm fəaliyyəti üzrə kiçik və orta sahibkarların aktivliyinin artacağını, turizmin qeyri-neft sektorunda aparıcı sahələrdən birinə çevriləcəyini qeyd edib.

## 15 may 2019

Agentliyin təşkilatçılığı və "Ziraat Bank Azərbaycan"ın dəstəyi ilə 2019-cu il mayın 15-də Bakı Ekspo Mərkəzində XXV Azərbaycan Beynəlxalq Qida Sənayesi sərgisi keçirilib. Sərgidə qida sənayesi sahəsində fəaliyyət göstərən startaplar, mikro və kiçik sahibkarlar üçün öz məhsullarını və xidmətlərini təqdim etmələri üçün xüsusi stend ayrılıb. Sərgidə iştirak edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin stendi ilə də tanış olub.













## 21-23 iyun 2019

2019-cu il iyunun 21-23-də Dənizkənarı Milli Parkda "Organic Food Festival 2019" keçirilib. Azərbaycanda ilk dəfə olaraq keçirilən və "Made in Azerbaijan" brendini təşviq etmək, ölkəmizdə yerli və xarici ekoloji təmiz qida məhsulları istehsalçılarını tanıtmaq məqsədilə təşkil olunmuş festivala 3 gün ərzində 10.000 nəfərdən çox ziyarətçi qatılıb. KOBİA-nın dəstəyi ilə mikro və kiçik sahibkarlar festivalda onlar üçün ayrılmış xüsusi stenddə ekoloji təmiz qida məhsullarını: bal, bitki çayları, meyvə şirələri, müxtəlif bitki yağları, ev üsulu ilə hazırlanmış şirniyyatlar, ədviyyat, düyü, meyvə quruları və s. məhsulları, eləcə də orqanik qablaşdırma materiallarını, sosial sahibkarlıq layihələrini təqdim ediblər.

## 16 avqust 2019

2019-cu il avqustun 16-da keçirilmiş Milli Yaylaq Festivalında ağac üzərində oymaçılıqla məşğul olan Cavid Eyyubov KOBİA-nın dəstəyi ilə öz əl işlərini təqdim edib.

## 12 sentyabr 2019

2019-cu il sentyabrın 12-də "Bulvar Hotel Bakı"da təşkil olunmuş II Azərbaycan Beynəlxalq Hədiyyələr və Promo Məhsulları Sərgisinin ("Gift&Promo 2019") və II Azərbaycan Beynəlxalq Reklam və Çap İşləri ("AdPrint 2019") Sərgisinin təşkilinə də KOBİA tərəfindən dəstək göstərilib. Sərgilərdə 50-yə yaxın yerli və xarici şirkətin, mikro və kiçik qadın sahibkarların məhsulları və əl işləri, bir sıra sosial sahibkarlıq layihələri təqdim olunub. Agentliyin İdarə Heyətinin sədri Orxan Məmmədov açılış mərasimində çıxış edərək qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın şaxələnməsi baxımından belə sektoral sərgilərin əhəmiyyətini vurğulayıb, xeyli sayda mikro, kiçik və orta biznes subyektlərinin fəaliyyət göstərdiyini diqqətə çatdırıb. KOBİA mikro və kiçik sahibkarlara, xüsusilə də qadın və əlil sahibkarlara, startaplara və gənclərə dövlət dəstəyi mexanizmləri və Agentliyin təqdim etdiyi xidmətlər çərçivəsində dəstək göstərir. Məqsəd KOB-ların öz məhsul və xidmətlərini təqdim etməsinə dəstək olmaqdır. Sərgidə KOBİA-nın da stendi nümayiş etdirilib.

## 26 sentyabr 2019

2019-cu il sentyabrın 26-da Naftalanda KOBİA-nın, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin




5



6




7

01 "Organic Food Festival 2019".
21-23 iyun 2019-cu il

02 Milli Yaylaq Festivalı. Cavid Eyyubov əl işləri ilə.16 avqust 2019-cu il

03 II Azərbaycan Beynəlxalq Hədiyyələr və Promo Məhsulları sərgisi. 12 sentyabr 2019-cu il

04 Gəncə-Qazax iqtisadi rayonunda sahibkarların məhsul və xidmətlərinin yarmarkası. 26 sentyabr 2019-cu il

05 XIII Azərbaycan Beynəlxalq Təhsil və Karyera Sərgisi. 10-12 oktyabr 2019-cu il

06 "Bazarını yarat" adlı sərgi-satış yarmarkası.
18 oktyabr 2019-cu il

07 XXV Azərbaycan Beynəlxalq İnşaat sərgisi.
22-25 oktyabr 2019-cu il

(GİZ) və Naftalan Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Gəncə-Qazax iqtisadi rayonundakı mikro, kiçik və orta sahibkarların məhsul və xidmətlərinin sərgi-satış yarmarkası təşkil olunub. Yarmarkada qadın sahibkarların məhsulları və əl işləri nümayiş etdirilib. Ümumilikdə 30-dək KOB subyektinin 50-dən çox çeşiddə məhsulu sərgilənib.

## 10-12 oktyabr 2019

2019-cu il oktyabrın 10-12-də Bakı Ekspo Mərkəzində keçirilmiş XIII Azərbaycan Beynəlxalq Təhsil və Karyera Sərgisində mikro və kiçik sahibkarların iştirakına Agentlik tərəfindən dəstək göstərilib. Sərginin KOB-lar üçün ayrılmış xüsusi stendində təhsil sektorunda fəaliyyət göstərən KOB-lar öz xidmətlərini təqdim edib.

## 18 oktyabr 2019

2019-cu il oktyabrın 18-də mikro və kiçik sahibkarlıq subyektlərinin əl işləri KOBİA-nın dəstəyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin təşkilatçılığı ilə keçirilən "Bazarını yarat" adlı sərgi-satış yarmarkasında nümayiş etdirilib. Nizami Kino Mərkəzində təşkil olunmuş yarmarkanın keçirilməsində məqsəd özünüməşğulluq proqramı vasitəsilə öz təsərrüfatını qurmuş şəxslər və aztəminatlı ailələr tərəfindən hazırlanan məhsulların satışına dəstək göstərmək idi.

## 22-25 oktyabr 2019

2019-cu il oktyabrın 22-25-də KOBİA-nın dəstəyi ilə inşaat sektorunda fəaliyyət göstərən KOB-lar Bakı Ekspo Mərkəzində öz işinə başlamış XXV Azərbaycan Beynəlxalq İnşaat ("Baku Build-2019") sərgisində iştirak edib. Sərgidə KOB-lar üçün ayrılmış stenddə müxtəlif inşaat materialları, mühəndislik xidmətləri, istilik sistemləri, avtomatlaşdırılmış qapılar, ağıllı ev, təhlükəsizlik sistemləri, landşaft memarlığı və s. məhsul və xidmətlər nümayiş olunub.

1




2



3



## 6-8 noyabr 2019

Kiçik və orta biznes subyektləri öz məhsul və xidmətlərini 6-8 noyabr 2019-cu il tarixlərində Bakı İdman Sarayında öz işinə başlamış 2-ci Beynəlxalq Sənaye Sərgisində ("CASPINDEXPO 2019") nümayiş etdirib. KOBİA dəstəyi ilə sənaye sahəsində fəaliyyət göstərən KOB-lar üçün ayrılmış xüsusi stenddə bağ, ev və ofis mebelləri, alüminyum və plastik qablar, streç və folqalar, kağız və karton çantalar, istixana konstruksiyaları və aksesuarları, dəmir və taxta məmulatlar, işıq dirəkləri və s. məhsullar, eləcə də sənaye avadanlıqlarının təmiri və quraşdırılması xidməti təqdim edilib.

## 13 noyabr 2019

Kiçik və orta sahibkarlar 13 noyabr 2019-cu il tarixində Bakı Ekspo Mərkəzində öz işinə başlamış 10-cu Azərbaycan Beynəlxalq Ətraf Mühit Sərgisində ("Caspian Ecology 2019") məhsul və xidmətlərini təqdim ediblər.

KOBİA-nın təşkilatçılığı, BP və "Paşa Holdinq"in dəstəyi ilə KOB-lar üçün ayrılmış xüsusi stenddə sahibkarlar soyuq sıxma üsulu ilə hazırlanmış orqanik bitki yağları, ekoloji çantalar, təkrar emal məhsulları, alternativ enerji vasitələri, su və külək turbinləri, günəş batareyaları, ekoloji təmiz qida məhsulları, meyvə quruları, çaylar və s. məhsulları təqdim edirlər.

## 22 noyabr 2019

22 noyabr 2019-cu il tarixində Bakı Bulvar Otelində "Beynəlxalq Pərakəndə Sərgi" keçirilib. KOBİA bu dəfə də iqtisadiyyatın müxtəlif sektorlarında fəaliyyət göstərən mikro və kiçik sahibkarlıq subyektlərinin bazarlara çıxışının genişləndirilməsi üçün KOB-ların sərgidə iştirakına dəstək göstərib. Sərginin KOB-lar üçün ayrılmış xüsusi stendində "Paşa Holdinq"in dəstəyi ilə qazlı sular, bal, şirniyyat məhsulları, divar və fasad boyaları, milli kəlağayılar, İT texnologiyalar və s. nümayiş olunur. Belə sərgilərdə mikro və kiçik sahibkarlıq subyektlərinin iştirakı onların bazarlara çıxışı və satış imkanlarının genişləndirilməsi ilə yanaşı, KOB-ların məhsul və xidmətlərinin, yeni brendlərin daha geniş auditoriyaya təqdim olunması, mövcud biznes əlaqələrinin genişləndirilməsi və yeni əməkdaşlığın qurulması baxımından da faydalıdır.

21-23 noyabr tarixlərində "Beynəlxalq Pərakəndə Konqres"i çərçivəsində keçirilən Sərgidə yerli və xarici şirkətlər iştirak ediblər.

## 22-25 noyabr 2019

KOBİA dəstəyi ilə inşaat sektorunda fəaliyyət göstərən KOB-lar 22-25 noyabr 2019-cu il tarixində Bakı Ekspo Mərkəzində keçirilmiş 25-ci Azərbaycan Beynəlxalq İn-




4




5



6

01 Sənaye sahəsində fəaliyyət göstərən KOB-lar “Caspindexpo 2019” sərgisində. 6-8 noyabr 2019-cu il

02 KOB-lar Azərbaycan Beynəlxalq Ətraf Mühit sərgisində. 13 noyabr 2019-cu il

03 KOB-ların Beynəlxalq Pərakəndə Konqresində və Sərgisində iştirakına dəstək. 22 noyabr 2019-cu il

04 KOB-ların məhsul və xidmətləri “Baku Build 2019” sərgisində. 22-25 noyabr 2019-cu il

05 Beynəlxalq Əlillər Gününə həsr olunmuş satış sərgisi. 30 noyabr-1 dekabr 2019-cu il

06 “KOB Virtual Müəssisə”nin təqdimatı. 3-6 dekabr 2019-cu il

şaat (“Baku Build” 2019) Sərgisində iştirak ediblər. Sərgidə KOB-lar üçün ayrılmış xüsusi stenddə müxtəlif inşaat materialları, mühəndislik xidmətləri, istilik sistemləri, avtomatlaşdırılmış qapılar, ağıllı ev, təhlükəsizlik sistemləri, landşaft memarlığı və s. məhsul və xidmətlər nümayiş olunub.

## 30 noyabr 2019

30 noyabr – 1 dekabr tarixlərində “Park Bulvar”da KOBİA dəstəyi ilə əlilliyi olan şəxslərin əl işlərinin satış-sərgisi keçirilib.

3 dekabr – Beynəlxalq Əlillər Gününə həsr olunmuş sərginin məqsədi əlilliyi olan istedadlı şəxslərin fəaliyyətini ictimaiyyətə təqdim etmək, əl işlərinin satışına dəstək göstərmək olub. Sərgidə əlilliyi olan şəxslər tərəfindən hazırlanmış suvenirlər, ağac üzərində oymalar, xalçaçılıq, tikmə və toxuma nümunələri, rəsmlər, bəzək əşyaları və aksesuarlar və s. nümayiş edilib.

## 3-6 dekabr 2019

3-6 dekabr 2019-cu il tarixlərində Bakı Ekspo Mərkəzində keçirilən 25-ci Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar (“Bakutel”) Sərgisində KOBİA ilk dəfə olaraq “KOB Virtual Müəssisə”ni təqdim edib.

“Deloitte” şirkəti ilə birgə əməkdaşlıq çərçivəsində təqdim olunan virtual müəssisə istehsal xəttini və yeni məhsulun hazırlanması prosesini simulyasiya edir. Sərgidə həmçinin, KOBİA-nın təşkilatçılığı, “Paşa Holding”in və magistral internet provayderi “AzerTelecom” şirkətinin dəstəyilə 10 startap və kiçik sahibkarlıq subyektinin məhsul və xidmətləri ayrıca stenddə nümayiş olunur. İKT sahəsində fəaliyyət göstərən startap və sahibkarlara dəstək məqsədilə yaradılmış xüsusi stenddə tibbi müayinə üçün proqram təminatı və avadanlıqlar, ingilis dili öyrənmə proqramı, kiber təhlükəsizlik xidmətləri, səsli oyuncaq detalları, reklam, otel xidmətləri və internet saytlarının yaradılması ilə bağlı portallar, məişət tullantılarının idarə edilməsi qurğusu, kənd təsərrüfatı sahəsində onlayn aqronom və digər xidmətlər təqdim edilir.

Tədbir çərçivəsində KOBİA və “AzerTelecom” arasında kiçik və orta biznesə dəstək məqsədilə Niyyət Protokolu imzalanıb.

# 06. MAARİFLƏNDİRİCİ TƏDBİRLƏR

## KOBİA "Böyük dördlük" şirkətləri ilə əməkdaşlıq edir




**KOBİA və "Deloitte & Touche" arasında kiçik və orta biznesə dəstək çərçivəsində əməkdaşlığa dair Niyyət Protokolu imzalanıb.**

25-ci Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar ("Bakutel 2019") Sərgisi çərçivəsində imzalanmış sənədi KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və "Deloitte & Touche"ın İdarəedici partnyoru Nuran Kərimov imzalayıblar. Sənədə əsasən KOBİA və "Deloitte & Touche" startapların, mikro və kiçik biznes subyektlərinin sərgilərdə və təcrübə mübadiləsi proqramlarında iştirakı, onların potensialının artırılması, yeni biznes ideyalarının dəstəklənməsi, innovativ KOB konsepsiyalarının həyata keçirilməsi, biznes subyektlərinin maarifləndirilməsi istiqamətlərində əməkdaşlıq edəcəklər.



**KOBİA və “Ernst & Young Holdings” şirkətinin ölkəmizdəki filialı arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.**

Sənədi KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və “Ernst & Young Holdings” şirkətinin Azərbaycan Respublikasındakı filialının rəhbəri İlqar Vəliyev imzalayıblar.

Memorandum kiçik və orta biznesin inkişafının dəstəklənməsi üçün innovativ təşəbbüslərin həyata keçirilməsi, sahibkarların maarifləndirilməsi, dövlət və özəl sektor arasında praktiki əlaqələrin genişləndirilməsi, birgə layihələrin reallaşdırılması, o cümlədən “Ernst & Young Holdings”in “Wavespace” proqramının agentlikdə tətbiqi, “Entrepreneur of the Year” və “Entrepreneurial Winning Women” tədbirlərinin birgə təşkili kimi istiqamətlərdə qarşılıqlı əməkdaşlığı nəzərdə tutur. Əməkdaşlıq çərçivəsində KOB subyektlərinin biznes bacarıqlarının artırılması üçün onlara təlim, məsləhət, informasiya və digər maarifləndirici xidmətlər göstəriləcək, bu məqsədlə “Ernst & Young Holdings” şirkətinin kadr potensialından və beynəlxalq təcrübəsindən istifadə ediləcək, KOB-lar üçün maarifləndirici materiallar hazırlanacaq, startapların, mikro və kiçik biznes subyektlərinin sərgilərdə və təcrübə mübadiləsi proqramlarında iştirakına birgə dəstək göstəriləcəkdir.

## Sahibkar və menecerlər üçün seminar

2019-cu il fevralın 6-da KOBİA-nın təşkilatçılığı ilə Almaniyada təlim və istehsal müəssisələrində təcrübə keçəcək sahibkar və menecerlər üçün ikigünlük seminar təşkil olunub.

Tədbirdə Almaniyanın “Beynəlxalq Akademiya” Tədris Mərkəzinin nümayəndələri Timo Tekhaus və Roman Husnutinov sahibkar və menecerlərə “Azərbaycanın biznes ictimaiyyətində menecerlərin ixtisasının artırılması üzrə Almaniya-Azərbaycan birgə Proqramı”, beynəlxalq iqtisadi kooperasiya, Almaniya müəssisələri ilə işgüzar əlaqələrin qurulması mövzularında məlumat verib, iştirakçıları maraqlandıran sualları cavablandırıblar.

Məlumat üçün bildirək ki, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Almaniyanın Federal İqtisadiyyat və Enerji Nazirliyi arasında Anlaşma memorandumuna uyğun olaraq, “Azərbaycanın biznes ictimaiyyətində menecerlərin ixtisasının artırılması üzrə Almaniya-Azərbaycan birgə Proqramı” çərçivəsində 16 sahibkar və menecerdən ibarət ilk qrupun 25 mart-19 aprel 2019-cu il tarixlərində Almaniyanın Hamburq şəhərində yerləşən “Beynəlxalq Akademiya” Tədris Mərkəzində təlim, istehsal müəssisələrində isə təcrübə keçməsi nəzərdə tutulub.











## Ət və quşçuluq məhsulları istehsalçılarının yeni təklifləri

KOBİA-nın təşkilatçılığı ilə 2019-cu il fevralın 21-də Bakı şəhərində və ölkə regionlarında ət və ət məhsullarının istehsalı və quşçuluq sahələrində fəaliyyət göstərən sahibkarlıq subyektləri ilə görüş keçirilib.

Tədbirdə İqtisadiyyat, Vergilər, Kənd Təsərrüfatı nazirliklərinin, Dövlət Gömrük Komitəsinin və Qida Təhlükəsizliyi Agentliyinin nümayəndələri iştirak ediblər.

KOBİA İdarə Heyəti sədrinin birinci müavini Natiq Həsənov Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə ölkəmizdə özəl bölmənin inkişafı, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi istiqamətində həyata keçirilən islahatlar və dəstək mexanizmləri, eləcə də Agentliyin fəaliyyəti, mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərdiyi xidmətlər barədə məlumat verib. Qeyd olunub ki, Agentlik "KOB Dostu" və digər dəstək mexanizmləri vasitəsilə sahibkarlara müxtəlif sahələr üzrə xidmətlər göstərir. Agentliyin başlıca fəaliyyət istiqamətlərindən biri də dövlət və özəl qurumların fəaliyyətinin əlaqələndirilməsidir. Belə formatda görüşün təşkilində məqsəd də məhz sahibkarlar və dövlət qurumları arasında səmərəli əməkdaşlıq platformasının daha da genişləndirilməsidir və bu cür tədbirlərin mütəmadi olaraq təşkil olunması nəzərdə tutulur. Sonra İqtisadiyyat, Vergilər, Kənd Təsərrüfatı nazirliklərinin, Dövlət Gömrük Komitəsinin və Qida Təhlükəsizliyi Agentliyinin nümayəndələri sahibkarları müvafiq sahələrdəki yeniliklər, qanunvericiliyə edilmiş dəyişikliklər, dövlət dəstəyi tədbirləri barədə məlumatlandırıblar.

Tədbirdə ət və ət məhsulları istehsalı və quşçuluq sahələrinin inkişafı, istehsalın dəstəklənməsi, satışın təşkili, idxal-ixrac əməliyyatları, qida təhlükəsizliyi, eləcə də sahibkarları maraqlandıran digər məsələlər barədə müzakirələr aparılıb, sahibkarların təklifləri dinlənilib.

Qarşılıqlı müzakirə şəraitində keçirilən görüşdə müvafiq dövlət qurumlarının nümayəndələri ət və ət məhsullarının istehsalı və quşçuluq sahələrində fəaliyyət göstərən sahibkarları maraqlandıran sualları cavablandırıblar.

Görüş çərçivəsində həmçinin Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin "KOB Dostu" mexanizmi barədə məlumat verilib, Bakı şəhəri üzrə KOB dostları sahibkarlara və aidiyyəti dövlət qurumlarının nümayəndələrinə təqdim olunub.




## Aqrar sahədə standartlara və sertifikatlaşdırmaya dair seminar

KOBİA və “SGS Azeri” MMC-nin təşkilatçılığı ilə sahibkarlar üçün “Kənd təsərrüfatı məhsullarının ixracı üzrə əkinçilik standartları və sertifikatlaşdırma prosesi” mövzusunda seminar keçirilib. Tədbirdə kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən, bu sahədə idxal və ixracla məşğul olan 80-ə yaxın sahibkar iştirak edib.

Tədbirdə çıxış edən KOBİA İdarə Heyəti sədrinin müavini Faiq Abbasov Agentliyin fəaliyyəti, sahibkarların məlumatlandırılması məqsədilə təşkil olunan təlim və seminarlar barədə məlumat verib. “SGS Azeri” MMC-nin rəhbəri Seymur Ağayev isə tədbir iştirakçılarını seminarın məqsədi və mövzuları barədə məlumatlandırıb.

Seminarda yerli və xarici mütəxəssislərin “Kənd təsərrüfatı sahəsində keyfiyyətin artırılmasının inkişafına dəstək mexanizmləri”, “Toxumçuluğun inkişafı, prosesin optimallaşdırılması və texniki qulluq”, “Kənd təsərrüfatı məhsullarının beynəlxalq standartlara uyğun sertifikatlaşdırılması, ixrac coğrafiyasının genişləndirilməsi”, “Bitkiçilik sahəsində əsas standartlar və tələblər”, “Sertifikatlaşdırma prosesi və onun zəruriliyi” mövzularında məruzələri dinlənilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Maliyyə savadlılığının artırılmasına dair təlim

KOBİA və Azərbaycan Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının birgə təşkilatçılığı ilə 2019-cu il martın 14-15-də mikro, kiçik və orta biznes subyektlərinin maliyyə savadlılığının artırılması məqsədilə “Kiçik və orta sahibkarlıq subyektləri üçün maliyyə hesabatlarının beynəlxalq standartları” mövzusunda təlim keçirilib.

İki gün davam edən təlimdə mövzuya dair müxtəlif təqdimatlar keçirilib, interaktiv müzakirələr aparılıb və iştirakçıları maraqlandıran suallar cavablandırılıb. Təlimdə iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən kiçik və orta biznes subyektlərini təmsil edən 20-dən çox sahibkar, maliyyə meneceri və mühasib iştirak edib.








1

## Peşə təhsili müəssisələri məzunlarının özünüməşğulluq imkanlarının artırılmasına dair təlim

KOBİA-nın təşkilatçılığı ilə 2019-cu il aprelin 3-də Gəncə şəhərində yerləşən 2 saylı Peşə Liseyində peşə təhsili sistemində sahibkar düşüncə tərzinin inkişaf etdirilməsi və mövcud təcrübələrin təşviqi məqsədilə "Peşə təhsili müəssisələri məzunlarının özünüməşğulluq imkanlarının artırılması" mövzusunda təlim keçirilib.

Tədbirdə "Peşə təhsili müəssisələri məzunlarının özünüməşğulluq imkanlarının artırılmasında KOB subyektlərinin rolu", "Öz biznesinə necə başlamalı?", "Menecerlikdən sahibkarlığa doğru" mövzularında "166 Yük Taksisi" MMC-nin icraçı direktoru tərəfindən təqdimatlar keçirilib, interaktiv müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb və təkliflər səsləndirilib.

Kiçik və orta sahibkarlıq subyektlərinin iştirakı ilə keçirilmiş təlimdə KOBİA-nın, İqtisadiyyat Nazirliyinin Gəncə-Qazax regional bölməsinin, Gəncə şəhər Gənclər və İdman İdarəsinin, Gəncə "Gənclər evi"nin, Gəncədə fəaliyyət göstərən ali və orta təhsil müəssisələri, peşə məktəbləri və qeyri-hökumət təşkilatlarının nümayəndələri və tələbələr iştirak ediblər.

## Sahibkarlığın inkişafına dair dəyirmi masalar

Avropa İttifaqının Şərq Tərəfdaşlığı Təşəbbüsü çərçivəsində 2019-cu il 30 aprel-2 may tarixlərində Bakıda sahibkarlıq bacarıqları, sahibkarlığın tədrisi və qadın sahibkarlığı mövzularında dəyirmi masalar keçirilib.

KOBİA-nın təşkilatçılığı ilə keçirilmiş dəyirmi masalarda dövlət və özəl qurumların nümayəndələri, Avropa Treninq Fondunun ekspertləri iştirak ediblər.

Sahibkarlıq bacarıqlarına dair KOBİA-da, sahibkarlığın tədrisi üzrə Təhsil Nazirliyində, qadın sahibkarlığı ilə bağlı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində təşkil olunmuş







01 “Peşə təhsili müəssisələri məzunlarının özünüməşğulluq imkanlarının artırılması” mövzusunda təlim. 3 aprel 2019-cu il

02 Bakıda sahibkarlıq bacarıqları, sahibkarlığın tədrisi və qadın sahibkarlığı mövzularında dəyirmi masa. 30 aprel - 2 may 2019-cu il

03 Özünüməşğulluq proqramına cəlb olunmuş şəxslər üçün təlim. 6 may 2019-cu il

dəyirmi masalarda ölkəmizdə sahibkarların ömürboyu öyrənmək imkanlarına, bu sahədə innovativ tədris və təlim metodlarının tətbiqinə, peşə təhsili sistemində sahibkar düşüncə tərzinin təşviqinə, qadın sahibkarlığının inkişafı mexanizmlərinə dair müzakirələr aparılıb.

Qeyd edək ki, dəyirmi masalar çərçivəsində aparılmış müzakirələrin nəticələrindən Avropa Komissiyasının “Kiçik Biznes Aktı” üzrə həyata keçiriləcək qiymətləndirilmə zamanı istifadə olunması nəzərdə tutulub.

## KOBİA-da özünüməşğulluq proqramına cəlb olunmuş iştirakçılar üçün təlim

KOBİA əhali arasında sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, mikro və kiçik sahibkarlığın inkişafı, məşğulluqda KOB subyektlərinin payının artırılması məqsədilə özünüməşğulluğa dəstək göstərir.

Bu dəstək üç istiqamətdə olmaqla Agentliyin ölkənin 12 şəhər və rayonunda fəaliyyət göstərən “KOB Dostu” şəbəkəsi vasitəsilə həyata keçirilib. Bu istiqamətlərdən biri özünüməşğulluq proqramına cəlb olunmuş şəxslər üçün təlimlərin təşkil olunmasıdır.

2019-cu il mayın 6-da KOBİA və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən Bakı şəhərində özünüməşğulluq proqramına cəlb olunmuş şəxslər üçün təlimlər keçirilib. KOBİA-nın inzibati binasında keçirilən təlimlər bir ay davam edib. Təlimlərdə özünüməşğulluq proqramına cəlb olunmuş 15 nəfər iştirak edib. Onlara təlim çərçivəsində özünüməşğulluq proqramı, xidmət və istehsalla bağlı biznes planların hazırlanması, sahibkarlıq sahəsində hüquqi məsələlər tədris olunub. Təlimləri uğurla başa vuran iştirakçılara sertifikat verilib.




1



Bakı ilə yanaşı, Gəncə və Yevlax şəhərlərində, Qəbələ, Quba, Qusar və Xaçmaz rayonlarında fəaliyyət göstərən “KOB Dostu” ofislərində də özünüməşğulluq proqramına qoşularaq sahibkarlıq fəaliyyəti ilə məşğul olmaqda maraqlı olan şəxslər üçün təlimlər keçirilib. Ümumilikdə bu təlimlərdə 94 nəfər iştirak edib. Məlumat üçün qeyd edək ki, özünüməşğulluq proqramına qoşulmaq istəyən şəxslər məşğulluq mərkəzləri ilə yanaşı, artıq Agentliyin KOB dostlarına da müraciət edə bilərlər. KOB dostları tərəfindən müraciət edən şəxslərə özünüməşğulluq proqramı barədə ətraflı məlumat verilir, onların proqrama qoşulmasına dəstək göstərilir. KOBİA-nın özünüməşğulluğa göstərdiyi dəstəyin digər istiqaməti Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən zəruri aktivlərlə (mal, material, avadanlıq və digər əmlak) təmin olunmuş şəxslərə mikro və kiçik biznes subyektinə çevrilmələri üçün KOB dostları vasitəsilə məsləhət və digər zəruri xidmətlərin göstərilməsi ilə bağlıdır.

## Bakıda ilk dəfə olaraq Qadın Sosial Sahibkarlıq Forumu keçirilib

2019-cu il mayın 6-da Bakı Biznes Mərkəzində İqtisadiyyat Nazirliyinin, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin dəstəyi, Azərbaycan Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası və “Education HUB”ın təşkilatçılığı ilə Qadın Sosial Sahibkarlıq Forumu keçirilib.

Azərbaycanda sosial sahibkarlığın təşviq olunması, bu sahədə məlumatlılığın artırılması və beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə təşkil olunmuş tədbirdə aidiyyəti dövlət qurumlarının, beynəlxalq təşkilatların nümayəndələri, eləcə də bir sıra xarici ekspertlər iştirak ediblər.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva, İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədr müavini Nadir Adilov və Azərbaycanda Qadın Sahibkarlığın İnkişafı Assosiasiyası İdarə Heyətinin sədri Səkinə Babayeva ölkəmizdə sahibkarlığın inkişafı, bu sahədə həyata keçirilən tədbirlər

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
Müasir Dövlət Bankınız

KOB
Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

asan radio FM

# SAHİBKAR VAXTI

Maarifləndirici radioveriliş

Hər çərşənbə axşamı saat 19.05-də **ASAN Radio**-da bizi dinləyin və korporativ Facebook səhifəmizdə canlı izləyin.

2

01 Qadın Sosial Sahibkarlıq Forumu. 6 may 2019-cu il

02 "Sahibkar vaxtı" layihəsi

barədə məlumat verib, təmsil etdikləri qurumların sosial sahibkarlığın təşviqi və inkişafı istiqamətində reallaşdırdığı tədbirləri və layihələri diqqətə çatdırıblar.

Sonra "Education HUB"ın əməkdaşları tərəfindən hazırlanmış Azərbaycanda sosial sahibkarlıqla bağlı təqdimat keçirilib. Forum işini panel iclaslarla davam etdirib. İclaslarda Qazaxıstan, Gürcüstan və ABŞ-dan olan ekspertlər öz ölkələrində sosial sahibkarlığın əhəmiyyəti, əldə etdikləri nailiyyətləri forum iştirakçıları ilə bölüşüblər.

## Sahibkarlar üçün "Sahibkar vaxtı"

KOBİA, Azərbaycan Beynəlxalq Bankı və "ASAN radio"-nun tərəfdaşlığı ilə sahibkarlar üçün yeni maarifləndirici layihəyə start verilib. Birgə layihə çərçivəsində hər həftə "ASAN radio"da canlı olaraq "Sahibkar vaxtı" proqramının efirə getməsi qərara alınıb.

"Sahibkar vaxtı" verilişini hər həftənin çərşənbə axşamı, saat 19:05-də "ASAN radio"nun efirində dinləmək, eləcə də tərəfdaş qurumların "Facebook"dakı korporativ səhifələrində canlı izləmək olar.

Verilişdə sahibkarlıq fəaliyyətinə aid konkret sahələr üzrə peşəkar mütəxəssislərin qonaq qismində iştirakı nəzərdə tutulub. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan hər kəs, xüsusilə kiçik və orta biznes təmsilçiləri burada onları maraqlandıran suallara cavab tapa bilər. Məqsəd cəmiyyətimizdə biznes savadlılığının dəstəklənməsi, sahibkarların maarifləndirilməsi, onların mövcud biznes imkanları barədə məlumatlandırılmasıdır. "Sahibkar vaxtı" verilişini iqtisadçı-jurnalist Əli Əhmədov aparır.

Verilişin aparıcısı Əli Əhmədov isə auditoriyanın bu cür verilişlərə marağının getdikcə artdığını bildirib: "Biznes mühiti inkişaf etdikcə, cəmiyyətimizdə iqtisadi savadlılıq səviyyəsi yüksəldikcə insanlar vaxtlarını belə gərəkli verilişlərə sərf etmək istəyirlər. Biz də maksimum çalışacağıq ki, dinləyicilərimizin "Sahibkar vaxtı"na ayırdıqları zaman müqabilində onlara faydalı nələrsə verək".




### Sahibkar və menecerlər üçün maarifləndirici seminar

KOBİA mikro və kiçik sahibkarların maliyyə savadlılığının artırılması üçün müxtəlif tədbirlər: təlim, treninq və seminarlar keçirir. KOBİA-nın təşkilatçılığı ilə sahibkar və menecerlər üçün növbəti belə seminar “Biznes planın hazırlanmasında maliyyə planlaşdırılması və investisiya tələbinin əsaslandırılması” mövzusunda keçirilib.

Tədbirdə maliyyə sahəsində ixtisaslaşmış təlimçilər tərəfindən iştirakçılara biznes və maliyyə planının hazırlanması, maliyyə vəsaitləri dövriyyəsinin proqnozlaşdırılması, layihənin iqtisadi səmərəliliyinin qiymətləndirilməsi, maliyyə risklərinin minimuma endirilməsi yolları barədə ətraflı məlumat verilib.

Seminarda iştirak edən sahibkar və menecerlər həmçinin ixrac sahəsində mövcud qanunvericilik, ixracatçılara tətbiq edilən güzəştlər, stimullaşdırıcı tədbirlər, ixrac bazarları, bu sahədə beynəlxalq standartlar barədə məlumatlandırılıb.



2



3

01 “Biznes planın hazırlanmasında maliyyə planlaşdırılması və investisiya tələbinin əsaslandırılması” mövzusunda seminar. 16 may 2019-cu il

02 “Maliyyə risklərinin idarə olunması” mövzusunda təlim. 30 may 2019-cu il

03 “Kommunikasiyanın və informasiyanın idarə olunması” mövzusunda təlim. 14 iyun 2019-cu il

## “Maliyyə risklərinin idarə olunması” mövzusunda təlim

Kiçik və orta biznes subyektlərinin maliyyə savadlılığının artırılması istiqamətində KOBİA tərəfindən sahibkarların ehtiyacları öyrənilərək, mütəmadi olaraq tədbirlər keçirilir.

KOBİA-nın təşkilatçılığı ilə sahibkar və menecerlər üçün növbəti təlim “Maliyyə risklərinin idarə olunması” mövzusuna həsr olunub. Təlimdə iştirakçılar Azərbaycanın Professional Maliyyə Menecerləri Assosiasiyasının ixtisaslaşmış təlimçiləri tərəfindən risk və onun mahiyyəti, maliyyə risklərinin idarə edilməsi, sığorta, riskdən yayınma, risk səviyyəsinin azaldılması üsulları barədə məlumatlandırılıb, onları maraqlandıran suallar cavablandırılıb.

## KOB-lar kommunikasiya və informasiyanın idarə olunması mövzusunda məlumatlandırılıb

KOBİA tərəfindən mütəmadi olaraq müxtəlif mövzularda maarifləndirici tədbirlər təşkil edilir. KOBİA-nın təşkilatçılığı ilə növbəti belə təlim 2019-cu il iyunun 14-də “Kommunikasiyanın və informasiyanın idarə olunması” mövzusunda keçirilib. Təlimdə sahibkarlar, menecer və sahibkarlıq fəaliyyətinə yeni başlayanlar effektiv ünsiyyət, jest və mimikanın ünsiyyət prosesində rolu, işgüzar danışıqlar, görüş zamanı “30 saniyə qaydası” və s. barədə məlumatlandırılıb, onları maraqlandıran suallar cavablandırılıb.



# Turizm sahəsində fəaliyyət göstərən sahibkarlarla görüş

KOBİA-nın təşkilatçılığı ilə müvafiq dövlət qurumlarının və turizm sahəsində fəaliyyət göstərən 30-dan çox sahibkarlıq subyektinin iştirakı ilə görüş keçirilib.İqtisadiyyat, Xarici İşlər nazirliklərinin, Dövlət Miqrasiya, Dövlət Sərhəd xidmətlərinin, Dövlət Turizm Agentliyinin, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin, “Azərbaycan Hava Yolları” QSC-nin, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Turizm və xidmət üzrə iş komissiyasının və Azərbaycan Turizm Assosiasiyasının nümayəndələrinin iştirakı ilə keçirilmiş tədbirdə sahibkarların fikirləri dinlənilib, sahənin inkişafına dair müxtəlif təkliflər səsləndirilib.

Görüşdə turizm sahəsində fəaliyyət göstərən şirkətlərin nümayəndələri tərəfindən vahid turizm reyestrinin yaradılması, turizm sahəsində qanunvericiliyin müasir tələblərə uyğunlaşdırılması, hava daşımaları, hotel və restoranlarda xidmət səviyyəsinin yüksəldilməsi, 2-3 ulduzlu hotellərin tikintisi və bunun üçün aşağı faizli kreditlərin ayrılması, kadr hazırlığı, bu sahədə qaynar xəttin yaradılması, bələdçilərə sertifikatların verilməsi, ölkəyə gələn turistlərin məlumatlandırılması və digər istiqamətlərdə müxtəlif təkliflər səsləndirilib, onları maraqlandıran suallar cavablandırılıb.

Görüş çərçivəsində həmçinin aidiyyəti dövlət qurumlarının nümayəndələri sahibkarları turizm sahəsində yeniliklər, bu sahədəki mövcud qanunvericilik və dəyişikliklər, dövlət dəstəyi tədbirləri barədə məlumatlandırıblar.

# Mədəni turizmdə klasterləşmə: vergi güzəştləri, inkişaf imkanları



KOBİA-nın təşkilatçılığı ilə “Mədəni turizmdə klasterləşmənin səmərəliliyinin artırılması” mövzusunda dəyirmi masa keçirilib. Tədbirdə sahibkarlar turizm sahəsində klasterləşmə, “KOB klaster” anlayışı, Vergi Məcəlləsində “KOB klaster”lər üçün nəzərdə tutulan vergi güzəştləri barədə məlumatlandırılıb.

Turizm sahəsində çalışan sahibkarların və bu sektorda sahibkarlıq fəaliyyətinə başlamaq istəyən şəxslərin, eləcə də Azərbaycan Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının nümayəndələrinin iştirakı ilə baş tutan dəyirmi masada mədəni turizm, turizm sahəsində klasterlərin yaradılması, klasterlərlə bağlı qanunvericilikdəki yeniliklər, mədəni turizmdə klasterləşmənin səmərəliliyinin yüksəldilməsi kimi məsələlər müzakirə edilib, sahibkarların müvafiq sahədə təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

Tədbirdə KOBİA-nın nümayəndələri tərəfindən məlumat verilib ki, “Kiçik və Orta Biznes klasteri” (“KOB klaster”) eyni və ya bənzər sektorda, əlaqəli və bir-birini tamamlayıcı fəaliyyət sahələrinin müəyyən coğrafi bölgədə yerləşməsi ilə meydana gələn, ümumi infrastruktur, texnologiya, vahid bazar, işçi qüvvəsi və xidmətləri paylaşaraq qarşılıqlı iqtisadi əlaqələrin qurulması, birgə fəaliyyət imkanlarına malik olan əməkdaşlıq modelidir. Vergi Məcəlləsində “KOB klaster”lər üçün bir sıra vergi güzəştləri nəzərdə tutulur. Belə ki, “KOB klaster şirkəti” 7 il müddətində mənfəət, torpaq və əmlak vergisindən, texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün ƏDV-dən azaddır. “KOB klasterin iştirakçısı” isə 7 il müddətində əldə etdiyi mənfəətin kapital xarakterli xərclərinin çəkilməsinə yönəldilən hissəsinin gəlir vergisindən azad olunur.

Məlumat verilib ki, KOBİA “KOB klaster şirkəti” və “KOB klasterin iştirakçısı” şəhadətnamələrini verən səlahiyyətli qurum olaraq müəyyən edilib.






## Sahibkarlıq fəaliyyəti ilə məşğul olan gənclər təcrübələrini bölüşüb

2019-cu il iyunun 27-də Bakı Gənclər Mərkəzində KOBİA və Azərbaycan Respublikasının Gənclər Fondunun birgə təşkilatçılığı ilə "Beynəlxalq mikro, kiçik və orta sahibkarlıq günü"nə həsr olunmuş Gənclər forumu keçirilib. Tədbirdə gənclər və sahibkarlar, eləcə də aidiyyəti qurumların nümayəndələri iştirak ediblər.

Forumda çıxış edən Azərbaycan Respublikasının Gənclər Fondunun Gənclərlə iş şöbəsinin müdiri Orxan Ərəbov qeyd edib ki, tədbirin keçirilməsində məqsəd innovativ biznes layihələri, ideya təklifləri və uğurlu sahibkarlıq fəaliyyəti olan 16-29 yaş kateqoriyasında gəncləri və sahibkarları mövcud dövlət dəstəyi mexanizmləri barədə məlumatlandırmaq, cari sahibkarlıq fəaliyyəti ilə məşğul olan gənc sahibkarlara fəaliyyətlərinin genişləndirilməsi üçün imkanlar yaratmaqdır.

KOBİA İdarə Heyəti sədrinin müavini Nadir Adilov Agentliyin fəaliyyəti, KOB-lara göstərilən dəstək tədbirləri və layihələr, eləcə də gənclər arasında sahibkar düşüncə tərzinin təşviqi barədə məlumat verib, gənclərin dünyagörüşünün genişləndirilməsi, ixtisas biliklərinin artırılması, gənclərə peşəkar əmək fəaliyyətinə başlayanadək əmək vərdişlərinin aşılanması məqsədilə Agentlikdə "KOB könüllüləri" proqramının həyata keçirildiyini bildirib.

Tədbir çərçivəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən gənclər üçün təşkil olunmuş məlumatlandırma sessiyasında gənc sahibkarlar Elvin Dadaşsoy, Sara Rəcəbli, Hüseyn Hümbətov gənclərlə öz təcrübələrini bölüşüb, sahibkarlıq fəaliyyəti ilə bağlı fikir və tövsiyələrini qeyd ediblər. Sonra tədbir iştirakçılarına KOBİA-nın və Gənclər Fondunun fəaliyyət istiqamətləri ilə bağlı məlumatlar təqdim olunub, gənclərin sualları cavablandırılıb.



2



3

01 "Beynəlxalq mikro, kiçik və orta sahibkarlıq günü"nə həsr olunmuş Gənclər forumu. 27 iyun 2019-cu il

02 Aqrar sahə üzrə KOB-lara öz təsərrüfatlarında təlimlər.

03 Sahibkar Məhərrəm Ələsgərov.

## Aqrar sahə üzrə KOB-lara öz təsərrüfatlarında təlimlər keçirilib

KOBİA ölkə regionlarında fəaliyyət göstərən mikro və kiçik sahibkarlara dəstək məqsədilə BP və onun tərəfdaşlarının həyata keçirdiyi Sahibkarlığın İnkişafı Proqramı çərçivəsində "Kənd təsərrüfatı sektorunda KOB-ların inkişafına dəstək" təlimlərinə start verib.

Bu təlimlər regionlarda fəaliyyət göstərən mikro və kiçik sahibkarların öz fərdi təsərrüfatlarında keçirilir. Təlimlərin fərdi təsərrüfatlarda təşkil edilməsinin başlıca üstünlüyü sahibkarlar üçün daha faydalı və praktik olması, eləcə də təsərrüfatın düzgün idarə edilməsi, mövcud resurslardan daha səmərəli istifadə, planlaşdırma, məhsuldarlığın artırılması kimi məsələlərlə bağlı yerindəcə tətbiqi biliklərə yiyələnmək imkanının yaradılmasıdır.

Yevlax, Ağdaş və Tovuz rayonlarında istixana təsərrüfatı, toxum istehsalı, heyvandarlıq və meyvəçiliklə məşğul olan KOB-lar üçün təşkil olunmuş təlimlər artıq başa çatıb. Təlimləri uğurla başa vuran və əldə etdiyi bilikləri fərdi təsərrüfatlarında tətbiq edən KOB-lara sertifikatlar verilib.

KOBİA-nın "KOB Dostu" şəbəkəsi vasitəsilə reallaşdırılan və "Ekvita" şirkəti tərəfindən icra olunan təlimlər üç istiqamətdə: əməyin mühafizəsi, keyfiyyətin qiymətləndirilməsi və maliyyənin idarə edilməsi sahələrində aparılıb.

## KOBİA-nın informasiya və məsləhət xidmətlərindən yüzlərlə sahibkar yararlanıb

KOBİA tərəfindən mikro, kiçik və orta sahibkarlara göstərilən informasiya, məsləhət, dövlət və özəl qurumlarla əlaqələndirmə xidmətlərindən indiyədək yüzlərlə sahibkar yararlanıb.

Xaçmaz rayonunun Nərəcan kəndində bağçılıqla məşğul olan Məhərrəm Ələsgərov Agentliyin informasiya və məsləhət xidmətlərindən istifadə edərək, bağçılıq təsərrüfatını genişləndirən sahibkarlardandır.




> KOB-ların bilik və bacarıqlarının artırılması KOBİA-nın fəaliyyət gündəliyinin prioritetlərindəndir.

Sahibkar Məhərrəm Ələsgərov deyir: *"Bağçılıq təsərrüfatımı genişləndirmək üçün maliyyə dəstəyinə ehtiyacım vardı. Xaçmaz "KOB Dostu" məni dövlətin güzəştli kreditləri, bunun üçün lazım olan sənədlər barədə ətraflı məlumatlandırdı və dəstək göstərdi. Dövlətin güzəştli krediti hesabına bağçılıq təsərrüfatımı genişləndirmişəm"*.

### "Mövcud biznesin inkişafı və pul axını" mövzusunda seminar

2019-cu il iyulun 19-da KOBİA və Azərbaycan Mühasiblər və Risk Peşəkarları Assosiasiyasının (ARPA) birgə təşkilatçılığı ilə "Mövcud biznesin inkişafı və pul axını" mövzusunda seminar keçirilib.

Seminarda sahibkarlar biznes ideyaların gerçəkləşdirilməsi, marketinq strategiyasının qurulması, gəlir və xərclər planının hazırlanması, pul axınının idarə olunması və mövcud biznesin inkişaf etdirilməsinin digər üsulları barədə məlumatlandırılıb, onları maraqlandıran suallar cavablandırılıb.

### KOB-lar dövlət satınalmaları ilə bağlı məlumatlandırılıb

KOBİA sahibkarlar üçün "E-satınalma modelinin tətbiqi" mövzusunda təlimlər keçirib.






01 “Mövcud biznesin inkişafı və pul axını” mövzusunda seminar. 19 iyul 2019-cu il

02 Sahibkarlar üçün “E-satınalma modelinin tətbiqi” mövzusunda təlim

03 Konsaltinq şirkətləri üçün “E-satınalma modelinin tətbiqi” mövzusunda təlim

Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin və Elektron Hökumətin İnkişafı Mərkəzinin iştirakı ilə təşkil olunan təlimlərdə kiçik və orta biznes subyektləri dövlət satınalmalarında iştirak prosedurları, www.etender.gov.az vahid internet portalı və ondan istifadə qaydaları barədə məlumatlandırılıb.

Təlimlərdə iştirak etməkdə maraqlı olan kiçik və orta biznes subyektləri müvafiq məlumatları (ad, soyad, təmsil etdiyi müəssisə, vəzifəsi və əlaqə telefonu) KOBİA-nın training@smb.gov.az ünvanına göndərməklə təlimlərdə iştirak ediblər.

### Konsaltinq şirkətləri dövlət satınalmaları ilə bağlı məlumatlandırılıb

KOBİA-nın təşkilatçılığı ilə keçirilmiş “E-satınalma modelinin tətbiqi” mövzusunda təlimdə konsaltinq şirkətlərinə dövlət satınalmalarında iştirak prosedurları, bu sahədə qanunvericilikdə edilmiş dəyişikliklər, www.etender.gov.az vahid internet portalı barədə məlumat verilib, onları maraqlandıran suallar cavablandırılıb.

Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti və Elektron Hökumətin İnkişafı Mərkəzinin mütəxəssislərinin iştirakı ilə bu mövzuda növbəti təlim avqustun 2-də keçirilib.

# KOB-lar "Kapital bazarları vasitəsilə maliyyələşdirmə" mövzusunda maarifləndirilib

> Konsaltinq, qida və xidmət sahələrində fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarlar, gənc və qadın sahibkarlar, sahibkarlıq fəaliyyətinə yeni başlayanlar üçün təlimlər keçirilib.

Mikro, kiçik və orta biznes subyektləri üçün "ömürboyu öyrənmək" imkanlarının təmin edilməsi məqsədilə KOBİA tərəfindən dövlət və özəl qurumlarla birgə əməkdaşlıq çərçivəsində mütəmadi olaraq təlim, seminar, treninq və bu kimi tədbirlər təşkil olunur, sahibkarlar maarifləndirilir.

2019-cu il avqustun 22-də KOBİA-da konsaltinq, qida və xidmət sahələrində fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarlar, o cümlədən gənc və qadın sahibkarlar, sahibkarlıq fəaliyyətinə yeni başlayanlar üçün "Kapital bazarları vasitəsilə maliyyələşdirmə" mövzusunda seminar keçirilib.

KOBİA və Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının birgə təşkilatçılığı ilə keçirilən tədbirdə KOB subyektləri müasir dövrün tələblərinə uyğun innovativ sahiblik düşüncə tərzinin inkişaf etdirilməsi, alternativ maliyyə mənbələri və onlara çıxış imkanları, bu sahədə beynəlxalq təcrübə barədə məlumatlandırılıb, mövzuya dair müxtəlif təqdimatlar keçirilib.

Seminar çərçivəsində biznesin qurulması və inkişaf etdirilməsi üçün kapital ehtiyacı və mövcud maliyyələşmə mənbələri, Bakı Fond Birjasında listinqin üstünlükləri, Listinq Məsləhət Proqramına qoşulma, eləcə də mövzu ilə bağlı KOB-ları maraqlandıran digər məsələlər ətrafında müzakirələr aparılıb, sahibkarları maraqlandıran suallar cavablandırılıb.





# Daşınar əmlakın yüklülüyünün dövlət reyestrinin iş prinsipi və maliyyə savadlılığının artırılmasına dair təlim

2019-cu il avqustun 30-da KOBİA və Maliyyə Bazarlarına Nəzarət Palatasının birgə təşkilatçılığı, Qəbələ Rayon İcra Hakimiyyətinin dəstəyi ilə Qəbələdə mikro, kiçik və orta sahibkarlıq subyektləri üçün daşınar əmlakın yüklülüyünün dövlət reyestrinin məqsədi, iş prinsipi və üstünlükləri ilə bağlı təlim keçirilib.

Sahibkarların və kredit təşkilatlarının nümayəndələrinin iştirakı ilə təşkil olunmuş tədbirdə reyestr, yüklülüyün növləri və yüklülük predmeti, sahibkarlar və maliyyə qurumları üçün faydası barədə ətraflı məlumat verilib. Bildirilib ki, daşınar əmlakın rəsmi reyestrlərində qeydiyyata alınan daşınar əşyalar və dövlət qeydiyyatına alınmalı olan qiymətli kağızlar istisna olmaqla, yüklülük predmetini istənilən daşınar əmlak, habelə hüquqlar və tələblər, o cümlədən gələcəkdə yüklülük sahibinin mülkiyyətində olacaq daşınar əmlak təşkil edə bilər. Daşınar əşyalara hər cür avadanlıqları, kənd təsərrüfatı texnikalarını, heyvanları, biznesdə istifadə olunan əşyaları aid etmək olar.

Tədbir çərçivəsində KOBİA-nın fəaliyyət istiqamətləri barədə məlumat verilib, Agentliyin fəaliyyətinin əsas məqsədinin kiçik və orta sahibkarlığın yaradılması və inkişafının bütün mərhələlərində zəruri dəstək tədbirlərinin həyata keçirilməsi olduğu bildirilib. Bu tədbirlər qabaqcıl təşkilati modellərin tətbiqi, davamlı təlim sisteminin yaradılması, yeni ideya və innovasiyaların biznesə inteqrasiyası, sahibkarların maraqlarının müdafiəsi, güzəştli maliyyə mənbələrinə çıxışın asanlaşdırılması və digər istiqamətləri əhatə edir. Təlimdə həmçinin sığorta bazarı, bazarın xüsusiyyətləri, sığortanın növləri haqqında təqdimatlar keçirilib.




## KOBİA-da biznes assosiasiyaları ilə görüş

2019-cu il sentyabrın 4-də KOBİA ölkəmizdə fəaliyyət göstərən və sıralarında yüzlərlə sahibkarları birləşdirən biznes assosiasiyaları ilə görüş keçirib.

Nar, arıçılar, şərab, xurma, zeytun, tikinti materialları, turizm, mebel, qablaşdırma, tekstil, maşın və avadanlıq istehsalçıları və ixracatçıları, eləcə də qadın və əlil sahibkarlar assosiasiyalarının nümayəndələrinin iştirakı ilə təşkil olunmuş görüşdə sahibkarlar dövlət dəstəyi mexanizmləri, o cümlədən Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 may tarixli Fərmanı ilə təsdiq olunmuş daxili bazar araşdırmalarının aparılmasına dövlət dəstəyinin göstərilməsi qaydaları barədə məlumatlandırılıb. Görüşdə həmçinin biznes assosiasiyalarının gücləndirilməsi və bu sahədə KOBİA ilə əməkdaşlıq imkanları müzakirə edilib, müxtəlif təkliflər səsləndirilib, sahibkarları maraqlandıran suallar cavablandırılıb.

Diqqətə çatdırılıb ki, müvafiq qaydalara uyğun olaraq, daxili bazar araşdırmaları üçün dövlət dəstəyi mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilir və sahibkarlar maraqlı olduqları daxili bazar araşdırmasının aparılması üçün KOBİA-ya müraciət edə bilərlər. Sahibkarlar və biznes assosiasiyaları daxili bazar araşdırmaları ilə bağlı ətraflı məlumatı KOBİA-nın rəsmi internet səhifəsində yaradılmış bölmədən (http://smb.gov.az/nav/daxili-bazar-arasdirmalari) əldə edə bilərlər.

Tədbirdə iştirak edən sahibkarlar assosiasiyalarının nümayəndələri sahibkarların son zamanlar daxili bazar araşdırmalarının aparılmasına xüsusi maraq göstərdiklərini, daxili bazar araşdırmalarına dövlət dəstəyinin göstərilməsinin müvafiq sahədə xərcləri və riskləri azaldacağını, yeni istehsal sahələrinin, məhsul və xidmətlərin yaranmasına əhəmiyyətli töhfə verəcəyini bildiriblər.







**01** KOBİA-da biznes assosiasiyaları ilə görüş.
4 sentyabr 2019-cu il

**02** “İş yerində bədən dili” mövzusunda seminar.
9 sentyabr 2019-cu il

**03** “Maliyyə hesabatları və təhlil” mövzusunda təlim.
13 sentyabr 2019-cu il

## Startaplar və sahibkarlar üçün seminar

Mikro, kiçik və orta biznes subyektləri üçün “ömürboyu öyrənmək” imkanlarının təmin edilməsi məqsədilə KOBİA tərəfindən dövlət-özəl sektor əməkdaşlığı çərçivəsində mütəmadi olaraq birgə təlim, seminar, treninq və bu kimi tədbirlər təşkil olunur, sahibkarlar maarifləndirilir.

KOBİA-nın dəstəyi ilə mikro və kiçik sahibkarlıq subyektləri üçün “İş yerində bədən dili” mövzusunda seminar keçirilib. Tədbirdə “EduMark Consulting” şirkəti tərəfindən startaplara və sahibkarlara, o cümlədən gənc və qadın sahibkarlara iş mühitində rəhbər və digər şəxslərlə münasibətlərin idarə olunması, effektiv əlaqələrin qurulması, “bədən dili”ndən (jest, mimika və s.) düzgün istifadə barədə nəzəri və praktik məlumatlar təqdim olunub.

## “Maliyyə hesabatları və təhlil” mövzusunda təlim

KOBİA tərəfindən mikro, kiçik və orta biznes subyektləri üçün “ömürboyu öyrənmək” imkanlarının təmin edilməsi məqsədilə dövlət-özəl sektor əməkdaşlığı çərçivəsində mütəmadi olaraq müxtəlif tədbirlər, o cümlədən təlim, seminar və treninqlər təşkil olunur, sahibkarlar maarifləndirilir.

KOBİA tərəfindən KOB-ların maliyyə savadlılığının artırılması məqsədilə gənc və qadın sahibkarlar, o cümlədən biznes fəaliyyətinə yeni başlayanlar üçün 2019-cu il sentyabrın 12-də “Maliyyə hesabatları və təhlili” mövzusunda təlim keçirilib.

Tədbir çərçivəsində Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyası (APFM) tərəfindən maliyyə hesabatlarının hazırlanması, maliyyə vəziyyəti və onun nəticələri, mənfəət və zərər, pul vəsaitlərinin hərəkəti, maliyyə hesabatları əsasında qərarların qəbul olunmasına dair təqdimat keçirilib, sahibkarları maraqlandıran suallar cavablandırılıb.







### Qadın sahibkarlar korporativ idarəetmənin əhəmiyyəti barədə məlumatlandırılıb

KOBİA və Azərbaycan Sahibkar Qadınlar Assosiasiyasının birgə təşkilatçılığı ilə qadın mikro, kiçik və orta sahibkarlıq subyektləri üçün "Korporativ idarəetmə və onun şirkətin səmərəli fəaliyyətində rolu" mövzusunda treninq keçirilib. KOB subyektlərinin korporativ idarəetmə sahəsində bilik və bacarıqlarının artırılması məqsədilə təşkil olunmuş tədbirdə korporativ idarəetmənin üstünlükləri, o cümlədən şəffaflıq və hesabatlılıq, informasiyanın açıqlanması, kapital bazarlarına çıxış imkanlarının genişləndirilməsi, bu istiqamətlərdə beynəlxalq təcrübə barədə sahibkarlar məlumatlandırılıb, onların mövzu ilə bağlı suallaları cavablandırılıb.

### Potensial qadın sahibkarlar üçün maarifləndirici təlim

"Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair strateji yol xəritəsi"nə uyğun olaraq, kənd yerlərində qadınların və gənclərin məşğulluğunun artırılması məqsədilə regionlarda sahibkarlıq fəaliyyətinə yeni başlayan gənclər və qadınlar üçün biznesin təşkili və idarə edilməsi, biznesin inkişafına dövlət dəstəyi mexanizmləri və s. mövzularda maarifləndirici tədbirlər keçirilir.

KOBİA və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GIZ) birgə təşkilatçılığı ilə Qazax, Ağstafa, Samux və Naftalan rayonlarından olan qadınlar üçün sahibkarlıq fəaliyyəti ilə bağlı maarifləndirici tədbirlər və istehsal müəssisələrinə təcrübə səfərləri təşkil olunub. Bu tədbirlərin davamı olaraq Qazax və Ağstafa rayonlarından olan potensial gənc sahibkar qadınlar üçün maliyyə savadlılığının artırılması, büdcənin düzgün idarə olunması, ehtiyat fondlarının yaradılması, gözlənilməz xərclərə hazırlıq və digər mövzularda 5 günlük maarifləndirici təlim təşkil edilib. Almaniya Əmanətlər Bankının təlimçilərinin iştirakı ilə Qazax rayonunda keçirilmiş təlimdə 40 potensial qadın sahibkar iştirak edib. Təlimin sonunda iştirakçılara sertifikatlar təqdim olunub.

### Daxili bazar araşdırmalarına dair maarifləndirici çarx hazırlanıb

Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin daxili bazar araşdırmalarının aparılmasına dövlət dəstəyinin göstərilməsi barədə sahibkarlıq subyektlərinin və ictimaiyyətin məlumatlandırılması








01 “Korporativ idarəetmə və onun şirkətin səmərəli fəaliyyətində rolu” mövzusunda treninq. 4 sentyabr 2019-cu il

02 Potensial qadın sahibkarlar üçün maarifləndirici təlim. 9 sentyabr 2019-ci il

03 Daxili bazar araşdırmalarına dair maarifləndirici çarx

03 “İnnovativ layihələrin ilkin hazırlıq və yaradılması prosesində məsləhət” mövzusunda təlim. 02 oktyabr 2019-cu il

üçün KOBİA tərəfindən maarifləndirici videoçarx hazırlanıb. Videoçarxda Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 may tarixli Fərmanı ilə təsdiq olunmuş daxili bazar araşdırmalarının aparılmasına dövlət dəstəyinin göstərilməsi qaydaları, bu dəstək mexanizmindən hansı sahibkarlıq subyektlərinin yararlana biləcəyi, dəstək məbləğinin həcmi və müraciət qaydası barədə məlumat verilir.

### Startaplar və yeni biznesə başlayanlar üçün təlim

Startap layihələrinin yaradıcıları, biznes fəaliyyətinə başlamaq istəyənlər və sahibkarlar üçün “İnnovativ layihələrin ilkin hazırlıq və yaradılması prosesində məsləhət” mövzusunda təlim keçirilib.

KOBİA-nın təşkilatçılığı ilə keçirilmiş təlimin məqsədi sahibkar düşüncə tərzinin təşviqi, yeni ideyaları olan gəncləri, startapları, eləcə də yeni məhsullar və xidmətlər yaratmaq istəyən sahibkarları bu istiqamətdə məlumatlandırmaq, informasiya və məsləhət xidməti göstərməkdir.

Təlimdə innovativ sahibkarlıq ekosisteminin inkişafı üzrə beynəlxalq ekspert, “Innova Ventures Group”un rəhbəri Vüsal Süleymanlı iştirakçıları startapların, innovativ layihələrin müasir metodologiya (“design thinking”) və yeni texnologiyalar əsasında formalaşdırılması, idarə edilməsi, kommersiyalaşması, yerli və beynəlxalq bazarlarda inkişafı, eləcə də biznes inkubatorlar tərəfindən startaplara mentorluq, konsaltinq və informasiya xidmətlərinin göstərilməsi metodları barədə məlumatlandırıb, onları maraqlandıran sualları cavablandırıb.

Tədbirdə həmçinin Aran Regional İnkişaf Mərkəzində yaradılmış biznes inkubatorun məzunu, KOBİA-nın əlaqələndiricisi olduğu “Azərbaycanın biznes ictimaiyyətində menecerlərin ixtisasının artırılması üzrə Almaniya-Azərbaycan birgə Proqramı” çərçivəsində Almaniyada bir ay müddətində təlim və təcrübə keçmiş, hazırda sahibkarlıq fəaliyyəti ilə məşğul olan Əziz Əzimov öz təcrübəsini bölüşüb.

## KOBİA sahibkarlar arasında biznes tərəfdaşlığını təşviq edir

KOB-lara biznes tərəfdaşlığının tərkib hissəsi olan klasterləşmə, sahibkarlar üçün bir sıra güzəştlərin nəzərdə tutulduğu sənaye parkları və məhəllələrindən istifadə imkanları barədə informasiya və məsləhət xidmətləri göstərilir.



KOBİA mikro, kiçik və orta sahibkarlıq subyektləri arasında biznes tərəfdaşlığının inkişafı məqsədilə tərəfdaşlıq imkanları və faydaları ilə bağlı mütəmadi olaraq müxtəlif tədbirlər, təlim və seminarlar çərçivəsində sahibkarları məlumatlandırır. Eyni zamanda Agentlik KOB-lara biznes tərəfdaşlığının tərkib hissəsi olan klasterləşmə, ölkəmizdə fəaliyyət göstərən və sahibkarlar üçün bir sıra güzəştlərin nəzərdə tutulduğu sənaye parkları və məhəllələrindən istifadə imkanları barədə informasiya və məsləhət xidmətləri göstərir.

Biznes tərəfdaşlığının təşviqi məqsədilə KOBİA-nın dəstəyi ilə növbəti belə təlim “Şərikli biznes” mövzusunda təşkil olunub. Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi və İqtisadi Resursların Öyrənilməsi İctimai Birliyi tərəfindən icra olunan “Regionlarda kiçik və orta sahibkarlığın alternativ maliyyə mənbələrinə çıxış imkanlarının artırılması” layihəsi çərçivəsində keçirilən təlimdə dövlət və özəl qurumların nümayəndələri iştirak ediblər.

Təlimdə sahibkar düşüncə tərzinin inkişaf etdirilməsi, bu istiqamətdə bilik və bacarıqların artırılması üsulları, biznes tərəfdaşlığının inkişafı və KOB-ların rəqabət qabiliyyətinin artırılmasında rolu, şərikli biznesin qazandırdığı uğurlar, həmçinin uğursuzluğa səbəb ola biləcək amillər, ortaqlar arasında anlaşma sənədinin hazırlanması, onların üzərinə düşən vergi öhdəlikləri və bu kimi digər məsələlər tədbir iştirakçılarının diqqətinə çatdırılıb.





01 "Motivasiya-həvəsləndirmə və mükafatlandırma" mövzusunda təlim. 11 oktyabr 2019-cu il

02 "Biznes modelin və biznes planın hazırlanması" mövzusunda təlim. 22 oktyabr 2019-ci il

## Sahibkarlar və menecerlər motivasiya metodları barədə məlumatlandırılıb

KOBİA tərəfindən sahibkarlar və menecerlər üçün "Motivasiya-həvəsləndirmə və mükafatlandırma" mövzusunda təlim keçirilib.

Tədbirdə motivasiya, onun növləri, motivasiya üsul və metodları barədə məlumat verilib, motivasiyanın şirkətin idarə olunmasında və səmərəliliyin artırılmasında əhəmiyyəti vurğulanıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb. Sahibkar və menecerlərin marağı və müraciəti nəzərə alınaraq, belə mövzularda təlimlərin davamlı olaraq keçirilməsi qərara alınıb.

## Biznes modeli necə hazırlamalı?

2019-cu il oktyabrın 22-də KOBİA startap layihələrinin yaradıcıları üçün "Biznes modelin və biznes planın hazırlanması" mövzusunda təlim keçirilib. KOBİA-nın təşkilatçılığı ilə keçirilən tədbirin məqsədi yeni ideyaları olan gəncləri, startapları, eləcə də yeni məhsullar və xidmətlər yaratmaq istəyən sahibkarları bu istiqamətdə məlumatlandırmaq, onlara məsləhət və informasiya dəstəyi göstərməkdir.

"Business CheckUp" şirkətinin əməkdaşı tərəfindən təlimdə iştirak edən sahibkar və menecerlərə müəssisədaxili ehtiyatların qiymətləndirilməsi üsulları, xarici biznes mühitinin analizi, strateji biznes planın hazırlanması və icrası kimi istiqamətlərdə məlumat verilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# 07. ONLAYN TƏLİMLƏR

## KOBİA sahibkarlar üçün onlayn təlimlər təşkil edir

**2019-cu il yanvarın 31-də KOBİA-nın təşkilatçılığı ilə mikro, kiçik və orta sahibkarlar üçün Vergi Məcəlləsində edilmiş son dəyişikliklərlə bağlı onlayn təlim keçirilib.**





Təlimə Bakı və paytaxt qəsəbələrində, eləcə də ölkə regionlarında fəaliyyət göstərən 800-dən çox mikro, kiçik və orta sahibkar qoşulub. Təlim zamanı sahibkarlar Vergi Məcəlləsində mikro, kiçik və orta sahibkarlıqla bağlı son dəyişikliklər barədə məlumatlandırılıb, onları maraqlandıran suallar cavablandırılıb.

Onlayn təlimin keçirilməsi üçün Azərbaycan Dövlət İqtisad Universitetinin Distant Mərkəzinin imkanlarından istifadə edilib. Ekspert qismində onlayn təlimə Vergilər Nazirliyinin Tədris Mərkəzinin əməkdaşları cəlb olunub.

Sahibkarların istənilən yerdən təlimə birbaşa qoşulması, təlimi canlı rejimdə izləməsi üçün KOBİA-nın Masallı, Quba, Qusar, Xaçmaz, Siyəzən, Gəncə və Yevlaxdakı “KOB Dostu” mərkəzlərində də müvafiq şərait yaradılıb.

Qeyd edək ki, onlayn təlim barədə sahibkarlar İqtisadiyyat Nazirliyinin www.economy.gov.az və Agentliyin www.smb.gov.az saytları, “Facebook” səhifələri, eləcə də KİV vasitəsilə əvvəlcədən məlumatlandırılıb.

KOBİA KOB-ların qanunvericilik, dövlət dəstəyi mexanizmləri, eləcə də sahibkarları maraqlandıran digər sahələr üzrə məlumatlandırılması üçün onlayn təlimləri davam etdirir.

# Qida təhlükəsizliyi ilə bağlı onlayn təlimə 300-dək sahibkar qatılıb

**2019-cu il aprelin 4-də İqtisadiyyat Nazirliyinin tabeliyində KOBİA-nın təşkilatçılığı ilə sahibkarlar üçün növbəti onlayn təlim təşkil olunub.**




> İndiyədək təşkil olunmuş onlayn təlimlərdən minlərlə sahibkar yararlanıb.

“Qida təhlükəsizliyi ilə bağlı həyata keçirilən xidmətlərin təşkili və yeniliklər” mövzusunda keçirilmiş təlimdən Bakıda, eləcə də ölkə regionlarında fəaliyyət göstərən 300-ə yaxın sahibkar yararlanıb. Sahibkarlara onlayn təlimi KOBİA-nın “Facebook” səhifəsi vasitəsilə izləmək imkanı da yaradılıb.

Onlayn təlim zamanı sahibkarlar üçün qida təhlükəsizliyi, bu sahədə müvafiq prosedurlar və yeniliklər barədə təqdimatlar keçirilib, onları maraqlandıran suallar cavablandırılıb.

Təlimin keçirilməsi üçün Azərbaycan Dövlət İqtisad Universitetinin “UNEC Extern” mərkəzinin texniki imkanlarından istifadə edilib. Ekspert qismində onlayn təlimə Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları cəlb olunub.

Onlayn təlim çərçivəsində sahibkarlara ekspertlərə birbaşa müraciət etməklə yanaşı, suallarını yazılı surətdə göndərmək imkanı da yaradılıb. Yazılı müraciətlərin bir qismi ekspertlər tərəfindən təlim çərçivəsində operativ şəkildə cavablandırılıb, araşdırma tələb edən suallarla bağlı isə təlimdən sonra sahibkarlara müvafiq məlumat verilib.

Qeyd edək ki, onlayn təlim barədə sahibkarlar İqtisadiyyat Nazirliyinin www.economy.gov.az və KOBİA-nın www.smb.gov.az saytları, “Facebook” səhifələri, eləcə də KİV vasitəsilə əvvəlcədən məlumatlandırılıb.

Sahibkarların istənilən yerdən təlimə birbaşa qoşulması, təlimi canlı rejimdə izləməsi üçün KOBİA və Agentliyin ölkənin 10 şəhər və rayonunda fəaliyyət göstərən KOB dostları tərəfindən sahibkarlara hər cür dəstək göstərilib.

Qeyd edək ki, KOBİA-ya sahibkarlar tərəfindən ünvanlanan müraciətlər nəzərə alınaraq, Agentlik tərəfindən mütəmadi olaraq onlayn təlimlər keçirilir. İndiyədək təşkil olunmuş onlayn təlimlərdən 1200-ə yaxın sahibkar yararlanıb.




## KOB-lar üçün onlayn təlim sistemi yaradılır

Kiçik və orta sahibkarların təlim ehtiyaclarının ödənilməsi KOBİA-nın prioritetlərindəndir. Təcrübə göstərir ki, KOB-ların buna daha çox tələbatı var. Hazırda Agentlik tərəfindən müasir dövrün tələblərinə uyğun təlim sisteminin yaradılması istiqamətində işlər aparılır və yaxın zamanlarda onlayn platformada reallaşacaq bu sistem sahibkarların istifadəsinə veriləcək. Bu sistem vasitəsilə həyata keçiriləcək təlimlər biznes subyektlərinin fəaliyyətlərinin daha səmərəli təşkilində əhəmiyyətli olacaq.

Bu barədə KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov 2019-cu il aprelin 11-də Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyi və “AzerGold” QSC-nin birgə təşkilatçılığı ilə öz işinə başlamış “Fərdi aqrar təsərrüfatların iqlim dəyişikliyinə adaptasiyası” mövzusunda təlimdə məlumat verib.

Tədbirdə KOBİA tərəfindən kiçik və orta biznes subyektlərinin təlim-tədris ehtiyacları nəzərə alınmaqla həyata keçirilən tədbirlər, o cümlədən aidiyyəti dövlət qurumları ilə birgə təşkil olunan onlayn təlimlər barədə də məlumat verilib. Vurğulanıb ki, bu təlimlər biznes mühitində baş verən dəyişikliklər barədə sahibkarları məlumatlandırmaqla yanaşı, dövlət-sahibkar dialoqunun inkişafına da öz töhfəsini verir.

İqlim dəyişikliyinin xüsusilə aqrar sahədə aktual məsələlərdən olduğunu qeyd edən Agentlik sədri müvafiq təlimin aqrar təsərrüfatların iqlim dəyişikliyinə adaptasiyası üçün faydalı biliklər əldə edilməsi baxımdan önəmini diqqətə çatdırıb.

# Maliyyə resurslarına çıxış imkanlarına dair onlayn maarifləndirmə tədbiri

**2019-cu il mayın 2-də KOBİA-nın təşkilatçılığı ilə sahibkarlar üçün növbəti onlayn maarifləndirmə tədbiri təşkil olunub.**

Sahibkarların maliyyə resurslarına çıxış imkanları və bu sahədə göstərilən xidmətlərə həsr olunmuş onlayn tədbirdən Bakıda, eləcə də ölkə regionlarında fəaliyyət göstərən 300-dən çox sahibkar yararlanıb.

Onlayn tədbir zamanı sahibkarların maliyyə resurslarına çıxış imkanları, bu sahədə göstərilən xidmətlər, dövlətin güzəştli kreditlərindən istifadə, maliyyə və bank sahəsindəki yeniliklər barədə təqdimatlar keçirilib, sahibkarları maraqlandıran suallar cavablandırılıb.

Təlimin keçirilməsi üçün Azərbaycan Dövlət İqtisad Universitetinin “UNEC Extern” mərkəzinin texniki imkanlarından istifadə edilib. Ekspert qismində onlayn tədbirə İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu, Maliyyə Bazarlarına Nəzarət Palatası, Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi, İpoteka və Kredit Zəmanət Fondu, eləcə də ölkəmizdə fəaliyyət göstərən bir sıra bankların nümayəndələri cəlb olunub.



“KOBİA-nın onlayn təlim platforması eyni zamanda dövlət-sahibkar dialoqunun genişlənməsinə də öz töhfəsini verir.

Onlayn tədbir çərçivəsində sahibkarlara ekspertlərə birbaşa müraciət etməklə yanaşı, suallarını yazılı şəkildə göndərmək imkanı da yaradılıb. Yazılı müraciətlərin bir qismi ekspertlər tərəfindən təlim çərçivəsində operativ şəkildə cavablandırılıb, araşdırma tələb edən suallarla bağlı isə tədbirdən sonra sahibkarlara müvafiq məlumat verilib.

Qeyd edək ki, onlayn tədbir barədə sahibkarlar İqtisadiyyat Nazirliyinin www.economy.gov.az və KOBİA-nın www.smb.gov.az saytları, “Facebook” səhifələri, eləcə də KİV vasitəsilə əvvəlcədən məlumatlandırılıb.

Sahibkarların istənilən yerdən təlimə birbaşa qoşulması, təlimi canlı rejimdə izləməsi üçün tədbirlər görülüb. KOBİA və 12 şəhər və rayonda fəaliyyət göstərən KOB dostları tərəfindən sahibkarlara hər cür dəstək göstərilib.

Qeyd edək ki, KOBİA-ya sahibkarlar tərəfindən ünvanlanan müraciətlər nəzərə alınaraq, Agentlik tərəfindən mütəmadi olaraq onlayn maarifləndirmə tədbirləri keçirilir.




# Sahibkarlar kommunal xidmətlərə necə qoşula bilər?

**2019-cu il iyunun 12-də KOBİA-nın təşkilatçılığı ilə sahibkarlar üçün növbəti onlayn maarifləndirmə tədbiri keçirilib.**

Sahibkarların kommunal xidmətlərə qoşulması və bu sahədə həyata keçirilən xidmətlərə həsr olunmuş onlayn tədbirdən Bakıda, eləcə də ölkə regionlarında fəaliyyət göstərən 700-dən çox sahibkar yararlanıb.

Azərbaycan Dövlət İqtisad Universitetinin dəstəyi ilə keçirilmiş tədbir zamanı "Azərişıq", "Azərsu", "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" səhmdar cəmiyyətlərinin, "Azəriqaz" İstehsalat Birliyinin və "ASAN xidmət"in nümayəndələri kommunal xidmətlərə qoşulma, bu sahədə qanunvericiliyə edilmiş dəyişikliklər və yeniliklər barədə sahibkarlara məlumat verib, onları maraqlandıran sualları cavablandırıblar.

Onlayn tədbir çərçivəsində sahibkarlara ekspertlərə birbaşa müraciət etməklə yanaşı, suallarını yazılı surətdə göndərmək imkanı da yaradılıb. Yazılı müraciətlərin bir hissəsi ekspertlər tərəfindən tədbir çərçivəsində operativ şəkildə cavablandırılıb, araşdırma tələb edən suallarla bağlı isə daha sonra sahibkarlara müvafiq məlumat verilib. Tədbir KOBİA-nın "Facebook" səhifəsi üzərindən birbaşa yayımlanıb.

Qeyd edək ki, onlayn tədbir barədə sahibkarlar İqtisadiyyat Nazirliyinin www.economy.gov.az və KOBİA-nın www.smb.gov.az saytları, "Facebook" səhifələri, eləcə də KİV vasitəsilə əvvəlcədən məlumatlandırılıb. Sahibkarların istənilən yerdən təlimə birbaşa qoşulması, təlimi canlı rejimdə izləməsi üçün KOBİA və Agentliyin ölkənin 13 şəhər və rayonunda fəaliyyət göstərən KOB dostları tərəfindən sahibkarlara hər cür dəstək göstərilib.

KOBİA-ya sahibkarlardan daxil olan müraciətləri və onların məlumatlandırmaya olan ehtiyaclarını nəzərə alaraq, mütəmadi olaraq onlayn maarifləndirmə tədbirləri təşkil edir. İndiyədək vergilər, gömrük, qida təhlükəsizliyi və maliyyə resurslarına çıxış imkanlarına dair keçirilmiş onlayn maarifləndirici tədbirlərdən 1500-dən çox sahibkar yararlanıb.

# Sahibkarların dövlət satınalmaları ilə bağlı sualları cavablandırılıb

**Sahibkarların, xüsusilə də kiçik və orta biznes subyektlərinin dövlət satınalmaları ilə bağlı məlumatlandırılması məqsədilə KOBİA-nın təşkilatçılığı ilə onlayn maarifləndirmə tədbiri keçirilib.**

Azərbaycan Dövlət İqtisad Universitetinin dəstəyi ilə təşkil olunmuş tədbirdə Elektron Hökumətin İnkişafı Mərkəzinin mütəxəssisləri dövlət satınalmalarında iştirak prosedurları, bu istiqamətdə həyata keçirilən islahatlar, www.etender.gov.az internet portalı və ondan istifadə barədə sahibkarları məlumatlandırıb, onları maraqlandıran sualları cavablandırıblar.

Onlayn tədbirdən Bakıda, eləcə də ölkə regionlarında fəaliyyət göstərən 900-dən çox sahibkar yararlanıb. Tədbir çərçivəsində sahibkarlara ekspertlərə birbaşa müraciət etməklə yanaşı, suallarını yazılı formada göndərmək imkanı da yaradılıb. Sahibkarların suallarının əksəriyyəti ekspertlər tərəfindən tədbir çərçivəsində operativ şəkildə cavablandırılıb. Daha çox sahibkarın yararlanması üçün onlayn maarifləndirmə tədbiri KOBİA-nın “Facebook” səhifəsi üzərindən birbaşa yayımlanıb.

Regionlarda fəaliyyət göstərən KOB subyektlərinin onlayn maarifləndirmə tədbirində iştirakına dəstək məqsədilə KOBİA-nın ölkənin 14 şəhər və rayonunda fəaliyyət göstərən “KOB Dostu” şəbəkəsi tərəfindən sahibkarlara köməklik göstərilib.

Qeyd edək ki, onlayn tədbir barədə sahibkarlar KOBİA-nın www.smb.gov.az saytı, sosial şəbəkələrdəki səhifələri və KİV vasitəsilə əvvəlcədən məlumatlandırılıb.






## Korporativ idarəetmə, daxili bazar araşdırmaları, investisiya təşviqi sənədi

2019-cu il sentyabrın 25-də KOBİA-nın təşkilatçılığı ilə sahibkarlar üçün korporativ idarəetmə və onun şirkətin səmərəli fəaliyyətində rolu, daxili bazar araşdırmaları və investisiya təşviqi sənədi mövzularında onlayn maarifləndirici tədbir keçirilib.

Azərbaycan Dövlət İqtisad Universitetinin dəstəyi ilə təşkil olunmuş tədbirdə İqtisadiyyat Nazirliyi və KOBİA-nın nümayəndələri tərəfindən müvafiq mövzular üzrə sahibkarlar məlumatlandırılıb, onları maraqlandıran suallar cavablandırılıb. Onlayn tədbirdən Bakıda, eləcə də ölkə regionlarında fəaliyyət göstərən 400-ə yaxın sahibkar yararlanıb.

Tədbir çərçivəsində sahibkarlara ekspertlərə birbaşa müraciət etməklə yanaşı, suallarını yazılı formada göndərmək imkanı da yaradılıb. Sahibkarların sualları ekspertlər tərəfindən tədbir çərçivəsində operativ şəkildə cavablandırılıb. Daha çox sahibkarın yararlanması üçün onlayn maarifləndirmə tədbiri KOBİA-nın "Facebook" səhifəsi üzərindən birbaşa yayımlanıb.

Regionlarda fəaliyyət göstərən KOB subyektlərinin onlayn maarifləndirmə tədbirində iştirakına dəstək məqsədilə KOBİA-nın ölkənin müxtəlif şəhər və rayonlarında fəaliyyət göstərən "KOB Dostu" şəbəkəsi tərəfindən sahibkarlara köməklik göstərilib.

Qeyd edək ki, onlayn tədbir barədə sahibkarlar İqtisadiyyat Nazirliyinin www.economy.gov.az və KOBİA-nın www.smb.gov.az saytları, sosial şəbəkələrdəki səhifələri, eləcə də KİV vasitəsilə əvvəlcədən məlumatlandırılıb.

# Sahibkarlar və özünüməşğulluq proqramına qoşulmuş fermerlər KOBİA-nın onlayn maarifləndirmə tədbirində

**Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin müxtəlif mövzularda məlumatlandırılması məqsədilə KOBİA-nın təşkilatçılığı və müvafiq dövlət qurumlarının iştirakı ilə onlayn maarifləndirmə tədbirləri keçirilir.**

KOBİA-nın təşkilatçılığı, Azərbaycan Dövlət İqtisad Universiteti, Kənd Təsərrüfatı Nazirliyi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin dəstəyi ilə növbəti belə onlayn maarifləndirmə tədbiri 2019-cu il noyabrın 6-da aqrar sektorda fəaliyyət göstərən KOB-lar və özünüməşğulluq proqramına qoşulmuş fermerlər üçün təşkil edilib.

Sahibkarların və özünüməşğulluq proqramına qoşulmuş fermerlərin onlayn maarifləndirmə tədbirindən daha çox faydalanması və aqrar sahədəki son yeniliklər barədə ətraflı məlumatlandırılmaları üçün KOBİA-nın mərkəzi ofisində, eləcə də ölkənin müxtəlif şəhər və rayonlarında fəaliyyət göstərən “KOB Dostu” ofislərində və Kənd Təsərrüfatı Nazirliyinin Dövlət Aqrar İnkişaf Mərkəzlərində (DAİM) zəruri təşkilati və texniki imkanlar yaradılıb.

Onlayn tədbirdə Kənd Təsərrüfatı Nazirliyinin mütəxəssisləri sahibkarları və fermerləri aqrar sahəyə göstərilən dövlət dəstəyi tədbirləri, o cümlədən kənd təsərrüfatı texnikasının və damazlıq heyvanların lizinq üsulu ilə verilməsi, mineral gübrə və pestisidlərin güzəştlə satılması, kənd təsərrüfatı məhsullarının satış yarmarkalarının təşkili, güzəştli kreditlərin verilməsi, eləcə də 2020-ci il 1 yanvar tarixindən etibarən tətbiq olunacaq yeni subsidiya qaydaları barədə məlumatlandırıblar.

Tədbir çərçivəsində Kənd Təsərrüfatı Nazirliyinin mütəxəssisləri tərəfindən sahibkarların və özünüməşğulluq proqramına qoşulmuş fermerlərin çoxsaylı sualları cavablandırılıb. Ümumilikdə onlayn maarifləndirmə tədbirindən 1300-dən çox sahibkar və fermer yararlanıb. Onlayn maarifləndirmə tədbiri KOBİA-nın və Kənd Təsərrüfatı Nazirliyinin “Facebook” səhifələrindən birbaşa yayımlanıb.



# 08. QADIN SAHİBKARLIĞININ İNKİŞAFI



## Qadın biznes inkubatorlarının yaradılması təşviq olunur

KOBİA qadın sahibkarlığının inkişafını təşviq etmək, kiçik və orta sahibkarlar arasında qadınların sayının daha da artması üçün müvafiq tədbirlər həyata keçirir. Qadınların sahibkarlıq, bu sahədə yeniliklər, dəstək mexanizmləri barədə məlumatlandırılması, onların fikir və təkliflərinin öyrənilməsi üçün mütəmadi olaraq maarifləndirici tədbirlər: təlim, seminar və dəyirmi masalar təşkil olunur.

KOBİA-nın və Azərbaycan Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının təşkilatçılığı ilə növbəti belə dəyirmi masa “Qadın biznes inkubatorlarının yaradılmasının təşviqi” mövzusuna həsr olunub. Qadın sahibkarların və “Kənd qadınları” assosiasiyasının iştirakı ilə keçirilmiş tədbirdə ölkəmizdə qadın sahibkarlığının inkişafı, bu sahədə dövlət dəstəyi tədbirlərinə dair sahibkarların fikirləri və təklifləri dinlənilib.

Dəyirmi masada “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair” strateji yol xəritəsinə uyğun olaraq, qadın biznes inkubatorlarının yaradılmasının təşviq edilməsi, bunun mikro və kiçik sahibkarlığın inkişafında əhəmiyyəti vurğulanıb, bu sahədə müzakirələr aparılıb.

# “WE2019” qadın sahibkarlar üçün müsabiqə




KOBİA-nın da dəstək göstərdiyi “WE2019” qadın sahibkarlar üçün müsabiqə başa çatıb. Müsabiqənin nəticələrinə əsasən, “İlin ən gənc sahibkar xanımı” öz “FitDiet” brendi ilə Ləman Xəlilzadə, “İlin təşəbbüskar sahibkar xanımı” öz “TourismLab” brendi ilə Həvva Səfərova, “İlin təhsil üzrə sahibkar xanımı” öz “BD Kids” brendi ilə Elvira Bağırova, “Xaricdə fəaliyyət göstərən azərbaycanlı sahibkar xanım” öz “Cuisine Chez Billura” brendi ilə Billurə Bernard, “Milli brendi təmsil edən ilin sahibkar xanımı” isə “Tovuz Baltiya MMC” brendi ilə Günel Məmmədhəsənova olub. Müsabiqənin qalibi olan sahibkar xanımlar təşkil olunmuş tədbirdə mükafatlandırılıblar.

Qeyd edək ki, 2019-cu ilin yanvar-fevral ayları ərzində “Youth Inc.” Sahibkarlıq Proqramı tərəfindən “AzərTürkBank” ASC-nin dəstəyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və KOBİA-nın dövlət tərəfdaşlığı, Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası (AQSİA), “WoWoman Azerbaijan” təşkilatlarının, ADİU-da fəaliyyət göstərən Yunus Sosial Biznes Mərkəzi və “INNOLAND” İnkubasiya Mərkəzinin tərəfdaşlığı ilə həyata keçirilmiş müsabiqədə 16 yaşdan yuxarı sahibkar xanımlar iştirak ediblər. Müsabiqəyə ümumilikdə 161 xanım sahibkar müraciət edib. İlkin seçim mərhələsində 68 xanım sahibkar ikinci mərhələyə keçid haqqı qazanıb. Daha sonra tərəfdaş qurumlardan ibarət xüsusi komissiya tərəfindən yenidən müəyyən kriteriyalar əsasında seçim aparılaraq 11 finalçı müəyyən edilib. Seçilmiş 11 finalçı münsiflər heyəti qarşısında çıxış edərək öz bizneslərini və fəaliyyətlərini təqdim edib. Finalçılar arasından 5 nominasiya üzrə qaliblər müəyyən edilib.



## Qadın sahibkarlığının inkişafı istiqamətində tədbirlər genişləndiriləcək

2019-cu il martın 6-da III "SHE Congress" ("Smart. Happy. Elegant.") – qadınların liderlik və sahibkarlıq tədbiri keçirilib. "Azərbaycanın 100 işgüzar qadını" cəmiyyətinin təşkilatçılığı ilə keçirilmiş tədbirə KOBİA da dəstək göstərib.

KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov tədbirdəki çıxışında ölkə iqtisadiyyatının aparıcı qüvvəsi olan sahibkarlığın, xüsusilə də kiçik və orta sahibkarlığın inkişafının Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə həyata keçirilən siyasətin prioritet istiqamətlərindən olduğunu vurğulayıb. Qeyd edib ki, Azərbaycanda qadınlar digər sahələrdə olduğu kimi, sahibkarlığın inkişafında da mühüm rol oynayır və biznes fəaliyyəti ilə fəal şəkildə məşğul olurlar: "Qadınların iqtisadi təşəbbüskarlığının artması, mikro, kiçik və orta biznesdə geniş təmsil olunması ölkənin sosial-iqtisadi inkişafı, məşğulluğun təmin olunması baxımından əhəmiyyətlidir. Ölkə üzrə fərdi sahibkarların təqribən 20 faizini qadınlar təşkil edir. Qadın sahibkarlığının inkişaf etdirilməsi KOBİA-nın əsas fəaliyyət istiqamətlərindəndir və bu sahədə bir sıra tədbirlər həyata keçirilir. Agentliyin yanında fəaliyyət göstərən İctimai Şurada Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası aktiv təmsil olunur, Azərbaycan-Almaniya birgə Proqramı çərçivəsində biznesin idarə edilməsi üzrə Almaniyada ixtisasartırma kursu keçmiş iştirakçıların təxminən 20 faizdən çoxu qadın sahibkarlardır. Ölkəmizdə qadın sahibkarlığının inkişafı məqsədilə həyata keçirilən tədbirlərin miqyası və əhatə dairəsi genişləndiriləcək. Qadın sahibkarlığının inkişafı, o cümlədən qadın sahibkarlar üçün maarifləndirmə və konsaltinq xidmətləri, kreditləşmə və digər güzəştləri nəzərdə tutan stimullaşdırıcı mexanizmlərin işlənib-hazırlanması Azərbaycanda qadınların iqtisadi təşəbbüskarlığının reallaşdırılması imkanlarını əhəmiyyətli dərəcədə artıracaq. Bu istiqamətdə layihə və proqramların hazırlanması zamanı xüsusilə regionlarımızda qadın məşğulluğu diqqət mərkəzində olacaq, qadın məşğulluğunun daha perspektivli istiqamətləri müəyyənləşdirilərək müvafiq tədbirlər görüləcək. Qadın sahibkarlığına dəstək




məqsədilə xüsusi qadın biznes inkubatorların yaradılması da nəzərdən keçiriləcək. Bütün bunlar isə kiçik və orta sahibkarlar arasında qadınların sayını daha da artıracaq".

## KOBİA qadın sahibkarlığının inkişafının təşkilati modellərini dəstəkləyir

Azərbaycanda qadınlar sahibkarlığın inkişafında mühüm rol oynayır və biznes fəaliyyəti ilə fəal şəkildə məşğul olurlar. Ölkə üzrə qeydiyyatdan keçmiş fərdi sahibkarların təqribən 20 faizini qadınlar təşkil edir. Regionlarda qadınların maliyyə savadlılığının artırılması və maliyyə idarəetmə davranışlarının inkişaf etdirilməsi, onların biznesə başlamaq və inkişaf etdirmək üçün potensiallarının artırılması diqqət mərkəzindədir. Bu barədə 2019-cu il iyunun 21-də Bakıda keçirilmiş Qadın sahibkarlığının inkişafına dair Beynəlxalq Forumda KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov bildirib. Ölkəmizdə qadın sahibkarlığının inkişaf etdirilməsinin KOBİA-nın qarşısında duran prioritet məsələlərdən olduğunu qeyd edən Agentlik rəhbəri kiçik və orta sahibkarlar arasında qadınların sayının daha da artırılması və bu məqsədlə müvafiq dəstək mexanizmlərinin yaradılması, qadın sahibkarlığının inkişafının təşviq edilməsi istiqamətində zəruri tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb: "Qadın sahibkarlığının inkişafı tədbirləri onlarla sıx əməkdaşlıq şəraitində, bu məqsədlə yaradılmış dövlət-sahibkar əməkdaşlığı platformaları əsasında həyata keçirilir. Bu baxımdan Agentliyin yanında yaradılmış və sahibkarların ictimai birliklərinin təmsil olunduğu İctimai Şuranın imkanlarından geniş istifadə edilir. Agentliyin yanında fəaliyyət göstərən İctimai Şurada həmçinin Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası təmsil olunur. Qadın sahibkarlığının inkişafı məqsədilə layihə və proqramlar hazırlanan zaman xüsusilə kənd yerlərində qadın məşğulluğu məsələsi diqqət mərkəzində olmalı və bu yerlərdə qadın məşğulluğunun daha perspektivli istiqamətləri müəyyənləşdirilməli və müvafiq tədbirlər görülməlidir. Qadın sahibkarlığının inkişafının dəstəklənməsinin təşkilati modellərinin, o cümlədən biznes inkubatorlarının yaradılması da Agentlik tərəfindən dəstəklənəcək".

# KOB MARAQLARININ
# MÜDAFİƏSİ





# 01. MÜRACİƏTLƏRİN STATİSTİKASI

## Müraciətlər və onlara baxılmasının nəticələri

2019-cu ilin yanvar-noyabr ayları ərzində Agentliyə sahibkarlıq subyektlərindən onların maraqlarının müdafiəsi ilə bağlı 649 şikayət xarakterli müraciət daxil olmuşdur.



Müraciətlərin 278-i Agentliyə birbaşa, 371-i isə Nazirlik vasitəsilə daxil olmuşdur.




Nazirlik vasitəsilə daxil olanlar
371 müraciət




Birbaşa Agentliyə daxil olanlar
278 müraciət




Elektron müraciətlər 159




Poçt vasitəsilə daxil olanlar
490 müraciət

Müraciətlər üzrə araşdırmalar maraqlı tərəflərin iştirakı ilə aparılıb, hər bir müraciətə fərdi qaydada yanaşılıb və qəbul edilərək müzakirələr aparılıb. Bakı şəhəri üzrə müraciət edən vətəndaşlar Agentliyin özündə, regionlar üzrə müraciət edən vətəndaşlar isə Agentliyin regionlar üzrə fəaliyyət göstərən nümayəndələri ("KOB Dostu") tərəfindən qəbul edilir. Ötən dövr ərzində bu sahədə Agentlikdə 200-dən çox vətəndaş qəbulu keçirilib, "KOB Dostu" tərəfindən isə 90 qəbul gerçəkləşdirilib.

## Keçirilmiş vətəndaş qəbullarının bölgüsü




Regionlarda keçirilmiş
qəbullar




Agentlikdə keçirilmiş
qəbullar

Daxil olmuş müraciətlər operativ qaydada araşdırılıb, bəzi hallarda araşdırma yerində aparılıb, zərurət yarandığı hallarda isə dövlət-sahibkar əməkdaşlıq platforması çərçivəsində görüşlər təşkil olunaraq mövcud problem açıq diskussiya müstəvisində araşdırılıb. Dövlət-sahibkar əməkdaşlıq platforması çərçivəsində dövlət orqanları ilə birgə üçtərəfli görüşlər təşkil edilib və bir çox hallarda müsbət nəticələr əldə olunub.

Həyata keçirilmiş tədbirlər nəticəsində 649 müraciətin 196-sı (30,2%) üzrə sahibkarların pozulmuş hüquqları bərpa olunmuş, 266-sı (41,0%) üzrə müraciətçilərə qanunvericiliyin tələbləri izah olunmaqla müvafiq tövsiyələr verilmiş, 100 müraciət (15,4%) “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikası Qanununun 7.10-cu maddəsinin tələblərinə uyğun olaraq mahiyyəti üzrə baxılaraq köməklik göstərilməsi və nəticələri barədə vətəndaşa məlumat verilməsi üçün aidiyyəti qurumlara göndərilmiş, 34 (5,2%) müraciətə zəruri sənədlər təqdim edilmədiyi üçün baxılması mümkün olmamış və ya qanunvericiliklə müəyyən edilmiş qaydada baxılmamış saxlanılmışdır, 53 (8,2%) müraciət üzrə isə icraat prosesi davam etdirilir.

## Müraciətlərin icra statusları



## Müraciətlərin şikayət mövzuları üzrə bölgüsü

Şikayətlərin 22%-i kommunal infrastruktura (qaz, elektrik, su təchizatı) qoşulma və istifadəsi ilə bağlı, 17%-i sahibkarlıq subyektləri arasında mübahisə ilə bağlı, 14%-i yerli icra hakimiyyəti orqanlarının səlahiyyətlərinə aid məsələlərlə bağlı, 10%-i idxal-ixrac prosedurları ilə bağlı, 8%-i əmlak məsələləri ilə bağlı, 6%-i vergi məsələləri ilə bağlı, 5%-i bank əməliyyatları və güzəştli kreditlərin ayrılması ilə bağlı, 4%-i haqsız rəqabətlə bağlı, 1%-i tikintiyə icazə ilə bağlı, 1%-i torpaq sahəsinin ayrılması və istifadəsi ilə bağlı, 1%-i icazələrin verilməsi ilə bağlı, 1%-i dövlət satınalmaları ilə bağlı, 10%-i digər məsələlərlə (o cümlədən ekoloji nəzarət, maliyyə nəzarəti, meliorasiya və su təsərrüfatı işləri, lizinq xidmətləri, bələdiyyələrin fəaliyyəti və s.) bağlı olub.



Daxil olmuş 649 müraciətin ən çoxu Bakı şəhəri (341 müraciət) üzrə olmaqla, qalanları müvafiq bölgü üzrə təsnifatlaşdırılıb – Aran iqtisadi rayonu (57 müraciət), Gəncə-Qazax iqtisadi rayonu (53 müraciət), Dağlıq Şirvan iqtisadi rayonu (53 müraciət), Abşeron iqtisadi rayonu (49 müraciət), Quba-Xaçmaz iqtisadi rayonu (28 müraciət), Şəki-Zaqatala iqtisadi rayonu (21 müraciət), Yuxarı Qarabağ iqtisadi rayonu (24 müraciət), Lənkəran iqtisadi rayonu (23 müraciət).

## Müraciətlərin iqtisadi rayonlar üzrə bölgüsü






## İşçi Qrupu ticarət mərkəzindəki yanğından zərər çəkmiş sahibkarları qəbul edib

Bakının Nizami rayonundakı "Diqlas" ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar martın 28-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə müşavirə keçirilib.

Müşavirədə dövlət başçısının verdiyi tapşırıqlara uyğun olaraq, zərər çəkmiş sahibkarlarla operativ əlaqələrin qurulması və onlara dəstək göstərilməsi işlərinin koordinasiyalı təşkili məqsədilə İqtisadiyyat Nazirliyində aidiyyəti dövlət qurumlarının nümayəndələrindən ibarət İşçi Qrupu yaradılıb. 29 mart 2019-cu ildə KOBİA inzibati binasında "Diqlas" ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar zərər çəkmiş sahibkarların problemlərinin öyrənilməsi məqsədilə İşçi Qrupu tərəfindən sahibkarların fərdi qaydada qəbuluna başlanılıb. Qəbulda ticarət mərkəzində baş vermiş yanğın nəticəsində zərər çəkmiş hər bir sahibkarın problemləri fərdi qaydada dinlənilib, onlarla müzakirələr aparılıb, göstəriləcək dövlət dəstəyi tədbirləri diqqətə çatdırılıb. Qəbulda iqtisadiyyat naziri Şahin Mustafayev qeyd edib ki, Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq, ticarət mərkəzində baş vermiş yanğından zərər çəkmiş sahibkarlara dövlət tərəfindən müvafiq dəstək göstəriləcək. Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən Bakı şəhərinin Nizami rayonundakı ticarət mərkəzində baş vermiş yanğın nəticəsində zərər çəkmiş sahibkarlara maddi yardım göstərilməsi üçün Prezidentin ehtiyat fondundan İqtisadiyyat Nazirliyinə 3 milyon manat ayrılıb. Bu vəsaitin zərər çəkmiş sahibkarlara təqdim olunması, həmçinin bu istiqamətdə müvafiq tədbirlərin görülməsi KOBİA tərəfindən həyata keçirilib.

# KOB
# KÖNÜLLÜLƏRİ



01 **KOBİA könüllü hərəkatı**

02 **Könüllü kitabxana**




# 01. KOBİA KÖNÜLLÜ HƏRƏKATI

## KOBİA yanında Könüllü Şurası



5 dekabr Beynəlxalq Könüllülər Günü münasibətilə KOBİA-da tədbir təşkil olunub. Agentlik əməkdaşlarının və könüllü gənclərin iştirakı ilə keçirilən tədbirdə KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov könüllülük fəaliyyətinin gənclərin işgüzar inkişafında mühüm rol oynadığını vurğulayıb, bu sahədə Agentlik tərəfindən görülən işləri diqqətə çatdırıb. Bildirilib ki, Agentlikdə "KOB könüllüləri" proqramına uyğun olaraq həyata keçirilən tədbirlərin əhatə dairəsi daha da genişləndiriləcək. Könüllü Şurasının bu işin öhdəsindən layiqincə gələcəyini qeyd edən Agentlik rəhbəri gənclərin dünyagörüşünün genişləndirilməsində, bilik və bacarıqlarının artırılmasında, məşğulluğadək olan proseslərdə könüllülük fəaliyyətinin rolunu diqqətə çatdırıb. "KOB könüllüləri" proqramının əsas istiqamətləri bunlardır:




könüllülərin təcrübə toplaması, könüllülük fəaliyyətinin təşkili və təşviqi, gənc mütəxəssislərin və tələbələrin sahibkarlığa cəlb edilməsi ("Young Internship Programmes"), ali təhsil müəssisələri, QHT və biznes qurumları ilə əməkdaşlıq. İşgüzar inkişafa nail olmaq istəyən gənclər Agentliyin könüllüləri sırasına qoşula bilərlər.

Qeyd edək ki, Agentliyin Könüllü Şurasını formalaşdıran ilk qrupdan ibarət könüllülər Azərbaycan Dövlət İqtisad və Bakı Mühəndislik universitetlərinin, Azərbaycan Dövlət Pedaqoji Kollecinin tələbə və magistrlarından ibarətdir. Sonda könüllü gənclərə xüsusi könüllü geyimləri, vəsiqələr və müxtəlif hədiyyələr təqdim olunub.







## 2 fevral – Gənclər Günü

KOBİA-da 2 fevral Gənclər Günü münasibətilə tədbir keçirilib. Agentlik əməkdaşlarının və könüllü gənclərin iştirakı ilə təşkil olunmuş tədbirdə qurumun İdarə Heyəti sədrinin müavini Nadir Adilov bu günün Ümummilli liderimiz Heydər Əliyevin 1997-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edildiyini və Ulu öndərin gənclərə diqqət və qayğısının göstəricisi olduğunu vurğulayıb. Qeyd edilib ki, bu siyasətin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində üç dövlət proqramı qəbul edilib, gənclər təhsil üçün xarici ölkələrin aparıcı universitetlərinə göndərilib, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu və digər dövlət dəstək mexanizmləri vasitəsilə istedadlı gənclərə və onların layihələrinə dəstək göstərilib, çoxlu “Gənclər evi” yaradılıb. Dövlət başçısının gənclərin hərtərəfli inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində bu gün Azərbaycan gəncləri ölkənin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak edir, Azərbaycanın inkişafına öz töhfələrini verirlər.




Hazırda KOB dostları ilə birlikdə 100-ə yaxın könüllü fəaliyyət göstərir.




Bildirilib ki, Azərbaycanda könüllülər hərəkatı geniş vüsət alıb. KOBİA-da da "KOB könüllüləri" proqramı həyata keçirilir, Könüllü Şurası fəaliyyət göstərir, könüllü gənclərlə mütəmadi olaraq görüşlər təşkil olunur. Hazırda KOB dostları ilə birlikdə 50-yə yaxın könüllü fəaliyyət göstərir. Gələcəkdə Agentlikdə könüllülük fəaliyyətinin daha da genişləndirilməsi, bu istiqamətdə bir sıra layihələrin reallaşdırılması nəzərdə tutulur.

Sonra Agentlikdə fəaliyyət göstərən könüllü gənclər səmərəli fəaliyyətlərinə görə diplomlarla təltif olunub. Masallı "KOB Dostu" ilə birlikdə fəaliyyət göstərən könüllü isə ayın könüllü gənci seçilib.











## KOB könüllüləri işlə təmin edilib

Azərbaycanda geniş vüsət almış könüllülük təşəbbüsünə qoşularaq gənclərə dəstək olmaq, peşəkar əmək fəaliyyətinə başlayana qədər gənclərin müvafiq peşə vərdişlərinə yiyələnməsi, dünyagörüşünün və praktik bacarıqlarının artırılması üçün Agentlikdə “KOB könüllüləri” fəaliyyət proqramı həyata keçirilir, Könüllü Şurası fəaliyyət göstərir. İndiyədək 100-dən çox gənc Agentlikdə könüllü qismində fəaliyyətə cəlb olunub. Üç ay davam edən təcrübə proqramının sonunda könüllülərə sertifikat təqdim edilir. Onlar ölkənin 14 şəhər və rayonunda “KOB Dostu” şəbəkəsində könüllü qismində fəaliyyət göstərir.

KOBİA-nın Masallı “KOB Dostu” ilə birgə fəaliyyət göstərən KOB könüllüsü Tamerlan Teymurov Agentlikdə könüllülük fəaliyyətini başa vuraraq Masallı Sənaye Məhəlləsində “Paşa sığorta” şirkətinin filialında işlə təmin olunub.

Agentlik olaraq KOB könüllümüzə iş həyatında uğurlar arzu edirik!

Masallı “KOB Dostu” ilə birgə fəaliyyət göstərən KOB könüllüsü Mirdadaş Əzizov Agentlikdə könüllülük fəaliyyətini uğurla başa vuraraq Masallı Sənaye Məhəlləsində “Azərpoçt” MMC-nin filialında işlə təmin edilib. KOBİA kollektivi olaraq KOB könüllümüzə iş həyatında uğurlar arzu edirik!







Gənclərə dəstək olmaq, peşəkar əmək fəaliyyətinə başlayana qədər gənclərin müvafiq peşə vərdişlərinə yiyələnməsi, dünyagörüşünün, bilik və praktik bacarıqlarının artırılması üçün Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyində "KOB könüllüləri" fəaliyyət proqramı həyata keçirilir. Daha iki KOB könüllüsü: Rəşad Rüstəmov və Navad Qələndərova könüllü fəaliyyətini uğurla başa vuraraq, "166 Global Logistics LLC" şirkətində ofis meneceri kimi fəaliyyətə başlayıblar. "KOB könüllüləri"nə iş həyatında uğurlar arzu edirik!

KOBİA-da gənclərin bilik və bacarıqlarının, dünyagörüşlərinin artırılması, peşəkar əmək fəaliyyətinə başlayanadək əmək vərdişlərinin aşılanması məqsədilə həyata keçirilən "KOB könüllüləri" proqramının iştirakçısı olmuş Lamiyə Çobanzadə Agentlikdə işlə təmin edilib.






# "KOB könüllüləri"nin sıraları genişlənir

**KOBİA "KOB könüllüləri"nin sırasına yeni könüllülər qoşulub. Artıq Agentliyin regionlardakı KOB dostları ilə birlikdə fəaliyyət göstərən könüllülər də daxil olmaqla KOBİA-da 100-ə yaxın gənc könüllü fəaliyyəti ilə məşğuldur.**

KOBİA İdarə Heyəti sədrinin müavini Nadir Adilov Agentlikdə yeni könüllülərin fəaliyyətə başlaması ilə bağlı keçirilmiş tədbirdə çıxış edərək bildirib ki, Agentlikdə "KOB könüllüləri" proqramı həyata keçirilir, Könüllü Şurası fəaliyyət göstərir. Bildirilib ki, Agentlikdə könüllü fəaliyyətini başa vurmuş bir sıra gənclər artıq işlə təmin olunub. "KOB könüllüləri" proqramı barədə gənclərin ətraflı məlumatlandırılması, eləcə də gənclərin "KOB könüllüləri" sırasına qoşulması üçün Agentliyin www.smb.gov.az saytında xüsusi bölmə yaradılıb. Gələcəkdə Agentlikdə könüllülük fəaliyyətinin daha da genişləndirilməsi, bu istiqamətdə bir sıra layihələrin reallaşdırılması nəzərdə tutulur.

Sonra Agentlikdə könüllülük fəaliyyətinə yeni qoşulmuş gənclərə "KOB könüllüləri"nin fəaliyyəti barədə ətraflı məlumat verilib, KOB könüllüsü Lamiyə Çobanzadə aktiv fəaliyyətinə görə ayın könüllüsü seçilib.






# “KOB könüllüləri” sahibkarları məlumatlandırır

KOBİA “KOB könüllüləri” Qəbələ şəhərinin Vəndam qəsəbəsində mikro və kiçik sahibkarları, fermerləri Agentliyin fəaliyyəti, göstərdiyi xidmətlər barədə məlumatlandırıb.

İctimai iaşə obyektləri, tikiş sexləri, mebel və inşaat materialları mağazalarında, fərdi təsərrüfatlarda olan “KOB könüllüləri” sahibkarları biznesin qurulması və inkişafı, hüquq və mənafelərinin müdafiəsi, özünüməşğulluq proqramına qoşulmaq kimi məsələlərlə bağlı Qəbələ-Oğuz “KOB Dostu”na müraciət edə biləcəkləri barədə məlumatlandırıb, onlara maarifləndirici bukletlər paylayıblar. Görüşlər Vəndam qəsəbəsində fəaliyyət göstərən sahibkarlar və vətəndaşlar tərəfindən maraqla qarşılanıb.

Agentliyin digər şəhər və rayonlarında fəaliyyət göstərən “KOB könüllüləri” tərəfindən KOBİA-nın fəaliyyəti və göstərdiyi xidmətlər barədə yerli sahibkarların məlumatlandırılması məqsədilə belə görüşlərin bundan sonra da davam etdiriləcəyi vurğulanıb.




## KOBİA Könüllü Şurasının iclası keçirilib

> Agentlikdə könüllülük fəaliyyətinin daha da genişləndirilməsi, bu istiqamətdə bir sıra layihələrin reallaşdırılması nəzərdə tutulur.

Agentlik əməkdaşlarının və könüllü gənclərin iştirakı ilə təşkil olunmuş tədbirdə KOBİA İdarə Heyəti sədrinin müavini Nadir Adilov qurumun "KOB könüllüləri" proqramı, Könüllü Şurasının fəaliyyəti barədə məlumat verib. Qeyd olunub ki, hazırda Agentlikdə və qurumun regionlardakı KOB dostları ilə birlikdə 50-dək könüllü fəaliyyət göstərir. Agentlikdə könüllülük fəaliyyətinin daha da genişləndirilməsi, bu istiqamətdə bir sıra layihələrin reallaşdırılması nəzərdə tutulur. İclasda Agentlikdə, Gəncə şəhərində və Xaçmaz rayonunda KOB dostları ilə birlikdə fəaliyyət göstərən üç könüllü gənc ayın könüllüləri seçilib.

# Məzun könüllülərə sertifikatlar təqdim olunub

**Daha bir qrup gənc KOBİA-da könüllü fəaliyyətini uğurla başa çatdırıb.**






Gənclərə peşəkar əmək fəaliyyətinə başlayanadək əmək vərdişlərinin aşılanması, onların bilik və bacarıqlarının, dünyagörüşlərinin artırılması, sahibkarlara dəstək məqsədilə gənc mütəxəssislərin və tələbələrin sahibkarlığa könüllü olaraq cəlb edilməsinin təşviqi məqsədilə Agentlikdə həyata keçirilən “KOB könüllüləri” proqramının məzunlarına KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov tərəfindən məzun sertifikatları təqdim olunub.

İndiyədək 100-ə yaxın gənc KOBİA-da könüllü fəaliyyətinə cəlb olunub. Onlardan 50 nəfəri hazırda Agentlikdə və regionlardakı “KOB Dostu” şəbəkəsində könüllü kimi çalışır. KOBİA-da könüllü fəaliyyətini uğurla başa vuran gənclər müvafiq təcrübə əldə etməklə karyera imkanlarını genişləndirir və uğurla əmək bazarına daxil olurlar. Məzun könüllülərimizə gələcək fəaliyyətlərində uğurlar arzu edirik!



# KÖNÜLLÜ KİTABXANA

## KOBİA-da könüllülər üçün kitabxana yaradılıb

Agentlikdə fəaliyyət göstərən "KOB könüllüləri"nin bilik və bacarıqlarının, dünyagörüşlərinin artırılması məqsədilə təşkil olunmuş "Könüllü kitabxanası"na KOBİA-nın əməkdaşları tərəfindən iqtisadiyyat, sahibkarlıq, idarəetmə və digər sahələrə dair müxtəlif kitablar təqdim olunub.

KOBİA-da könüllü fəaliyyətinə cəlb olunmuş gənclər üçün müxtəlif mövzularda təlimlər də keçirilir. Könüllü fəaliyyətinin fəlsəfəsi, karyeranın inkişafı, eləcə də iş prosesində könüllülər üçün faydalı olacaq müxtəlif məlumatların təqdim olunduğu təlimlərdə gənclər könüllülük haqqında fikirlərini bölüşür, kreativ təşəbbüslərlə çıxış edirlər. Könüllülərin asudə vaxtının səmərəli təşkili məqsədilə Agentliyin dəstəyi ilə "KOB könüllüləri" müxtəlif düşərgələrə də qatılırlar. "KOB könüllüləri" arasında elmi məqalə müsabiqələrində yaxşı nəticələr əldə etmiş gənclər də var.

Agentlik tərəfindən könüllülərin vaxtının daha səmərəli təşkili, eləcə də onların bilik və bacarıqlarının artırılmasında əhəmiyyətli olacaq digər layihələrin də həyata keçirilməsi nəzərdə tutulur.

# Qeydlər

Tərtibat və dizayn
TEAS Press Nəşriyyat evinə
məxsusdur.